Hər kəs ədalətli olacaq
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 34 (6077) 6 sentyabr 2024-cü il | Qiyməti 40 qəpik

## PREZİDENT VƏ XANIMI İTALİYAYA SƏFƏR ETDİ



Bax:səh-2

## Əli Əsədovdan Səhiyyə Nazirliyi ilə bağlı yeni qərar



**Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısında dəyişiklik edilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, siyahıya Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi əlavə edilib.

## Separatçılarla bağlı cinayət işinin istintaqı başa çatdı



**Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğalından sonra yaradılmış qondarma qurumun separatçı rəhbərlərinin barəsində olan cinayət işlərinin istintaqı başa çatıb.**

Adalet.az xəbər verir ki, bunu Rusiyada Şərq İqtisadi Forumunda iştirakla bağlı səfərdə olan Azərbaycanın Baş prokuroru Kamran Əliyev News.ru-ya müsahibəsində deyib.

Baş prokuror, separatçılarla bağlı cinayət işi üzrə istintaqın başa çatdığını, cinayət işi materiallarının baxılması üçün yaxın vaxtlarda məhkəməyə göndəriləcəyini bildirib.

## "Sosial şəbəkədə olan bütün görüntülər araşdırılacaq"

**"Daxil olan müraciətləri araşdıracağıq". Adalet.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib.**

MSK sədri bildirib ki, milyonlarla insanın iştirak etdiyi tədbirdə hansısa pozuntu baş verə bilər: "MSK hər zaman eyni prinsiplə işləyib.

Bizim haqqımızda nə deyilir, nə yazılır qəti bizim üçün əhəmiyyəti yoxdur. Bizə lazımdır ki, Azərbaycan vətəndaşları görsün ki, qəbul etdiyimiz qərarlar əsaslandırılmış qərarlardır. Hansısa məntəqədə pozuntu halı ilə bağlı bizə müraciət daxil olmayıbsa, biz onunla bağlı qərar qəbul edə bilmərik. Biz işimizi yüksək səviyyədə görəcəyik. Hesab edirəm ki, Azərbaycan cəmiyyəti bizim işimizi qiymətləndirəcək. Sosial şəbəkədə olan bütün görüntülər də araşdırılacaq. Biz nəticəyə gələcəyik. Əfsuslar olsun ki, çox vaxt beynəlxalq qurumlar, müraciət edənlər sona qədər iştirak etməkdən qaçırlar. Bu qədər kamera qarşısında danışırıq, araşdırırıq. Sabah bu sözümüzü dəyişmək olmaz. Çoxları deməsin ki, MSK-da məsələlər gizlin aparılır".

## Polisə açılan atəş dövlətə açılan atəşdir




**Paytaxtın Sabunçu rayonunda narkopritonda silahlı insident olub.**

DİN-in Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, sentyabrın 4-də saat 21 radələrində paytaxtın Sabunçu rayonunda polis əməkdaşları tərəfindən evlərin birində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqəli daxil olan məlumat üzrə əməliyyat keçirilib. Əməliyyat tədbirində polis əməkdaşlarına silahlı müqavimət göstərən şəxs xidməti tabel silahı tətbiq olunmaqla zərərsizləşdirilib. Müəyyən edilib ki, narkopriton təşkil edən şübhəli şəxs əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə dəfələrlə məhkum olunmuş Məmmədov Akif Zakir oğludur. Hadisə yerindən 2 kq müxtəlif növlü narkotik vasitələr və "Makarov" markalı tapança aşkar olunaraq götürülüb.

Fakt üzrə araşdırmalar davam etdirilir.

## Azərbaycanda meymunçiçəyinə yoluxma qeydə alınıb?




**Azərbaycanda bugünədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyindən məlumat verilib.

Respublika ərazisində, xüsusi ilə sərhəd keçid məntəqələrində meymunçiçəyinə şübhəli hallar üzərində epidemioloji nəzarət gücləndirilib.

*Əbülfət MƏDƏTOĞLU*

## Sözün işıqlı anı

Bax:səh-8

## Zaur Əliyevdən günün statusu



**50 qəpik verib avtobusda, tıxacda, basabasda, gedirəm TV kanalda canlı yayımda dünyada baş verən prosesləri danışmağa..Kül bu dünyanın başına ki, onun haqqında belə vəziyyətdə gedib mən danışacam.**

## Ermənilər Kəlbəcəri atəşə tutdu

**Sentyabrın 5-i saat 09:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zivel yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

## GÜNÜN LƏTİFƏSİ

Bir oğlan oturur skamyada:
**- Ay Allah, indi mən neynəyəcəm.**
Dostu gəlir soruşur:
- De görək nolub?
**- Otur deyəcəm.**
Dostu oturub yenə soruşur, de görək nolub?
**- Skamyanı rəngləyiblər.**

# Prezident və xanımı İtaliyaya səfər etdi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə sentyabrın 4-də Romaya işgüzar səfərə gəlib.**

Adalet.az xəbər verir ki, Roma şəhərinin "Leonardo da Vinci Rome Fiumicino" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri qarşıladılar.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.**

***

**Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.**

Adalet.az xəbər verir ki, Romanın "Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliyanın nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olundu.

**Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni birgə foto çəkdirdilər.**

# Hikmət Hacıyev: "İkitərəfli danışıqlarda irəliləyiş var"

**Onilliklərlə davam edən münaqişədən sonra Cənubi Qafqaza sülh gətirə biləcək çoxdan gözlənilən saziş tamamlanmaq üzrədir.**

Adalet.az xəbər verir ki, bu barədə "Politico" nəşri məlumat dərc edib.

Nəşrin məlumatına görə, Ermənistan və Azərbaycan tərəfləri bu barədə məlumatı təsdiqləyib.

Şənbə günü keçirdiyi mətbuat konfransında Ermənistanın baş naziri Nikol Paşinyan hökumətinin son aylar ərzində ikitərəfli danışıqlarda əsas məsələlər üzrə kifayət qədər irəliləyişin əldə olunduğu qənaətinə gəlib.

O, Azərbaycana sülh müqaviləsi imzalamaq üçün rəsmi təklif verdiyini açıqlayıb: "Sülh müqaviləsinin son layihəsində 17 maddə var. Onlardan 13-ü, o cümlədən preambula tam razılaşdırılıb. Biz bütün razılaşdırılmış mad-



dələri və ifadələri götürüb sülh müqaviləsi kimi imzalamağı təklif edirik".

Bəyanat iki tərəfin ortaq sərhədlərinin demarkasiyası və delimitasiyası üzrə birgə sərhəd komissiyası haqqında sazişin imzalandığını elan etməsindən bir gün sonraya təsadüf edir. 2022-ci ildə baş vermiş müharibədən sonra sərhəddəki gərgin vəziyyəti müşahidə etmək üçün Ermənistanda Avropa İttifaqının monitorinq missiyası yerləşdirilib. Bundan sonra oradakı rus sərhədçiləri geri çəkilib.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Politico"ya açıqlamasında bildirib ki, ikitərəfli danışıqlarda irəliləyiş var. Diplomat əlavə edib ki, sərhəd komissiyası ilə bağlı razılaşma Aİ missiyasının çıxarılması üçün yetərli sayılmalıdır: "Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası komissiyasının birgə fəaliyyətinin tənzimlənməsi haqqında saziş Aİ-nin mülki missiyasının Ermənistandan çıxarılması üçün kifayət qədər əsasdır".

# Azərbaycan XİN Fransaya cavab verib

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirirək, Azərbaycana dair açıqladığı sərt səyahət xəbərdarlığını qətiyyətlə pisləyirik.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan XİN sözçüsü Ayxan Hacızadə deyib.

Fransa tərəfindən verilmiş bu cür əsassız və qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Fransa vətəndaşlarının əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Azərbaycanda indiyə qədər yalnız Fransa Respublikasının vətəndaşı Martin Rian ötən ilin 4 dekabr tarixində




Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı Metrosunda törətdiyi əmələ görə saxlanıldığı məlumdur.

Bunun əksinə, Fransa tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen ölkəsi ərazilərinə səyahətləri zamanı tətbiq etdiyi manеələr Fransanın təbliğ etdiyi "insan hüquqlarına" tamamilə zidd olduğu aydındır.

Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neo-kolonial siyasəti, irqçilik, diskriminasiya, İslamofobia, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də, Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

Biz bir daha Fransa tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik.

# Növbədənkənar parlament seçkilərinə sentyabrın 22-dək yekun vurulacaq




**Növbədənkənar parlament seçkilərinin nəticələrinin yoxlanılması və yekun vurulması prosesinin nə zaman başa çatacağı məlum olub.**

Adalet.az-ın xəbərinə görə, bu, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda əksini tapıb.

Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermə günündən ən geci 20 gün keçənədək Milli Məclisə seçkilərin nəticələrinin yoxlanılması və yekun vurulması təmin edilməlidir.

Növbədənkənar parlament seçkiləri ilə əlaqədar bu müddət sentyabrın 22-dək olan dövrü əhatə edir.

Seçkilərin ümumi yekunları haqqında protokol tərtib edildikdən sonra 24 saat müddətində Mərkəzi Seçki Komissiyası seçkilərin yekunlarının və nəticələrinin təsdiq olunması üçün müvafiq sənədləri Konstitusiya Məhkəməsinə təqdim etməlidir.

**Konstitusiya Məhkəməsi müvafiq sənədləri aldıqdan sonra 10 gün müddətində (yoxlama prosesi tələb etdikdə, həmin müddət artırıla bilər) Milli Məclisə seçkilərin yekunlarının və nəticələrini yoxlayaraq təsdiq edəcək.**

# Baş Prokurorluq İsmayıllıdakı əməliyyatın detallarını açıqladı

**İsmayıllı Rayon İcra Hakimiyyəti Başçısının İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Süleymanov Əlişir Muxibbi oğlunun və rayonunun Diyallı bələdiyyəsinin sədri vəzifəsini icra edən sədr müavini Surxayev Cahangir Məhyəddin oğlunun qanunsuz əməllərə yol verməsi barədə daxil olmuş məlumatlar əsasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işləri başlanmışdır.**

Bu barədə Adalet.az-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, istintaq-əməliyyat tədbirləri ilə Əlişir Süleymanovun xidməti vəzifələrinin icrası ilə bağlı İsmayıllı şəhəri ərazisində yerləşən qeyri-yaşayış sahələrində müvafiq tikinti işlərinin aparılmasına maneə yaradılmaması və işlərin davam etdirilməsinə şərait yaradılmaqla himayədarlıq göstərilməsi müqabilində ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində istəməsinə və almasına əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Cahangir Surxayevin vəzifə səlahiyyətlərini aşaraq ona müraciət etmiş şəxsə kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin saxta sənədlərin tərtib edilməsi yolu ilə icarəyə verilməsi müqabilində həmin şəxsdən hissə-hissə olmaqla külli miqdarda pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilmişdir.



Cinayət işləri üzrə toplanmış ilkin sübutlar əsasında Əlişir Süleymanova Cinayət Məcəlləsinin 311.3.2 və 311.3.3 (təkrar və külli miqdarda rüşvət alma) maddələri, Cahangir Surxayevə isə həmin Məcəllənin 309.1 (vəzifə səlahiyyətlərini aşma), 311.3.3 (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilmiş, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında onların hər ikisi barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, Ə.Süleymanov 1992-2016-cı illərdə Azərbaycan ordusunda müxtəlif hərbi vəzifələr üzrə xidmət edib. O, 2016-cı ildə polkovnik-leytenant rütbəsi ilə ehtiyata buraxılıb.

# "Parlament seçkilər ölkənin Konstitusiyasına uyğun keçirilib"

**Azərbaycanda növbədənkənar parlament seçkilər ölkənin Konstitusiyasına və onun milli qanunlarına tam uyğun keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bunu Avropa ittifaqının seçkilərlə bağlı yaydığı məlumata cavab olaraq "X"də yazıb. "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stanonun bu cür subyektiv və qərəzli siyasi baxışı ATƏT DTİHB-nin Azərbaycandakı seçkilərlə bağlı mənfi münasibətini təkrarlayır və etibarsızdır. Seçkilər ölkənin Konstitusiyasına və milli qanunlarına tam uyğun şəkildə keçirilib",-XİN rəsmisi vurğulayıb.

Qeyd edək ki, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stano rəsmi "X" hesabında Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini tənqid edib.

# Ərdoğan Heydər Məmmədovla görüşdü

**Sentyabrın 2-də Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Anar Nəsibovdan ibarət nümayəndə heyəti qardaş Türkiyə Respublikasının Ankara şəhərində "2024-2025 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak ediblər.**

Adalet.az xəbər verir ki, mərasimdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ali Məhkəmənin sədri Ömer Kerkez, Baş prokuroru Muhsin Şentürk, digər hakim və prokurorlar iştirak ediblər. Tədbir çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan prokurorluğun nümayəndə heyətinin rəhbəri Heydər Məmmədovu və eyni zamanda tədbirdə iştirak edən Ali Məhkəmənin nümayəndə heyətinin rəhbəri, həmin məhkəmənin sədr müavini Çingiz Əsgərovu qəbul edib. Daha sonra prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürk və Ali Məhkəmənin sədri Ömer Kerkezlə rəsmi görüşlər keçirib, ölkələrimiz arasında hüquqi əməkdaşlığın daha da inkişaf etdirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.



Görüşlər zamanı 29 sentyabr - 2 oktyabr tarixlərində Bakı şəhərində keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağı barədə həmkarlara məlumat verilib, tədbirə qatılacaq Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürklə konfrans barədə müzakirələr aparılıb. Həmçinin noyabr ayında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 tədbirinin müstəsna tarixi əhəmiyyəti və həmin mötəbər tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi mövzusunda yüksək səviyyəli plenar sessiyanın keçiriləcəyi barədə həmkarlara ətraflı məlumat verilib.

## *MEDİA-nın Naxçıvan regional idarəsinin Əsasnaməsi təsdiqləndi*



**3 sentyabr 2024-cü il tarixində Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası baş tutub.**

Adalet.az xəbər verir ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri Vüqar Əliyev, Şəfəq Mehrəliyeva, Sevil Mikayılova, Elçin Şıxlı, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Media sektorunun müdiri Kamran Həsənov, Agentliyin İcraçı direktoru Əhməd İsmayılov və Audiovizual Şuranın aparat rəhbəri Fazil Novruzov iştirak edib.

İclasın gündəliyinə uyğun olaraq, dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin nəticələri və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin Əsasnaməsi" təsdiq edilib.

Bununla yanaşı, cari il üçün həyata keçirilməsi nəzərdə tutulan fəaliyyət istiqamətləri, Agentliyin strateji məqsədləri və planları, icra ediləcək tədbir və layihələrə dair ətraflı müzakirələr aparılıb.

## *Rusiya ABŞ-ın aktivlərini müsadirə edəcək*



**ABŞ Rusiyanın aktivlərini müsadirə edərsə, Moskva buna cavab olaraq ABŞ-ın Rusiyadakı aktivlərini müsadirə edəcək. Bu barədə Rusiya xarici işlər nazirliyinin iqtisadi əməkdaşlıq üzrə departamentinin direktoru Dmitri Briçevski bəyan edib.**

Rusiyanın prezidenti Vladimir Putin hələ may ayında imzaladığı fərmanda bildirilir ki, əgər ABŞ Rusiyanın aktivlərini müsadirə etmək barədə qərar qəbul edərsə, ölkəsinə dəyən ziyanın əvəzinə Birləşmiş Ştatların və onlarla əməkdaşlıq edən ölkələrin Rusiyada yerləşdirilən aktivləri müsadirə olunacaq. Rusiyalı diplomat bildirir ki, hələ ki, formal olaraq Rusiyanın ABŞ-dakı aktivləri və daşınmaz əmlakları müsadirə olunmayıb, yalnız dondurulub. Nominal olaraq bu əmlaklar hələ ki, Rusiysa məxsus olaraq qalmaqdadır: "Biz gələcəkdə atılan addımlara qarşı adekvat addımların atılması üçün hazırlıqlara başlamışıq". Amerikan administrasiyası Avropadan Rusiyaya məxsus aktivləri hələ uzun müddətə dondurulmuş vəziyyətdə saxlamağı xahiş edib.

**Rüstəm Hacıyev**

# Ekspert: «Sumqayıtdan Bakının bir neçə yerinə ictimai nəqliyyat təşkil edilməlidir»

**""20 Yanvar" metrostansiyası ətrafında, Tbilisi prospektində avtobus zolağı yaradıldıqdan sonra orada maraqlı proseslər baş verir və buna uyğun müzakirələr gedir".**

Adalet.az xəbər verir ki, bunu nəqliyyat üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov sosial şəbəkə hesabında yazıb.

Ekspert bildirib ki, orada problem nə avtobus zolağı, nə də "qanunsuz" sərnişindaşımada istifadə edilən taksilər və mikroavtobuslardır:

"Problem məsələnin həllinə yanaşmalardakı və baxışlardakı səhvlərdir. Əvvəllər dəfələrlə qeyd etdiyim kimi, bu iki şəhər arasında təkcə vağzaldan-vağzala sərnişindaşıma yanlış yanaşmadır.

Sumqayıtın şəhər kimi tikildiyi ilk illərdən bu iki şəhər vahid aqlomerasiyadır. Deməli, onlara həm də vahid mobillik zonası (məkanı) kimi baxılmalıdır. On minlərlə (bəkə də yüz mindən çox) insan mütəmadi olaraq hər gün bu iki şəhər arsında gedib-gəlir. Bu, onların rutin həyatının axarıdır. Həmin adamlar bu şəhərlərdən birində yaşayıb, o birisində işləyirlər, təhsil alırlar və s.

Müasir şəhərdə yaşayan insan gündəlik həyatında mobilliyini təmin etmək üçün 2 çox ciddi amili nəzərə alır: səyahətə (gediş-gəlişə) sərf etdiyi vaxt və səyahətin qiyməti (gediş-gəlişə xərclədiyi pul). Bakı-Sumqayıt arasında vağzaldan-vağzala üsulu ilə təşkil edilən qanuni ictimai nəqliyyatdan istifadə zamanı bu amillərin hər ikisinin ən uğursuz variantı ortaya çıxır. Tərslikdən hər iki şəhərin avtovağzalı bir-birinə tərəf ən yaxın çıxışda yerləşir. Bu üsulla Bakı-Sumqayıt arsında gedib-gələn hər kəs məcburdur ki, hər iki şəhərin daxili nəqliyyatından da istifadə etsin, özü də bəzən bir neçə avtobus marşrutu və ya metrostansiyası dəyişməklə. Bu isə orta statistik sərnişinin bu iki şəhər arasındakı səfər müddətini bəzən 2 saata, səfər qiymətini isə 2 manata yaxınlaşdırır. Deməli, çox səmərəsiz və insanları qaçırdan bir üsuldur".



Ə.Hüseynov qeyd edib ki, ona görə də Sumqayıtın bir neçə yerindən Bakının bir neçə yerinə (o cümlədən elə həmin "20 Yanvar" stansiyasının yanına) və əksinə ictimai nəqliyyat təşkil edilməlidir: "Sərnişin axını, infrastruktur araşdırılmaqla müxtəlif tutumlu avtobuslarla marşrutlar yaradılmalıdır. Maraqlısı odur ki, sovet dövründə və təxminən 15 il bundan əvvələ qədər Sumqayıtın bir neçə yerindən Bakının bir neçə yerinə və əksinə ictimai nəqliyyat var idi. Bunu daha müasir və mədəni şəkildə bərpa etmək lazımdır. Bu iki şəhər arsında qatarla daşımanın da imkanları ciddi yaxşılaşdırılmalıdır. İndiki vəziyyətdə "qanunsuz" dediyiniz taksilər və mikroavtobuslar həmin ictimai nəqliyyatın işini görürlər. Belə yanaşma davam etdikcə onlara tələbat da qalacaq. Onları kimsə "20 Yanvar" stansiyası ətrafından yığışdırsa da, qısa müddətdə başqa bir yerdə, bəlkə də daha eybəcər formada toplaşacaqlar. Bakının şimalındakı qəsəbələrə və Xırdalana gedənlərin isə ən böyük problemi avtobus çatışmazlığı, avtobusların qeyri-dəqiq qrafiklə işləməsi, mövcud avtobusların çoxunun ən aşağı komfortda olmasıdır. Bu problemlər həll edilsə, həmin qəsəbələrə və Xırdalana gedib-gələnlərin "qanunsuz" dediyiniz taksilərə və mikroavtobuslara ehtiyacı qalmayacaq".

*Rüstəm Hacıyev*



# "Avropa zəncir gəmirir"

## *Kirill Loqvinov: "Avropa İttifaqı münaqişənin eskalasiyası kursunu götürüb"*

***Rusiyanın Avropa İttifaqındakı daimi nümayəndəsi Kirill Loqvinov Lenta.ru saytına müsahibəsində bildirib ki, Rusiya və Avropa İttifaqı arasında münasibətlər hazırda ən aşağı nöqtəyə düşüb. Rusiyanın rəsmi nümayənləri açıq şəkildə bunu ölkələrinə qarşı düşmənçilik kimi qiymətləndirirlər. Rusiya artıq çoxdan avropalı məmurlar üçün strateji əməkdaşlıqdan çıxaraq, əvvəlcə strateji rəqibə, daha sonra isə düşmənə çevrilib.***

***Avropa İttifaqı nəinki Ukraynaya hərbi və maliyə dəstəyini genişləndirir, hətta Rusiyanın enerji və nəqliyyat layihələrinə, bank sektoruna qarşı növbəti sanksiyalar paketi hazırlayır. Avropa İttifaqı niyə Ukraynaya dəstəyini genişləndirir, münasibətlərin pozulmasına baxmayaraq, Rusiya ilə Avropa arasında hansı əlaqələr davam etdirilir və gələcəkdə ikitərəfli münasibətləri nələr gözləyir?***

***Xəbər verildiyi kimi, bu günlərdə Telegram kanalının yaradıcısı və rəhbəri Pavel Durov Fransada həbs olunub. Loqvinovun sözlərinə görə, avroməmurlar bu həbsə heç bir reaksiya göstərmədilər, jurnalistlərin suallarına cavab vermədilər. Ümumiyyətlə Aİ-də başqa-başqa ölkələrə müxtəlif cür yanaşırlar. Bəzi bəyənatlara və ya qərarlara tez qiymət verirlər, bəzilərinin bəyənatlarına münasibətdə susmağa üstünlük verirlər.***

***Biz özümüzdə Ermənistan-Azərbaycan münaqişəsində də, Avtopa İttifaqının ölkəmizə qarşı biryərfli mövqe tutaraq, apardığı çirkin təbliğatın dəfələrlə şahidi olmuşuq.***

***Loqvinov qeyd edir ki, əslində Pavel Durov və X sosial şəbəkəsinin sahibi İlon Maks arasında göstərdikləri media fəaliyyətləri ilə bağlı elə də bir fərq yoxdur. Hər ikisi əslində dünyada baş verən məlumatları öz kanalları vasitəsylə yayırlar. Lakin Avropa İttifaqının "tələblərinin" məntiqi belədir ki, bu mətbu əhatə, avtosenzura və avtonəzarəti avroməmurların birbaşa iştirakı ilə həyata keçirməlidirlər.***

***Avropa İttifaqı Ukrayna ordusunun Kursk vilayətinə, Rusiya ərazilərinə hücumunu sanki "zəncir gəmirirmiş" kimi qarşıladı. Onlar növbəti dəfə təsdiq etdilər ki, Rusiyaya qarşı "xaç yürüşü" və hətta adi terrorçuluq hərəkətləri ukraynalıların haqq işi sayırlar.***

***Rusiyalı diplomat bıdirir ki, qərb, mediyada onları qane etməyən məlumatları, avromatik olaraq "dezinformasiya" və ya "Kremlin təbliğatı" kimi dəyərləndirilir. Brüssel bürokratiyası, "Avropa İttifaqı təhlükədədir" bəhanəsiylə üzv ölkələri milli maraqlarının əleyhinə olan addımlar atmağa məcbur edirlər.***

***Rusiyalı diplomatlarla hər hansı bir kontakt, avrodeputatların "siyasi ölümünə" çevrilə bilər. Avropa İttifaqı şüurlu şəkildə Rusiyaya qarşı geosiyasi qarşıdurmaya gedir.***

***Rusiyanın Aİ-dəki daimi nümayəndəsi hesab edir ki, münasibətlərin bərpa edilməsi üçün Qərb Rusiyaya qarşı apardığı hibrit müharibədən imtina etməlidir. Lakin, təəsüflər olsun ki, Qərbin "Şərqə doğru yürüşündən" imtina edəcəyi ilə bağlı ümidverici perspektivlər görünmür...***

## *"NATO seçim qarşısında"*

**Helsinski universitetinin professoru, geosiyasət üzrə ekspert Tuomas Malininin fikirincə, NATO Ukrayna silahlı qüvvələrinin şərq cəbhəsində yaranan gərginlik və münaqişənin tənzimlənməsi məsələsi ilə bağlı seçim qarşısında qalıb.**

X sosial şəbəkəsində bunla bağlı ehtimalları bölüşən professor yazır ki, "Ukrayna silahlı qüvvələrinin şərq cəbhəsində məğlubiyyəti qaçılmazdır. Bu isə o deməkdir ki, biz müharibənin son nöqtəsinə yaxınlaşırıq: ya vəziyyəti ağılsız şəkildə gərginləşdirməyə aparmalı (başqa bayraq altında), ya da məsələnin sülh yolu ilə həlli yollarını axtarmalı"- deyə Tuomas Malinin bildirib...

Dünən məlum oldu ki, Finlandiya Rusiya ilə sərhədlərdə tikməyə başladığı hasarı yarım metr də hündürlüyə qaldırmaq qərarlna gəlib. Bildirilir ki, sərhəd hasarlarının tikintisi 2026-cı ildə başa çatdırılmalıdır.

Bununla yanaşı Finlandiyanın prezidenti Aleksandr Stybb, ölkəsinin ərazilərində nüvə silahlarlnın yerləşdirilməsiylə bağlı yayılan xəbərləri təkzib edib və bəyan edib ki, NATO-nun Finladiya ərazilərində nüvə silahlarının yerləşdirilməsinə icazə verilməyib və bundan sonra da icazə verilməyəcək.

**Rüstəm Hacıyev**

# Paşinyanın Zəngəzur səfəri: O, vaxtilə Azərbaycanlıların yaşadığı Vağudiyə niyə gəlib?

**Ötən gün Ermənistan mediası xəbər yaymışdı ki, Baş naziri Nikol Paşinyan sabah, sentyabrın 2-də Kirantsa səfər edəcək.**

Xəbəri isə mediaya Kirants sakinləri ötürmüşdü. Paşinyan Azərbaycanla sərhədin 50 metrliyində yerləşən Kirantsda yeni məktəbin açılışında iştirak edəcəyi də kirantsılılara hökümət dairələrindən xəbər verilmişdi.

Amma bu gün media yazır ki, Paşinyan hazırda Zəngəzur mahalının Qarakilsə (Sisian) şəhərindədir.

Paşinyan Vaqatin icmasının yeni tikilən məktəbinin açılış mərasimində iştirak edir.

Qeyd edək ki, Zəngəzur qəzasında, indiki Sisian rayonunda əvvəlki adı Vaqudi olan və adı dəyişdirilərək Vaqatin olan kənd rayon mərkəzindən 9 km cənub-şərqdədir Tədqiqatçıların və araşdırmaçıların bildirdiyinə görə Bazarçay çayının sol sahilində, Ağudi kəndindən 3 km məsafədə yerləşən bu kənd Qafqazın 5 verstlik xəritəsində qeyd edilib. Vağudi adlı 3 kənd olmuşdur: I Vağudi, II Vağudi, III Vağudi.

Vağudi kəndi həmin 3 Vağudi adlı kəndlərinin birləşməsindən yaranıb. Vagudi kəndinin 1918-ci ildə 1330 nəfər əhalisi olub.



Kənd əhalisinə böyük zülm edilib, 15 gözəl qız təhqir edilərək öldürülüb. Kənd dağılarkən sığınacaq axtaran 400 müsəlman məscidə doldurulub, əvvəlcə pəncərədən əldəqayırma bomba atılıb, sonra isə məscidə od vurulub bütün adamlar yandırılıb. Qadınların döşünü kəsmib, xəstələri yataqda doğrayıblar.

**Hazırda Azərbaycan layihəsi olan "Böyük Qayıdış"la bu kəndin əvvəlki əhalisinin geri qaytarması məqsədi erməniləri çox narahat edir.**

**Əntiqə Rəşid**

# Nerkin Hand kəndinin məzarlığı Azərbaycan ərazisinə keçib?

**Hələ 3 ay əvvəl - iyun ayında Ermənistanın Baş naziri Nikol Paşinyan Sünikə (Zəngəzur) səfəri zamanı sərhədlərin delimitasiyası məsələsindən danışarkən demişdi ki, sərhəd delimitasiyası Zəngəzur bölgəsinin Qafan icmasının Nerkin Hand kəndində də aparılmalıdır.**

Hətta Paşinyan delimitasiyadan sonra Əskiparada quraşdırılan tikanlı məftilləri Nerkin Hand sakinlərinə misal çəkərək bildirdi ki, Əskiparada delimitasiyadan sonra indi vəziyyət belədir:

"Hasar çəkilib, təhlükəsizlik təmin olunub, oradan nə inək, nə də adam keçəcək, gecələr insanlar rahat yatır. Camaat burada da eyni şeyi etməliyik, çünki həll yolu budur".




Adalet.az xəbər verir ki, mədəniyyət eksperti Haykuhi Muradyan media resurslarına açıqlama verib. O xeyli çərənləyəndən sonra bildirib ki, Azərbaycan qəhrəmanlarımızın heykəllərini, soyqırımı qurbanlarının xatirə abidələrini, birinci azadlıq müharibəsində həlak olanların xatirə abidələrini və ermənilərin burada uzun müddət yaşamasına şahidlik edən erməni qəbiristanlıqlarını məhv etməyə çalışır. Yadınızdadırsa, düşmən(Azərbaycanlılar-red-ƏR) Zəngəzurdakı Nərkin Hand qəsəbəsinin qəbiristanlığını da zəbt etmişdi və insanlar nəinki ölülərinin məzarını ziyarət edə, heç meyitini dəfn edə bilmirlər.

Dünən öyrəndik ki, Nərkin Handda yeni qəbiristanlıq salınıb, orada artıq bir dəfn mərasimi keçirilib.

Mədəniyyət eksperi hələ də anlamır ki, 30 ildir işğal etdikləri Azərbaycan ərazilərində qeyri-qanuni tikdikləri heykəldə, abidə də, pantenonda sökülməyə məhkumdur.

**Qeyd edək ki, politoloq Benyamin Matevosyan hələ aylar əvvəl delimitasiya və demarkasiyanın davam etməsinin vacibliyini də vurğulayıb. Bildirmişdi ki, əgər digər ərazilərdə də 1976-cı il xəritəsi əsas götürülsə, bu, uğurlu olacaq, əks halda isə Ermənistan ciddi güzəştə məcbur olacaq.**

**Əntiqə Aslan**

# Erməni ordusunun ehtiyat hissəsi, "Yerkrapa" terrorçularının başçısı Zəngəzurda

**Bu ilin fevralında Ermənistanın Nerkin-Hand kəndi yaxınlığındakı mövqelərdən Zəngilan istiqamətində snayper atəşi açıldı və nəticədə əsgərimiz yaralandı. Təbii ki, Azərbaycan orduna qarşı terrorçu fəaliyyətinə görə 4 erməni quldurunun öldürülməsi Ermənistanda əsas gündəm mövzusudur.**

Sonra məlum oldu ki, öldürülən ermənilər Ermənistanın "Yerkrapa" Könüllülər Birliyini üzvü olub. "Yerkrapa" təşkilatı keçmiş müdafiə naziri Vazgen Sarkisyanın təşəbbüsü ilə 1993-cü ildə yaradılıb. İlk vaxtlarda 6 min erməni döyüşçüdən ibarət idi.

Sonradan Ermənistanda ciddi nüfuz qazanan "Yerkrapa"ya qoşulan könüllülərin sayı 30 minə çatmışdı.

Birinci Qarabağ müharibəsində iştirak etmiş könüllü erməni hərbçiləri birləşdirən terror qurumu olan "Yerkrapa" Ermənistanda qeyri-hökumət təşkilatı hesab olunur və dövlətdən qrant alır. Məsələn, bu ilin aprelində Ermənistan hökumətinin iclasında Müdafiə Nazirliyi "Yerkrapa" Könüllülər Birliyinə 234,6 milyon dramın ayrılması barədə qərar qəbul etdi.

Qərar qəbul edilməsinin səbəbi isə 2020-ci ildəki müharibədə çoxlu sayda üzvü (74 nəfər) ölən və yaralanan (114 nəfər) "Yerkrapa" Könüllülər Birliyi mühüm iştirakçı olub. Müharibədən sonrakı dövrdə təşkilatın 4000-dən çox könüllüsü Ermənistan Müdafiə Nazirliyinin tərkibində müxtəlif döyüş mövqelərində döyüş vəzifəsini yerinə yetirib.



Hazırda 10 min nəfər üzvü olan terror təşkilatına Ermənistan parlamentinin deputatı Sasun Mikayelyan rəhbərlik edir.

Adalet.az xəbər verir ki, Ermənistanda fəaliyyət göstərən "Yer Mühafizəsi Könüllüləri İttifaqı" (Yerkrapa) terror təşkilatının rəhbəri Sasun Melkonyan, Azərbaycanın Laçın rayonu ilə həmsərhəd olan Zəngəzur bölgəsinə gəlib.

Sosial şəbəkələrin erməni seqmentində yayılan məlumatda deyilir ki,Melkonyan erməni mövqelərini yoxlayıb.

**Qeyd edək ki, Ermənistan ordusunun ehtiyat hissəsi rolunu daşıyan Yerkrapa Azərbaycan da "terror təşkilatı" kimi də qiymətləndirilir.**

**Əntiqə Rəşid**

*Rüstəm Hacıyev*

# "Ukrayna çətin durumdadır"

## ABŞ Ukrayna müharibəsin bitəcəyi müddəti açıqladı

**Rusiya- Ukrayna münaqişəsi başlayan gündən bəri Qərb və Rusiyanın siyasi xadimləri, analitikləri, polotoloqları, hərbi ekspertləri və nəhayət kütləvi informasiya vasitələri bu müharibənin nə zaman bitəcəyi barədə müxtəlif proqnozlar verirlər. Kimlərsə Ukraynanın, kimlərsə Rusiyanın məğlub duruma düşəcəyini bəyan edir. Söylənilən proqnozlar hələki özünü doğrultmur, iki qardaş xalq arasında qanlı müharibə isə davam edir.**

**YouTube-nin Judging Freedom kanalına müsahibə verən ABŞ-ın mərkəzi kəşfiyyat idarəsinin keçmiş analitiki Larri Conson bəyan edib ki, Ukraynanın hərbi silshlı qüvvələri çox çətin durumdadır bə çətin ki, 2024-cü ilin sonunadək davam gətirə biləcək.**

**Consonun sözlərinə görə, Ukrayna hərbi qüvvələri cəbhəfə bəziyyəti öz xeyirlərinə dəyişmək iqtidarında deyil. O, ukrayna ordusunun itkilərini fəlakət kimi qüymətləndirərək, əlavə edib ki, USQ-i bütün idtiqamətlərdə Rusiya orduduna uduzur.**

**ABŞ və NATO isə, hələ də inanır ki, Ukrayna Rusiya ərazilərinə hücumlar təşkil etməklə Rusiyanı danışıqlara məcbur edə biləcəkdir.**

**Rusiya tətəfi isə, bunun tam əksini düşünür və Ukrayna silahlı qüvvələrinin Rusiyanın Kursk vilayətinə hücumlarından sonra, sülh danışıqları mövzusunun qapandığını, ən azından danışıqlara başlamaq vaxtı olmadığını bəyan edir.**

**Avropa İttifaqının Ukraynaya hərbi , maliyyə yardımlarının artırılması və yeni antirusiya sanksiyaları hazırlanması ilə bağlı qərarlar verməsi fonunda müharibənin 2024-cü ilin sonunadək bitəcəyi inandırlcı görünmür. Eyni zamanda müharibənin dayandırılması, üzdə sülh danışılarından dəm vuran, əslində isə, bu müharibənin Rusiyanı çokdürəcəyinə inamını itirməyən ABŞ-ın da planlarına daxil deyil.**

## *Qarabağ Universitetinin tələbələrinin Xankəndinəköçürülməsi ilə bağlı işçi qrup yaradılıb*




**Qarabağ Universitetində təhsil alacaq tələbələrin Xankəndi şəhərinə köçürülməsi ilə bağlı müvafiq İşçi Qrup yaradılıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Report"un sorğusuna cavab olaraq universitetin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Aytən Quliyeva məlumat verib. Onun sözlərinə görə, hazırda tələbəlin məlumatlandırılması həyata keçirilir: "Tələbələrin Xankəndi şəhərinə giriş icazəsi ilə bağlı universitet tərəfindən dəstək göstəriləcək. Həmçinin universitetə yerləşmə ilə bağlı İşçi Qrupun yaratdığı votsap sosial şəbəkə platforması vasitəsilə tələbələrə, eləcə də ictimaiyyətə geniş məlumat veriləcək".

A.Quliyeva vurğulayıb ki, tədris öncəsi tələbələrin yerləşdirilməsi zamanı tələbə ilə birlikdə iki nəfər ailə üzvü iştirak edə bilər: "Tələbələrin Xankəndi şəhərinə gəlişi fərdi qaydada həyata keçirilir, lakin yataqxanalara yerləşdirilməsi və şəhər ilə tanışlığı prosesini İşçi Qrupu gerçəkləşdirəcək".

Qeyd edək ki, yeni tədris ilində Qarabağ Universitetində 1 104 tələbə təhsil alacaq.

## *Misir prezidenti 12 il sonra Türkiyədə*

**Misir prezidenti Əbdülfəttah əs-Sisi prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə rəsmi səfər çərçivəsində Ankaraya gəlib.**

Adalet.az xəbər verir ki, prezident Rəcəb Tayyib Ərdoğan Misir prezidentini Esenboğa hava limanında qarşılayıb.

Daha sonra Ərdoğan və Misir prezidenti Sisi Prezident Külliyesinə yola düşüblər.

Sisi açıqlamasında səfərinin iki ölkə arasında əməkdaşlığa başlamaq iradəsini əks etdirdiyini ifadə edib.

Tərəflərin, həmçinin, enerji, səhiyyə, turizm, müdafiə sahələrində uzunmüddətli əməkdaşlıq məsələlərini və Qəzzadakı son vəziyyəti müzakirə edəcəkləri bildirilib.

# Qurban Səidi qəmləndirən, erməniləri sevindirən Şəmkir döyüşü və Mədətov

**Hazırda sosial şəbəkələrin erməni seqmentində hay qonşularımız babalarının igidliklərini vəsf edir, qəhrəman olduqlarını sübut etməyə çalışırlar. Xüsusən bu günkü paylaşımlarında 1826-cı ildə ermənisilli rus generalı Valerian Mədətovun komandanlığı altında rus ordusunun Şamxor döyüşündə qalib gəldiyini yazıb "qürur" hissi keçirdiklərini qeyd edirlər.**

Yəqin ki, oxucularımıza da maraqlı olub: Şamxorda (Yelizavetpol qəzası, indiki adı Şəmkir) erməni general nə gəzirmiş və kimə qalib gəlib.

### *Əvvəlcə erməni general haqqında*

Ötən ilin erməni Valerian Mədətov haqqında yazdığım araşdırma məqaləni axtarıb tapdım.Odur ki, ilk öncə bu əbləh erməninin kimliyi ilə bağlı oxucularımıza məlumat verim:

"Fəlsəfə elmləri doktoru, professor Vəli Həbiboğlu 1992-ci ildə işıq üzü görən "Abbasqulu ağa Bakıxanov" kitabında yazırdı: "Genaral Valerian Mədətov milliyyətcə erməni olsa da, onun danışığına, davranışına kənardan baxan olsaydı, heç erməniyə oxşatmazdı. O türkcə çox gözəl danışır, müsəlmanların adət-ənənələrini gözəl bilirdi. Əvvəllər Abbasqulu ağa hətta onun azərbaycanlı olduğunu güman etmişdi. Lakin Dağıstana Qazıqumuxlu Surxay xanın üstünə gedərkən ona tərcüməçilik etdiyi vaxt V.Mədətovun erməni olduğunu anladı. İstər- istəməz Abbasqulu ağanı belə bir fikir düşündürürdü.

Müsəlman polkuna nə üçün başqa dinə biət edən şəxs başçılıq edir. O, bu haqda çox fikirləşdi. Amma cavab tapa bilmədi. Bir dəfə dostu, həmyerlisi Ağa bəyə də bu sualla müraciət etdi. Ağa bəy onun bu sualını əvvəlcə çox soyuq qarşıladı, sonra isə böyük təhlükə gözləyirmiş kimi belə suallar verməyi qadağan elədi. Ehtiyatla ona bildirdi ki, rus ordusunda rəhbər işləri müsəlmanlara tapşırmağı rəva bilmirlər, buna görə də dinləri bir olan erməni zabitlərinə etibar edirlər".

Yəqin oxucularımıza da aydın oldu ki, Mədətov Rusiya ordusunda müsəlman polkunun komandiri idi.

Araşdırmamda daha sonra qeyd edilib:" Hətta Mədətovun adı Qurban Səidin dünyaca məşhur "Əli və Nino" romanında da qeyd edilib: "Tarix müəllimimiz isə son dərəcə dar düşüncəli bir adam idi. Mən imtahan biletini götürdüm. Biletdəki, sualı oxudum, kefim pozuldu. Sual isə belə idi: "Mədətovun Gəncədə qələbəsi"". Bu hiyləgər və türk düşməni olan erməni Mədətov 1782 - ci ildə Qarabağın ən böyük kəndlərindən biri - Xocalı ərazisində yerləşən Çanaqçı kəndində anadan olub.

İlk təhsilini də Şuşada alıb. Bütün Qarabağlılar kimi, o da Azərbaycan dilini bilib ancaq azərbaycanlılara nifrət ruhunda böyüyüb. Uşaq yaşlarından yetim qalan Mədətovun həyatı Peterburqda dəyişib. Xristian məzhəbinə mənsubluğu isə bir sıra qapıların onun üzünə açılmasını kömək edib. Mədətov özünün məlik ailəsindən olmasını bildirib və Rusiya saray dəftərxanasında da özünün Qarabağ məliklərinə mənsubluğunu qeyd etdirə bilib".








### *Yalançı zadəganın zadəganlıq iddiası*

Mədətov adi bir ailədə doğulmuşdu ancaq arzusuna çatmaq üçün belə yalanlara əl atmaq onun üçün elə də əhəmiyyət kəsb etmirdi. Beləki, erməni mənbələri yazır ki, 1799-cu ildə Sankt-Peterburqda Preobrajenski alayına gizir kimi daxil oldu, sonra Menqrel piyada alaylarına keçdi.

1806-1812-ci illər Rusiya-Türkiyə müharibəsində iştirak edib.Döyüşlərdə (1810) fərqlənib. 1812-ci il Rusiya- Fransa müharibəsi zamanı süvari dəstələrinin komandiri olub.

2-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilib və polkovnik rütbəsinə yüksəlib. Leypsiq döyüşündə (1813, 16-19 oktyabr) ağır yaralanır. O, şəxsi şücaətinə görə general rütbəsinə layiq görülüb.

1816-cı ildə Mədətov Qarabağda yerləşən rus qoşunlarının komandanı, 1817-ci ildən isə Qarabağ, Şirvan və Şəki xanlıqlarının qəza rəisi təyin edilib. Yeri gəlmişkən 1816-cı ildə knyaz əslən Qarabağlı olan və Azərbaycan dilini mükəmməl bilən Mədətovu Qarabağ xanlığı ərazisində yerləşdirilmiş rus qoşunlarının komandanı təyin edib.

General Yermolovun əlaltısı olan Mədətov məlik yalanı ilə xeyli torpaq ələ keçirib. Sonralar Rusiya tərəfi Mehdiqulu xanı və Yermolovu da yalanlarına alət edən Mədətovu fırıldaqçılıqda ittiham edərək məhkəməyə verib.

### *Erməni general edən 3 sentyabr döyüşü*

Rusiya-İran müharibəsi dövründə, yəni, 1826-cı ilin 3 sentyabrında Şəmkir altında qanlı döyüş baş verdi. Daha dəqiq, Şəmkir şəhərinin yaxınlığında, Şəmkir çayının sahilində tərəflər qarşı-qarşıya gəldilər. Rus ordusunun 4300 nəfərlik əlahiddə dəstəsi 12 topla və 2 min kazak süvarisi ilə Madatovun komandanlığı altında, Tiflisdən hərəkət edərək, döyüşə başladı.

Döyüşdə Abbas Mirzə 2 minə yaxın, ruslar isə 27 əsgər itirdilər.

Döyüşün taleyini piyadaların, süvarilərin və topların hərəkətlərinin uzlaşması həll etdi.

Bu uğurdan sonra rus qoşunları sentyabrın 4-də Gəncəni tutdular. Sentyabrın 9-da Qafqaz korpusunun başlıca qüvvələri onlarla birləşdi.

Şuşanın mühasirəsini buraxıb, buraya gələn Abbas Mirzə yeni döyüşün qaçılmaz olduğunu bilirdi. Sentyabrın 10-da Paskeviç də qoşunla Gəncəyə gəldi.

Dağıstan alpinistlərinə qarşı döyüşlərdə və 1826-1828-ci illər Rus-Fars müharibəsində iştirak edən Mədətovun komandanlığı ilə kiçik bir dəstə (2000 əsgər) 1826-cı il sentyabrın 13-də Nizami Gəncəvi məqbərəsinin yaxınlığındakı çöldə 10 minlik fars ordusu üzərində parlaq qələbə qazandı və sentyabrın 13-də Yelizavetpol (indiki Gəncə) döyüşündə iştirak etdi.Yeri gəlmişkən, Gəncə döyüşü 1826-1828-ci illər Rusiya-İran müharibəsinin ən böyük döyüşü oldu. Qafqazın da, bütün savaşın da taleyi burada həll olundu. Bu döyüşdən sonra İran ordusu bir daha özünə gələ bilmədi.

Döyüşdən sonra rus komandanlığı üçün 1826-cı il üsyanlarını yatırmaqdan ötəri əlverişli imkan yarandı. Bu, Yermolovun baş komandan vəzifəsində son fəal döyüşləri oldu.

Rus komandanlığı savaşın gedişində ara-sıra yerli qüvvələrdən də istifadə etməyə çalışırdı. Hamımızın azərbaycanlı kimi tanıdığı salnaməçi-tarixçi Mirzə Yusif Qarabaği, əslində isə əsl adı Ovsep Nersesyants Nerses oğlu oğlu Rusiyaya ilk dəstək verənlərdən olur..

1826-cı ilin noyabrında Araz boyu sərhədi qorumaq üçün "Qarabağ türklərindən" Mirzə Yusif Nersesovun təşkilatçılığı ilə qeyri-nizami atlı dəstə yaradıldı. 1827-ci il döyüşlərində Borçalı türklərinin könüllü atlı dəstələri də iştirak edirdi.

İran qoşunları, Talış xanlığı sayılmazsa, artıq bütün Şimali Azərbaycan torpaqlarını tərk etmişdilər.

1828-29-cu illər Rusiya-Türkiyə müharibəsi Mədətov Dunay ordusunda döyüşüb. Onun süvari diviziyası Bolqarıstanın Şumla qalası yaxınlığında parlaq qələbə qazandı, İsakçei və Qirsov qalalarını ələ keçirdi. Mədətov 4 sentyabrda burada xəstələnərək öldü. Çox sonralar onun qalıqları Peterburqa köçürüldü və Aleksandr Nevski monastırında basdırıldı.

İbrahimxəlil xanın nəvəsi Mehdiqulu xan öz şeirlərində babasının cah-cəlalının dağılmasını, rus hakimiyyətinə arxalanıb Qarabağı viran qoyan erməni generalı Mədətovun, Lazerevin və Karqanovun müsəlmən qəbirstanlıqlarını kotanın ağzına verib əkdirmələrini və xalqa olmazın zülmlərini yad edir.

Yuxarıda qeyd etdiyim kimi, hazırda ermənilər Valerian Mədətov kimi bir xaini, hiyləgər işğalçını, şərəfsiz zabiti dünyanın ən fəxrli adları ilə yad edir, ona "qəhrəmanım"deməkdən çəkinmirlər.

**Bəlkə də erməni kimi bir toplumun Mədətov kimi bir çaqqalı öymək haqqı var. Amma bizim isə erməniyə inanmaq, onu özümüzə əziz bilmək kimi bir yanaşmamıza təəssüflənməkdən başqa əlacımız yoxdu! Düşməni tanımaq hər birimizin borcudur!**

**Əntiqə Rəşid**

# 186 şagirdin, ümumilikdə 334 nəfərin sirli qətliamı: Beslan faciəsi 20 il əvvəl

**1 sentyabr Müxtəlif yaşlı şagirdlər sevinə-sevinə məktəbin yolunu tutmuşdu. Çantasını çəkib apara bilməyən balacaların gülüşü-sevinci bir ayrı mənzərə idi. İkibir, üçbir məktəbə tərəf gedən uşaqların içində ayağını yerə dirəyib, getmək istəməyən 1-ci sinif şagirdlərinin gülüş doğun halları həm məktəbə gələn valideynlərin, həm müəllimlərin marağına , gülüşünə səbəb olurdu.**

Bu görüntü 2004-cü ilin 1 sentyabrda Rusiya Federasiyasının Şimali Osetiya Respublikasında yerləşən Beslan şəhərindəki 1 nömrəli məktəbdə ilk dərs günü yaddaşlara yazıldı. Həmin vaxt heç kəs bilmirdi ki, bir neçə dəqiqədən sonra məktəbin həyəti, binası, həndəvəri qan gölünə dönəcək.



Adalet.az xəbər verir ki, bu gün bütün dünyada şok effekti yaradan Beslan qətliamının 20-ci ildönümüdür.

Terrorçular məktəbə ilk dərs günü hücum edir və nəticədə 1.100 nəfəri əsir alınır. Əsirlərin 777 nəfəri dünyanın yaxşılığından- pisliyindən xəbəri olmayan şagirdlər, qalanı isə onların valideynləri və müəllimləri idi.

Əsirlərin xilas edilməsi əməliyyatına Rusiya ordusunun xüsusi təyinatlıları cəlb edilir və əməliyyat zamanı həmçinin bundan az əvvəl yaşanan hadisələrdə 300 nəfərdən çox şəxs həlak olur.

Həlak olanların 186 nəfəri uşaqlar idi. Öldürülən şəxslərin əksəriyyəti etnik baxımdan çeçen və inquşlardan ibarət idi.

Maraqlı burasındadır ki, terrorçular da miliyyətcə çeçenlər idi. (Bir xalqın başbilənləri, öz xalqının gələcəyinə niyə güllə sıxsın ki? Dünyanı ən çox bu nüans maraqlandırır.

O zaman belə aydın olur ki, Bu olay yüksək səviyyədə təşkil olunmuş planlı bir qətliamdır, həmçinin sifarişçi hegemondur.)

Guya bu qətliamın səbəbi Çeçenistan müharibəsi zamanı səslərini bütün dünyaya çatdırmaq istəyənbir qrupa aid edilirdi, Qətliama isə Ruslan Xucabarov ("Polkovnik" ləqəbli inquş yaraqlısı) rəhbərlik edirdi.

Daha maraqlı bir nüans da dünya ictimaiyyətininin diqqətindən qaçmadı. Krizin üçüncü günündə -3 sentyabrda Rusiya ordusunun xüsusi təyinatlılarından ibarət qrup binaya hücum təşkil edir. (Hadisənin 3-cü günü! Niyə 3 gün gözlədikləri də məlum deyil) Hücum nəticəsində qarşılıqlı atışma meydana gəlir və ağır silahlardan istifadə edilir. Bir neçə saat davam edən atışmadan sonra yüzlərlə insanın həlak olduğu məlum olur.

Belə ki, xüsusi təyinatlıların məktəbə girməsindən xəbər tutan terrorçular idman zalına topladıqları insanlara kütləvi atəş açmağa başlayırlar.

Beslan şəhəri 1 nömrəli məktəbə təşkil edilən hücum nəticəsində 186 nəfəri şagird olmaqla, ən azı 334 nəfər əsir öldürüldü. Hadisədə yüzlərlə insan müxtəlif dərəcəli bədən xəsarətləri aldı və bir neçə nəfər itkin düşdü.

60 müəllimin işlədiyi və 800 nəfərə yaxın şagirdin təhsili aldığı Beslan şəhəri 1 nömrəli orta məktəb şəhərin ən böyük məktəblərindən biri hesab olunurdu.

Onu da qeyd edək ki, sağ qalanlar və hadisə qurbanlarının yaxınları baş vermiş basqının və xilasetmə əməliyyatında bu qədər insanın ölümünün qarşısının alınması barədə suallar edirlər.

Onların fikrincə prezident Vladimir Putin də daxil olmaqla, rəsmilər basqın zamanı kobud davranıblar və ümumiyyətlə planlaşdırılmış hücumun qarşısının alınması üçün heç nə etməyiblər.

**Avropa İnsan Haqları Məhkəməsinin də qərarına görə Rusiya, 2004-cü ildə Beslanda məktəbin ələ keçirilməsinin qarşısını ala bilməyib.**

**Əntiqə Aslan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Çətin günün adamı...

... İnsanın yaxşı, imkanlı və vəzifəli günlərində hamı onun yanında olur. Yanında olur ki, o adamdan istifadə eləsin, el dilində demiş olsaq, ondan bir şey qoparsın və özünə bir gün ağlasın...

Bunu etməyə nə var ki?! Oğul odur ki, adamların çətin günündə onlara arxa dursun, yıxılanı qaldırsın, ağlayan gözün yaşını silsin!.. Daha doğrusu, bir tikə çörəyini iki yerə bölsün...

Bax, belə oğullar da var! Bir az səbrli olun deyəcəm, o adam kimdir. Və nə yaxşı ki, böyük Məmməd Arazın dili ilə demiş olsaq "iti bazarında atından baha olan..." dünyamızda belə adamlar var! Allaha and olsun ki, əgər belə insanlar olmasaydı, dünyamız çoxdan dağılmışdı... Heç biz insanların izi-tozu da qalmamışdı...



Yıxılana arxa duran, kimsəsizlərə kömək edən, ağlayan gözlərin yaşını silən, çətin gündə insanlara "qorxma" - deyən, çətin günün adamı, Bakı Dövlət Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi Faiq Mirzəli oğlu Namazovdur. Mən Faiq müəllimi son bir-iki ayda tanımışam. Daha doğrusu, 31 saylı Suraxanı ikinci Seçki Dairəsindən deputatlığa namizəd verildiyinə görə. Yaxın dostum, yazıçı- publisist, Prezident mükafatçısı Səməndər Məmmədov və Fərman Kazımov dedi ki, bizim bir eloğlu var, deputatlığa namizəddir, bu gün onunla görüşəcəyik, gəl, sən də bizimlə gedək. Görəcəksən ki, necə səmimi, sadə və mehriban insandır. Bir yerdə Faiq müəllimin yaxınları ilə oturub çay içdik və gördüm ki, deyilən kimi var, hələ bir az da deyildiyindən yaxşıdı. Elə ilk görüşdən və söhbətdən o, mənim ürəyimdə və yaddaşımda əbədi iz qoydu. Müdrik baxışları, ağayanə münasibəti, yüksək dinləmək mədəniyyəti və ən nəhayət böyük insanlıq dəyərləri ilə məni təəccübləndirdi...

Faiq müəllim bir neçə saatın içində mənim üçün çox doğmalaşdı. Və elə bildim ki, ən yaxın qohumum imiş... Bir də zarafatla dedim ki, borçalılar Qarabağdan o elə gedib və bəlkə buna görə mənə doğma gəlirsiniz. Faiq müəllim də özünəməxsus bir səmimiyyətlə dilləndi ki, bütün Azərbaycan xalqı bir-birilə qohumdur. O, bu sözləri deyəndə çöhrəsində bir təbəssüm yarandı və bir daha onun nə qədər səmimi və sadə insan olduğunu yəqin etdim! Bax beləcə çay süfrəsi arxasındakı görüşümüz mənim yaddaşımda silinməz iz qoydu...

Faiq Namazov 1972-ci ildə Borçalı mahalının, İndiki Gürcüstan Respublikasının Bolnisi rayonunun Darvaz kəndində anadan olub. BDU-nun mexanika-riyaziyyat fakültəsinin əyani şöbəsini fərqlənmə diplomu ilə bitirib. 1995-ci ildən BDU-da işləyir. Fizika-riyaziyyat elmləri namizədi, dosentdir. Çoxlu sayda elmi məqalələrin və dərs vəsaitlərinin müəllifidir. Ailəlidir, beş övladı var. Allah saxlasın! Amma mən onun alimlik və elmi fəaliyyətindən deyil, insanlığından, sadəliyindən və böyük ürək sahibi olmağından söhbət açıram. Çünki belə böyük ziyalılar heç vaxt elədikləri yaxşılıqları dilə gətirmirlər və deyirlər ki, Allah hər şeyi bilir, amma Allah hər şeyi bilməklə yanaşı, insanlar da bilsə, daha gözəl olar! Deputatlığa namizədlik dövründə Yeni Günəşlidə bir şəhid ailəsini ziyarət etdik. Sonra da şəhidin abidə kompleksini atası ilə ziyarət elədik. Şəhid atasına dedim ki, bu kompleksi Faiq Namazov tikdirib. Kişi təəccüblndi və "bilmirdim", - dedi. Şəhid atası mənim sözlərimdən sonra Faiq müəllimlə bir qədər də isinişdi. Və gördüm ki, gözləri doldu.

Elə bizim hamımızın gözləri doldu... Faiq Namazov İkinci Qarabağ Savaşında Müdafiə Fonduna 50 min manat vəsait köçürüb. Eyni zamanda pandemiya dövründə çətin vəziyyətə olan, işləməyən yüzlərə insana ərzaq yardımı edib. Bunu metronun "Xalqlar dostluğu" stansiyasının yanındakı körpünün altında iş axtaran fəhlələr yaxşı bilirlər...

Bu gün dünyada hər şey çox çətinləşib. Yəni insanlar evlərinə bir tikə çörək aparmaq üçün hər çətinliklə üzləşirlər. Və yaxşı, mərhəmətli adamlar olanda bu çətinliklər arxada qalır. Və düşünürəm ki, dünyamızda Faiq Namazov kimi ziyalı, mərhəmətli, işıqlı insanlar nə qədər çox olsa, qaranlıqlara bir o qədər də çox işıq düşər...

Və bir də gərək insanlar da yaxşılığı unutmasın. Çünki adamlara sağlığında qiymət vermək lazımdır ki, sonra pesmançılıq çəkməyək!.. Çətin günün adamı Faiq Namazov, Allah səni qorusun!

## Avtomobillərin texniki nasazlığı



**Hər bir nəqliyyat vasitəsi texniki cəhətdən saz vəziyyətdə olmalıdır.**

Amma gəlin görək bizdə avtomobillərin hamısı saz haldadırmı? Təbii ki, bu suala birmənalı cavab vermək olmur. Ən azından ona görə ki, gündə nə qədər avtomobil xarab olub, yarıyoda qalır. Nasaz avtomobillər qəza şəraiti yaratmaqla yanaşı, həm də atmosferə normadan artıq zərərli qazlar atır.

Eyni zamanda hər hansı maşın texniki nasazlıqlar üzündən yolda qalırsa, tıxaclar yaranır, ta o vaxta qədər ki, həmin avtomobil yoldan götürülür. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis kapitanı Toğrul Nəsirli deyir ki, hər bir nəqliyyat vasitəsi texniki cəhətdən saz vəziyyətdə olmalıdır. Bu həm mövcud təhlükəni aradan qaldırır, həm də atmosferə normadan artıq zərərli qazlar atilmır. Bakıda avtomobil yollarında da belə hadisələr baş verir. Bax bu zaman tıxac yaranır. Ona görə də , hər bir sürücü nəqliyyat vasitəsini saz saxlamalıdır ki, dediyimiz problemlər yaranmasın.Bir sözlə, saz avtomobillə hər hansı mənzil başına daha rahat və təhlükəsiz çatmaq olur!

## Lift pulun niyə vermirlər!



**Çox qəribədir ki, bəzilərimiz kommunal borclarımızı ödəmək istəmirik.**

Belə də olanda əlaqədar qurumlar, ya işığımızı, ya suyumuz, ya da qazımızı kəsirlər. Adam var ki, həmin qurumlara 500-600 manat borcu var. Bizim yeni Günəşlidə yaşadığımız 13 nömrəli binada da belə məsuliyyətsiz sakinlər var. Məsələn, lift pulun vaxtında ödəmədiyinə görə, bu günlər bir neçə blokun lifti dayandırılıb.

Binanın sədri Fərman Kazımov sakinlərə nə qədər xəbərdarlıq etsə də , yenə bir çoxu buna məhəl qoymayıb.Axırda yenə problemi Fərman müəllim həll edib. Və sakinləri bir daha maarifləndirib ki, kommunal xərcləri, o cümlədən lift pulunu vaxtında ödəsinlər!

## Səkisiz küçə



**Düz otuz dörd ildən çoxdur ki, Yeni Günəşlidə yaşayırıq.Burada əsas küçələrdən biri sayılan, " Ballı market" in yanından uzanıb gedən Abbas Fətullayev küçəsində nə sol, nə də sağ hissədə səki salınmayıb.**

Əgər düşünsək ki, bu yol Suraxanı Tibb Mərkəzinə gedib çıxır, onda piyadaların hansı təhlükə yaşadığını aydın dərk edərik.Səki olmadığına görə piyadalar yolun hərəkət hissəsinə çıxır və ora ilə yeriyirlər. Bu isə həm an avtomobilin piyadanı vurması ilə nəticələnə bilər.Həminyolda su xəttinin çəkilişilə əlaqədar olaraq yol bərbad günə düşüb, yeni bir problem yaranıb. Əlaqədar qurumlar bildirir ki, su xəttinin çəkilməsindən sonra bu küçədə səki də salınacaq.

Bu sözü əlaqədar qurumlar dəfələrlə səsləndirib, təəssüf ki, vədlərini yerinə yetirməyib. Çox istərdik ki, bu dəfə aidiyyatı qurum yalan danışmaya və verdiyi sözü yerinə yetirə!

## Bakıda tozlu hava...

**Sentyabrın 2-də və 3-də Bakıda tozlu hava hökm sürür.**

Təbii ki, bu cür hava şəraiti insanların səhhətinə pis təsir göstərir. Mütəxəssislər isə deyilər ki, ölkəmizə belə toz kütləsi şərq ölkələrində baş vermiş təbiət hadisəsi nəticəsində gəlib çıxır.Küəkli hava bu tozu daha tez yayır.Heç şübhəsiz ki, belə hava şəraiti bir neçə gün çəkir və insan səhhəti ü?ün əlverişsizdir. Həkimlər məsləhət görürlər ki, tozlu havada maskadan istifadə etmək, imkan varsa, küçədə, çöldə az olmaq lazımdır. Bununla yanaşı, ürək, ağçiyər və astma xəstəlikləri olan adamlar tozlu, havada özlərini qorumalı, həkimlərin məsləhətinə uyğun hərəkət etməlidirlər. Ən başlıcası isə hər bir insan belə mürəkkəb havada özünü qorumalıdır!



## Bu ağac aşacaq



**Milli Elmlər Akademiyasının həyətində, daha dəqiq desək, Məmməd Rahim küçəsində, dəmir məhəccərin yanında hündür bir ağac var.**

Və ağac artıq çoxdan quruyub və küləkli havada hər an qırılıb aşmaq təhlükəsi var! Hər gündə onun yanından nə qədər insan və maşınlar keçir. Hələ nə yaxşı ki, indiyə kimi qırılıb nəyinsə, üstünə düşməyib. Bakıda isə tez-tez güclü küləklər əsir. Nə vaxta qədər ki, bu ağac qırılıb, bir bədbəxt hadisə baş verməyib, ona görə də tezliklə mövcud təhlükə aradan qaldırılmalıdır. Bu işi isə Bakı Şəhər Yaşıllaşdırma İdarəsi görməlidir.

Biz ünvanı göstərib öz borcumuzdan çıxdıq. İndi qalır adını çəkdiyimiz qurumun mövcud nöqsanı aradan qaldırmağına.Əgər həmin təhlükə tezliklə aradan qaldırılmasa, ordan keçən insanları bədbəxt hadisə gözləyir!

## 39 nömrəli marşrutda işləyən avtobus...



**Bizdə avtobusların tez-tez xarab olub, yarıyolda qalması adi hal alıb. Və ən çox da köhnə avtobuslarda bu texniki nasazlıqlar yaranır.**

Məsələn Yeni Günəşlidə sərnişin daşıyan 50, 104 nömrəli marşrutlarda artıq belə anlar adiləşib. Amma sən demə, təzə avtobuslarlar da yarıyolda qalarmış.

Səhər saatlarında Metronun " Elmlər akademiyası" stansiyasının yaxınlığında 39 nömrəli marşrutda işləyən yeni avtobus xarab olub, yarıyolda qalmışdı.

**Növbəti avtobus isə dayanacağa çox gec gəldi. Təbii ki, səhər - səhər işə gedən insanlar bu gecikmədən narahat olur və əsəbləşir. Bir sözlə, avtobuslar vaxtında dayanacağa çatanda sərnişinlər vaxt itirmir və mənzil başına rahat çatırlar!**

**EMİL FAİQOĞLU**



# Keşiş Baqrat sərsəmlədi: "Qarabağı müvəqqəti itirmişik..."



**"Vətən üçün Tavuş hərəkatı"nın başçısı Baqrat Qalstyan bu gün, 2 sentyabr, qondarma "artsaxın müstəqillik günü"ndə Yerablurda müharibədə erməni qırılmaşlarını ziyarət edib.**

O, jurnalistlərlə söhbətində deyib ki, Qarabağı müvəqqəti itirmişik: "Bizim üçün bu, yalnız xatırlamaq üçün deyil, 2 sentyabr özümüzə xatırlatmaq üçün əhd günüdür. Bu gün "artsax"ın itirilməsi, məncə, bizim üçün müvəqqəti olsa da , birbaşa şərəfsizlikdir, eyni zamanda oğurlanmış sevincin reallığı bizi dünyanın deyəcəklərinə və ya bu daxili düşmənə, hazırkı hökumət qarşı mübarizəyə sövq etməlidir.

Qeyd edək ki, keşiş Baqrat Qalstanyan və arxasında duran qüvvələr Qarabağ ermənilərinin liderlərini (separatçılar) hərəkat ətrafında səfərbər etmək niyyətindədir. Revanşistlərin lideri Baqrat Qalstanyan Ermənistanda sentyabrın 4-də böyük mitinq olacağını da elan edib.

**Əntiqə Rəşid**

# DYP maşından kənara zibil atanlara xəbərdarlıq etdi



**Bakı Şəhər DYP İdarəsi sürücü və sərnişinlərə müraciət edib.**

Adalet.az həmin müraciəti təqdim edir:

”Paytaxtda yolların, küçələrin nəqliyyat vasitələrindən atılan məişət tullantıları ilə zibillənməsi təbii ki, təəssüf doğurur. Son zamanlar nəqliyyat vasitələrindən bayıra hansısa əşyalar atılmasına tez-tez rast gəlinir, elə cari ilin 8 ayı ərzində paytaxt ərazisində belə inzibati xətaya yol verdiklərinə görə 109 şəxs inzibati məsuliyyətə cəlb olunub.

Hər bir vətəndaş ətraf mühitin qorunmasında öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, təmizliyə riayət edilməsində məsuliyyətli olmalıdır. Bəzən sükan arxasında olan sürücülər çəkdikləri siqaret kötüyünü və ya qutusunu, eləcə də avtomobilin içərisində yedikləri müxtəlif növ qidaların qalıqlarını, plastik su qablarını və s. digər bu növ məişət tullantılarını nəqliyyat vasitəsindən çölə atırlar. Bu hallara yalnız sürücülər deyil, həm də avtomobilin içərisində olan sərnişinlər yol verirlər.

”Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tələbinə əsasən nəqliyyat vasitəsindən bayıra hər hansı əşya atmaq qadağandır və buna görə də İnzibati Xətalar Məcəlləsində cərimə nəzərdə tutulub.

Lakin, biz insanları sırf cərimədən qorunmaq üçün deyil, belə əməllərin ətraf-mühitə ziyan vurduğunu nəzərə alaraq, bu kimi hallara yol verməməyə çağırırıq”.

# Azərbaycanda "yaşıl subsidiya"lar tətbiq olunacaq

**Aqrar Subsidiya Şurasının qərarına əsasən, gələn ildən müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrinə görə 60 manat məbləğində əlavə əkin subsidiyası veriləcək.**

Adalet.az bu barədə Kənd Təsərrüfatı Nazirliyinə istinadən xəbər verir.

Bildirilir ki, təkrar əkinlərə görə əkin subsidiyası 2025-ci ildən etibarən yalnız suvarılan ərazilərdə aparılan əkinlərə şamil olunacaq.

Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi və 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə 29-cu Tərəflər Konfransının (COP29) çağırışları nəzərə alınaraq, iqlim dəyişikliklərindən təsirlənən kənd təsərrüfatı sektorunda 2025-ci ildən etibarən sudan səmərəli istifadəni və ətraf mühitin qorunmasını dəstəkləmək məqsədilə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrinə əlavə əkin subsidiyası veriləcək”, - məlumatda deyilir.



Həmçinin, 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan, 1 hektara minimum 1 500tingin əkildiyi tarlaqoruyucu zolaq bitkilərinin hər hektarına görə 1000 manat məbləğində əkin subsidiyası təyin olunub.

Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrində becərilən dənli və dənli paxlalılara görə əkin subsidiyası 400 manat məbləğində müəyyən edilib.

# 18 əcnəbi Azərbaycanın dövlət sərhədini pozub



**Dövlət Sərhəd Xidməti tərəfindən 2024-cü ilin avqust ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində aşağıdakı nailiyyətlər əldə edilib.**

Bu barədə Adalet.az-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

Bildirilib ki, ötən ay ərzində dövlət sərhədini pozduqlarına görə 28 nəfər saxlanılıb, onların 10-u Azərbaycan, 9-u Əfqanıstan, 4-ü Pakistan, 2-si Türkiyə,1-i Rusiya, 1-i İraq və 1-i Gürcüstan vətəndaşı olub:

”Qanunsuz miqrasiya ilə mübarizə tədbirləri nəticəsində 7 nəfər saxtalaşdırılmış tarix möhürü və pasportla, özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıb.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 754 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb”.

Məlumatda qeyd edib ki, cinayətkarlığa qarşı mübarizə tədbirləri çərçivəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 311 nəfər saxlanılaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olunan 655 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olunan 13 nəfərin ölkəyə daxil olmasının qarşısı alınıb:

”Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 321 kiloqram 997 qram narkotik vasitə və narkotik tərkibli güclü təsiredici vasitə hesab edilən 8439 ədəd həb aşkarlanaraq dövriyyədən çıxarılıb;

qaçaqmalçılıq fəaliyyətinə qarşı həyata keçirilmiş mübarizə tədbirləri nəticəsində ümumi dəyəri 4 milyon 022 min 156 manat olan qaçaqmal, o cümlədən zinət əşyaları, dərman preparatları, spirtli içki və tütün məmulatları saxlanılıb.

Dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir”.

*Vüqar Abbasov*



# Bakı - keçmişlə bu günün vəhdəti

***Avropa Xəbər Agentliyində (European News Agency) Azərbaycanla, ölkəmizin turim imkanları ilə bağlı növbəti yazım yayımlanıb. Həmən yazını dilimizdə "Ədalət"in oxucuları ilə bölüşürəm.***

***Yazıta keçid:***

***https://www.european-news-agency.de/reise_tourismus/baku_the_unity_of_the_past_and_the_present-89738/***

## *Bakı - keçmişlə bu günün vəhdəti*

*Bu dəfə də, hər il olduğu kimi, yay tətilimi Azərbaycanda keçirtməyə qərar verdim; həm doğmalarımı, qohumlarımı, dostlarımı görmək, həm də Azərbaycanın gözəl təbiətini seyr etmək, dadlı mətbəxini dadmaq üçün. Əlbətdə ki, gözəl təbiət, dadlı mətbəx tək bu ölkəyə aid deyil. Dünyanın bir çox ölkələrində həm gözəl təbiət görmək, həm də dadlı yeməklər dadmaq olar. Məhz bu səbəbdəndir ki, qısa müddətli təitillərimi (1-2 və yaxud da5-6 günlük) digər ölkələrdə, məsələn, Türkiyədə, yaxud da yaşadığım ölkəyə qonşu olan ölkələrdə, Belçikada, Almaniyada, Fransada keçirtməyə çalışıram. Elə yaşadığım ölkədə, Niderlandda da gəzməli, görməli yerlər kifayət qədərdir və əlbətdə ki, oraları da gəzmək fürsətini əldən vermirəm. Səyahət etmək sevdiyim hobbilər sırasındadır, xüsusən tarixi yerləri görmək. Bu dəfə isə doğulduğum ölkədən, Azərbaycandan, bir qədər daha dəqiqləşdirsəm, Bakıdan, buranın turizm imkanlarından, yazacam.*

## *Qısa məlumat*

*Paytaxtı Bakı şəhəri olan bu ölkənin milli valyutası manatdır. Bir avro, bu günkü məzənnəyə uyğun, 1 manat 84 qəpikdir. İctimai nəqliyyat baha deyil, Avropalı turistlər üçün isə heç baha deyil.*

*Avtobus və metrodan istifadə etsəniz, 5 avroya az qala bütün şəhəri gəzə bilərsiniz. Taksi xidmətləri də, Avropa ilə müqayisədə, baha hesab edilə bilməz. Avropa ilə saat fərqi yay vaxtında 2 saat, qış vaxtında isə üç saatdır, saat hesabında Azərbaycan Avropadan qabaqdadır. Qısaca onu qeyd edim ki, bu ölkə turistlər üçün tamailə təhlükəsizdir. Alış-veriş edəndə sövdələşmə etməyinə dəyər, amma təbii ki, super marketlərdə deyil. İnsanları qonaqpərvər və kömək göstərməyi sevəndirlər. Lazım olduğu halda Türk, Rus, İngilis dillərində kömək istəyə bilərsiniz. Bəzən Alman və Fransız dilləri də köməyə çata bilər. Əgər sizin danışdığınız dili bilən biri qarşınıza çıxmasa, necə deyərlər, əllə - ayaqla olsa da sizə kömək etməyə çalışacaqlar. Otellərdə, restoranlarda olan qiymətlər Avropadan gedən turistlər üçün baha deyil. Yerli əhali üçün isə bunu iddia edə bilmərəm. İki nəfərin nahar etməsi təxminən 50-60 manat, avro ilə hardasa 25-30 avro tutur. Otellərin qiymətləri ilə isə internetdə tanış ola bilərsiniz. Azərbaycana vizanı elektron qaydada, bu saytdan*

*(https://www.evisa.gov.az/en/) almaq mümkündür.*

## *Qədim Bakı*

*Bakı, Azərbaycanın paytaxtı, Xəzər dənizin sahilində yerləşir. Azərbaycanda əhalinin ən sıx olduğu şəhəridir. Regionlarda iş tapa bilməyənlərin çoxusu bura cəmləşib. Üstəgəl vaxtilə Ermənistanın işğalında olan ərazilərin əhalsinin əksəriyyəti də bu şəhərdə yerləşdirilmişdi. Ərazilər işğaldan azad olunduğundan, dağıdılmış şəhərlər bərpa olunduqca əhali geri, öz ata-baba yurduna köçməyə, göndərilməyə başlanıb. Bakı iki hissədən ibarətdir; Köhnə Bakı və Yeni Bakı. Köhnə Bakı turistləri ən çox özünə çəkən yerdir. Şəhər yüksək qala divarları ilə əhatə olunub, divarlar 11- ci 12 - ci əsrlərə aiddir. Buranı həm də "İçəri Şəhər" adlandırırlar. Qazıntılar zamanı buradan eramızdan əvvəl 3-1 - ci əsrə aid abidələr taılıb.*

*Ən çox abidə isə orta əsrlərə, Şirvanşahlar dövrünə aiddir. İçəri şəhərdə gəzərkən bu abidələrin bir çoxunu açıq havada düzəldilmiş muzeylərdə görmək mümkündür. Şirvanşahlar sarayı (16 - cı əsr), Qız Qalası (12 - ci əsr) turistlərin diqqətini çəkən ən qədim abidələrdəndir. İçəri şəhərdə gəzərkən həm Bakının, Azərbaycan tarixinə sayahət etmək, həm də oradakı restoranlarda dadlı Azərbaycan məxtbəxinin dadına baxa bilərsiniz.*

## *Müasir Bakı*

*Qala divarlarından kənarda isə müasir Bakını görmək mümkündür. Doğrudur, Bakı kəndlərinin bir çoxunda turistlər özünə cəlb edəcək qədim abidələr, ziyarət edə biləcəkləri yerlər mövcuddur. Məsələn, əsrlərdən bəri yanmaqda olan, sönməyən Yanar Dağ. Buradakı alovlar əsrlərdir ki, yanmada davam edir və hər il bura çoxlaylı turist bu alovları görmək üçün gəlir. Atəşgah (deyilənə görə tarixi 3 - cü əsrə qədər gedir, Zərdüştlük dininə aiddir), qədim neft bruqları və.s. hər il çoxsaylı turisti özlərinə cəlb edirlər. Yeni Bakı isə öz yeni tikililəri ilə məşhurdur. Bu tikililərin ən çox tanınanı isə Heydər Əliyev Mərkəzidir. Əgər bura getsəniz, gərək bir gününüzü bura ayırasınız. Burada qədim Azərbaycan xalçalarını, musiqi alətlərini, milli geyimləri, tarixi əşyaları və.s. görə bilərsiniz. Avtomobil həvəskarları burada hər cür antik avtomobilləri də görə bilərlər. Yeni tikililərinə görə yeni Bakını Dubayla müqayisə edənlər də var. Bakıya gedib Bakı bulvarını görməsəniz, deyərdim ki, Bakıda olmuş hesab olunmazsınız. Bakı bulvarı da yeni Bakının ən görməli yerlərindən biridir. Burada, dəniz sahilində həm gəzişə, həm əylənə, həm Azərbaycan çayını, Azərbaycan mətbəxini dada bilərsiniz. Əlbətdə ki, çimərlikləri də unutmaq olmaz. Bakı Xəzər dənizinin sahilində yerləşdiyindən burada həmçinin dəniz sahilindəki otellərdə də qala və çimərliklərindən istifadə etmək imkanınız var.*

## *Çay dəstgahı və milli mətbəx*

*Azərbaycana getsəniz, mütləq çay dəstgahından zövq almağa çalışın. Orada müxtəlif meyvələrdən, gilasdan, gilənardan, çiyələkdən, hətta qarpızdan, tutdan (bu meyvəni Avropada görməmişəm) və digər meyvələrdən mürəbbələr hazırlayırlar. Çay dəstgahının yanında bu mürəbbələrsiz (biri, yaxud da bir neçəsinin olması şərti ilə) təsəvvür etmək mümkün deyil. Çay sifariş versəniz çalışın ki, samovar çayı sifariş edəsiniz. Bu çayın dadı fərqli olur. Çay dəmləyən zaman müxtəlif ədviyyatlardan da istifadə edilir, ağız dadına uyğun olaraq: darçın, mixək, kəklikotu və.s. ilə.*

*Azərbaycanın mətbəxi də zəngindir. Kabablarını sevəcəyinizə şübhə etmirəm; lülə kabab, tikə kabab və.s. Azərbaycan mətbəxinin ən çox sevilən yeməkləri sırasında plov (bir neçə növü var), dolma (həmçinin bir neçə növü var), dovğa, qutab və.s. öndə gedirlər.*

## *Azərbaycanın bölgələri*

*Əgər vaxtınız qalsa Azərbaycanın digər bölgələrinə də səyahət etməyinizi məsləhət görərdim.*

*İstirahət etməyiniz üçün ən yaxın, təbiəti, mətbəxi gözəl olan şəhərlər bunlardır. Şimal zonasında: Quba, Qusar, İsmayıllı və.s. Cənub zonasında: Lənkəran, Masallı, Yardımlı və.s. Bir qədər daha uzaqlara səyahət etməyə vaxtınız, həvəsiniz olarsa Şəkiyə, Qaxa, Gədəbəy və digər rayonlara da gedə bilərsiniz. 30 illik işğaldan azad olunmuş Şuşa, Kəlbəcər, Laçın, Ağdam, Zəngilan (Ermənistanın işğalı altında idi) kimi rayonların da gələcəkdə Azərbaycanın turizm mərkəzlərinə çevriləcəyinə inamım böyükdür. Adlarını çəkdiyim və çəkmədiyim hər bir şəhərin, bölgənin öz tarixi, özünəməxsus mətbəxi və füsünkar təbiəti var. Bir sözlə, Azərbaycan bu ölkəyə turist kimi gedən hər kəsdə heç vaxt unutmayacağı bir təəssürat yaradacaq, buna şübhə etmirəm. Mənim kimi hər il olmasa da, əminəm ki, ora gedəcək hər kəs ən azından bir neçə ildən sonra yenə də bu ölkəyə getmək istəyəcək.*

*Niderland-Azərbaycan-Niderland.*



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sözün işıqlı anı

**Ürəyimdən səssizlik keçir. Sakit, heç kimin olmadığı mobil, elektron, daha nə bilim nələr,nələr olmayan bir guşə... Sadəcə su şırıltısı, yarpaq, ot xışıltısı, bir də quşlarınsəsi. Yetər ki, bunlar mənim ayaqda olduğumu, yaşadığımı, mövcudluğumu xatırlatsın.Yəni bunların mövcudluğu və mənim bunlarla təmasım artıq özü-özlüyündə yaşadığımı,düşündüyümü büruzə verir. Və mən də həmin o düşüncələri sadəcə indi xəyal edirəm,ürəyimdən keçirirəm ki, kaş, o sakit guşəni heç olmasa bir saatlıq haqq edə bilim,onu mənə bağışlasınlar... o bir saatlıq anı yaşamaq imkanı, dəstəyi versinlər...**

Düşünə bilərsiniz ki, bu nə çətin işdi ki, bunu özünə dərd edirsən. Amma məntiqlə yanaşanda onda görürsən ki, hər kəsin istəyi çin olana qədər hansı çətinliklərdən keçir. Hətta bir stəkan bulaq suyunu içmək üçün də (Bakıda marketlərdə satılan bulaq suyundan getmir söhbət, bulağın gözündən içilən sudan danışıram mən- Ə.M.) həmin o bulağın yanına gedib çıxmaq bilirsiniz də nə deməkdi? Bilmirmirsinizsə, xatırladım. Bu həm vaxt deməkdi, bu həm maddi durum deməkdi, bu sağlamlıq, bu fiziki durum və nəhayət,bu həm də kimlərinsə izini, xeyir-duası deməkdi. İndi gördünüzmü, bir ovuc bulaq suyu içmək üçün bir dünya məsrəf, bir dünya səbəb var. Gəl indi onları aş görüm,necə aşırsan? Gəl indi bunları çöz görüm necə çözürsən? Ona görə də düşünməkdən,ürəyimdən keçənləri dilimə, sözümə gətirməkdən ehtiyat edirəm. Çünki doğru anlaşılmaya bilər, doğru yozulmaya bilər.Və nəhayət, bu dürüst anlaşılmazlıq hansısa qəlbi zədələyər, hansısa ruhu incidər.Onda necə deyərlər, Kərəmi də ağlamaq tutar...

Yeri gəlmişkən, bax elə bu mövzuyla bağlı yaşadığım bir məqamı xatırlayıram. Deməli,bir şeir yazmışdım. Onu indi sizə də təqdim edəcəm, sonra həmin məqama qayıdarıq.

*İki əllə yapışıb*
*Saxlamaq istəyirəm...*
*Vaxtın hətta əl-qolun -*
*Bağlamaq istəyirəm...*

*Dondurmaq gəlib keçir*
*Vaxtı bəzən könlümdən...*
*İstəmirəm çəkilsin -*
*Sənli vaxtlar önümdən...*

*Bu istəklə sonadək*
*Yaşayaraq mən ölsəm...*
*Diriləcəm, ürəkdən -*
*İstəyimi sən bölsən!..*

Bəli,bu şeirlə bağlı bir ürək dostum mənə bildirdi ki, söhbət hansı istəyindən gedir.Sual mənə yaman toxundu. Ona görə də birbaşacavab verdim:

-Məgər mənim dirilməyimin hansısa bir istəklə bağlılığı var?

Bu cavabın ardınca ikinci bir cavab da gəldi dilimə və dedim:

-"Nəsimi" filmi yadındadı? Orda bir məqam var: Şəms deyir ki, "Dövlət bəyin ölüsü də gözəldi!" Bəlkə, mənə sual ünvanlayanda sən də bunu düşünürdün?

O gülümsədi və dedi:

-Sən gecələr yat, Dövlət bəy!

Hər şeyi başa düşdüm, mövzudan yayınmağı da,ironiyanı da. Amma öz-özümə həm də düşündüm ki, dərin hisslərə qapılmağın bəzən tuş gəldiyi elə nöqtələr olur ki, orda hətta meh də, şeh də adamın xətrinə dəyir.Ona görə də dərində üzmək başqadı, dərin hisslərə qatılmaq tamam başqa. Birində boğulmaq təhlükəsi, birində ağrımaqacısı...

***

Bu gün istənilən sözün başına ip salmaq, istənilən sözü min yerə çəkib aparmaq o qədər asanlaşıbki, hərdən SÖZə yazığım gəlir. Amma sonra baxıb görürəm ki, heç SÖZün özü də az aşın duzu deyil. O da hər qələmə, hər dilə könül verir. Bir də görürsən ki, adamın yeddi qatından keçir, bir də görürsən ki, göyün yeddinci qatındadı... bir də görürsənki, ayaq altında... və nəhayət, bir də görürsən ki, könül oxşayır... Bax, belə bir ömür yaşayır SÖZ, belə bir meydan suvarır SÖZ!

Mən hamıya məlum olan, hamının hər gün qarşılaşdığı çalarları eləbelə, SÖZün xoşuna gəlmək üçün,SÖZə yarınmaq üçün yazmıram. Bilirəm ki, dünyanın harasında olur-olsun, yerindən,məkanından, zamanından asılı olmayaraq, SÖZ ünsiyyət üçün, münasibət üçün, anlaşmaq üçün mütləq gərək olur. Onu dillə deyə bilməyəndə də baxışla, yazıyla, hərəktələ çatdırırsan. Amma xəyalı bu cür çatdırmaq o qədər də alınmır. Çünki xəyalın dili,xəyalın ifadə vasitəsi olan SÖZ xəyalla xəyal quran arasındakı tellərdən asılıdı.O tellərə hər kəs toxuna bilmir. Necə ki, Ədalətin "Ruhani"sini heç kəs çala bilmir. Lap elə "Yanıq Kərəmi"ni də.

Deməli, bu prizmadan baxanda, bu nöqtədən boylananda onda görürsən ki, xəyal qurmağın nə boyda məsuliyyəti var, nə boyda yükü var, nə qədər zərifdi, nə qədər əlçatmazdı. Yəni xəyal qırıqlığına uğurlamaq, tuş gəlmək, elə bil ki, isti odun üstünə soyuq su tökməkdi... elə bilki, diri ola-ola ölməkdi, bir növü kliniki ölüm... elə bil ki, əl-qolunun boşalıb yanına düşməsidi... elə bil ki, Məlikməmmədin düşdüyü quyuda kəndirsiz, nərdivansız qalmaqdı...

Bax, bu mənada mənim xəyalpərvərliyim həmişə isti aşıma soyuq su calayıb. Elə dünənimdə də, bu günümdədə... elə güvəndiklərimdə də, güvənənlərimdə də... Və nəhayət, çalışdığım, oturub-durduğum yerdə də. Çünki xəyal görünməzdi, əlçatmazdı,bir az da kor-kobud desəm, ruh kimi bir anlayışdı. Amma gerçəklik, necə deyərlər,oturub-durduğun yer, ordakı münasibətlər görünəndi, ordakı hərəkətlər izləniləndi.Deməli, bir az özünü ovcunun içərisində saxlamağı bacarmalısan. Bütün pərdələri qaldırmağa ehtiyac yoxdu. Bütün qapıları taybatay etmək, pəncərələri, nəfəslikləri Allahın ümidinə vermək yanlışdı. Çünki bunun sonrası var. O sonranı isə hər kəsbildiyi kimi düşünsün. Mən isə tamam başqa bir şey düşünürəm və düşündüklərimi dəsizin üçün açıqlayıram.

*Mən xəyal qururam- gecəm-gündüzüm*
*Xəyal içindədi -sadəcə xəyal...*
*Bir anlıq xəyal qur,sən də nə olar -*
*Məni xəyalların əlindən gəl, al!..*

*Nə uzaq gedirəm,nə də ki, yaxın*
*Sadəcə çevrəndə fırfırayam mən...*
*Özü öz içini səssiz əridən -*
*Dərdin əlindəki kirkirəyəm mən!..*

*Düşünmə xəyaldı günüm,ayım da*
*Düşün ki, xəyal da,gün də, ay da Sən!*
*Mənim ömür adlı özəl dünyamda-*
*Tanrının verdiyi şirin pay da sən!..*

***

Yaşananlar o vaxtşirin olur, yaddaqalan olur ki, onu xatırlayanda ürəyin ağrımır. Özündən, yaşadıqlarından, ümumiyyətlə, dünənindən incimirsən, küsmürsən,bezmirsən və dünəninə də, özünə də acımırsan. Bu mənada mənim dünənimdən incidiyim məqamlar heç də az deyil. Amma neyləyim ki, hər dəfə dizimə dəyən daşlar ağlımı özümə qaytarmır. Axırda dizim daşdan bezir, daş da dizimdən. Və hər ikisi"eh" edib başını bulayıb çəkilir öz işinin arxasına.

Buna görə də həm doğmalar, həm simsar olanlar, məni mənim kimi duyan sənin özün də hər dəfə məni qınayırsan, mənə nəsihət edirsən, məsləhət verirsən, ağıllı olmağa, özümü toparlamağa çağırırsan. Mən isə ağıllana bilmirəm. Deyəsən südlə gələn sümüklə çıxacaq axırda. Yəni normal, səmimi yanaşıb qayğıdiqqət ayırdığım insanın divarın o üzündəki mövqeyi, yanaşması, hətta açıqlamalar verməsi "qulağı" olan yerin yaratdığı fürsət hesabına çoxda gizlin qalmır, açılır üstü, bəlli olur hər şey. Bax, onda ürəyim ağrıyır, özümü qınayıram. Amma bu da bir an çəkir. Çünki mən təbiətən tamam fərqli baxmışam dünyaya.Bunun da əsas səbəbi müəllimlərim olub - həm məktəbdə, həm də həyatda. Hər zamanda onların öyrətdikləri, onlardan öyrəndiklərim əlimdən tutub və o sarsıntıları,o ürəyimə dəyənləri bütün bir kənara qoymaqda mənə kömək olublar. Və mən yenə öz yolumla, öz axarımla getmişəm, gedirəm... onlar da yenə öz axarlarıyla, öz yollarıyla gedirlər. Bu yollar kəsişən deyil. Bu yolların bəxtinə paralellik yazılıb. Ona görədə paralel olanın birbirindən qurtulması üçün hansısa birinin sıradan çıxması lazımdı.Bu da Allahın ixtiyarındadı. Mən də Allahın işinə qarışmağı nə bacarmıram, nə dəbu barədə heç düşünmürəm də. Sizə də məsləhət görmürəm. İstəyirəm ki, bu həyatın bütün rənglərini, bütün çalarlarını gözünüzün önünə gətirib necə var elə qəbul edəsiniz. Realliğa, gerçəyə sığınasınız, onu önə çəkəsiniz, onun yanında olasınız. Bax onda görəcəksiniz ki,bu dünyanın "qaradaş"ı də göyərməsə, üstündə ot göyərdir. Axı, iradə Allahındı! Hökm onundu!

***P.S.*** ***Mən güvəncim olan Allaha və Sənə üz tutub həmişə dediyim, etiraf etdiyim və bu yazıda da yazdığım nəticəyə zaman-zaman yaxınlaşmışam, zaman-zaman özümü bu nəticənin içərsində görmüşəm! Və əgər Sizdə də bu inam və inanc olsa, Siz də onu mənim kimi qəbul edəcəksiniz...***



Bəxtiyar QARACA

# Nə onda, nə sonralar kiminsə tabutunun altına girə bildim...

**Səhər-səhər zəng gəldi. Rayonda yaşayan qardaşımın kiçik oğlu idi. Atalarını itirəndən sonra bir çətinliyə düşən kimi böyük əmi kimi məni daha çox axtarırlar.**

- Əmi, nə vaxt gəlirsən? Hamı gedib qəbrini tapıb düzəldir. Gəlsəydin, əmimin yerini göstərərdin. Şəklini də hazırlamışıq. Aparıb qoyardıq üstünə.

Söhbət mənim 91-ci ilin oktyabrında Qarabağdan qayıdarkən avtoqəzada həyatını itirən kiçik qardaşımdan gedir. Onda bu uşaqlar ya hələ doğulmamışdılar, ya da o müsibəti xatırlamaq, yadda saxlamaq üçün çox balaca idilər.

Qəza axşamüstü Kürdəmir-Hacıqabul yolunda Padar düzü deyilən ərazidə böyük qardaşımın maşınında olmuşdu. Bildiyim təkcə bu oldu ki, qəfil maşının işıqları sönüb. Məcbur olub dayanıblar yolun kənarında. Elə bu vaxt hansısa maşın gəlib balaca qardaşımla yanaşı onlara kömək üçün maşından düşən cavan bir oğlanı da vurub. Böyük qardaş hər ikisini xəstəxanaya çatdırmağa çalışsa da, kiçik qarda-



şım yolda keçinmişdi. Amma son nəfəsində də böyük qardaşına: "Yaxşıyam, qorxma", - deyə bilmişdi. Mən onda Bakıda idim. Gecə gəldim, böyük qardaşımı Hacıqabulda bir dostumuzun evində tapdım. Elə halda idi ki, ondan nə o vaxt, nə sonralar ürək edib o hadisənin necə baş verdiyini, daha doğrusu, qardaşımın son halını soruşa bilmədim. Böyük qardaşım, ümumən, çox həssas idi. Bu hadisədən sonra isə lap körpə uşağa dönmüşdü. Nə deyirdin, nə soruşurdun ağlayırdı. Vaxt keçər, sakitləşər, soruşaram deyirdim. Vaxt keçdi. Amma soruşmağa imkan qalmadı - qəflətən dünyasını dəyişdi. İndi kiçik qardaşımla bir yerdədilər. Atam-anam da yanlarında. Yəqin oturub onlara baxa-baxa yenə atam ağlayır, anam isə hər ikisinin yarasından axan qanı təmizləyir...

O soyuq payız günü balaca qardaşımın cansız bədənini Əli Bayramlı xəstəxanasından köhnə bir maşında götürüb başının üstünü qara buludlar almaqda olan yurdumuza sarı gedə-gedə, bəlkə daha çox qarşıda bizi gözləyən müsibətlərə baxa-baxa çox ağladım. Bir sürücü, bir qardaşım, bir də mən idim maşında...

Ağdamı adlayıb Mərziliyə tərəf dönəndə Səxavət Məmmədov yadıma düşdü. O da bir ay əvvəl - həmin ilin sentyabrında avtomobil qəzasında dünyasını dəyişmişdi. Gətirib burada - Abdal-Gülablıda dəfn etmişdilər. İki il sonra Səxavət Məmmədov haqda hazırladığım verilişdə həyat yoldaşı deyəcək ki, Səxavət İsraildən konsertdən tez qayıtdı ki, oğlunu sentyabrın 1-də dərsə aparsın. Gəldi ki, dərsləri sentyabrın 15-nə keçiriblər. Dostları onu bir xahiş üçün şəhərdən çıxardılar - bilmirəm Salyana, ya Neftçalaya. Qayıdıb şəhərə çatanda qəzaya düşdü. Lökbatan xəstəxanasına çatdırsalar da, köməyi olmadı. Heç nə olmamış kimi uzanmışdı palatada. Ürəyinin üstdə bir qırmızı ləkə var idi. Vəssalam.

Xanımı deyir ki, ondan əvvəl qorxulu bir yuxu görmüşdüm. Qurban kəsdik. Amma qurban ətini paylayıb qurtarmamış bu qəza oldu. Sonrası lap nağıllardakı kimi - Səxavətin başdaşı Bakıda hazırlanıb Abdal-Gülablıya aparılacaqdı ki, ermənilər kəndi ələ keçirdilər. Beləcə, illərlə Səxavətin başdaşı Bakıda, özü Ağdamda, səsi, nəfəsi başımız üstdə dolanmalı oldu...

Yuxarı baxıram. Qarakənddir. Qardaşımdan bir ay sonra - noyabrda burada vertolyot qəzası olacaq və nə qədər dövlət adamımız həyatını itirəcəkdi. Aralarında mənim həmkarlarım da var idi. Mən də orada ola bilərdim. Olmadım. Olmayacam da.

Amma etiraf edim, o vaxt, nə qədər acı, nə qədər ağır olsa da, bu itkilər bir çoxu kimi bizi də xeyli ovundura, sakitləşdirə bildi. Səxavətin faciəsinə baxıb: "Ölüm heç nəyə, heç kimə baxmır", - dedik, o vertolyot qəzası ilə: "Nə yaxşı sən orada olmadın...", - deyib təsəlli tapmağa çalışdıq. Təsəlli deyəndə, bəlkə bunu demək istəyirəm: "Elnən gələn dərd-bəla toy-bayramdır..."

(ardı 9-cu səhifədə

Allahverdi Eminov

# Musa Yaqubun şair obrazı



**Musa Yaqub bizdən ilbəil uzaqlaşır, bu, həyatın dönməz qanunudur, amma poeziyası bizə daha çox yaxınlaşır. Çün o, həmişə dağlara, meşələrə, dərələrə üz tutubdur:**

*O nədir, üfüqə qar düşüb elə,*
*Bir cüna göylərdən asılı qalıb.*
*Girib ünsiyyətə qaranlıq ilə*
*Dərələr ucalıb, zirvə alçalıb.*
*Kahalar ətrafa qaranlıq ələr,*
*Dağlar çox qəribə olur gecələr...*

Şeir 1969-cu ildə yazılıb, 55 il əvvəl. üstündən adlayan illəri xatırlamaq istəməzdim, elə sürətlə ötdü ki! Vətən sevgisi isə qocalmadı, onu yaşamağa, şeir yazmağa səslədi. Üzünü Vətənə tutdu və yazdı:

*Bəlkə də borcundan çıxmadım, Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də qoynunda qoy ölüm ki mən -*
*Çürüyüm, bir ovuc torpağın olum!*

Bu, poetik etiraf idi və onu doğma Buynuz kəndinə səsləyirdi, şəhərə aparan yollar geri qayıtdı, arzu - istəyi daxili inamına çevrildi, "Damla", "Qış lövhələri","Lələ", "Güllə gəzdirən maral" şeirlərini qələmə aldı.

*Yatar sıx meşələr, səssiz - səmirsiz,*
*Yatar qoca palıd qol - budağıyla.*
*Alçaq budaqlarda salxımlanıb buz,*
*Yatar ağacların son yarpağıyla.*

Musa Yaqub ata itkisinə alə acıyır ki! Bu yoxluğa dəfələrlə qayıtmışdır. "Atamın xatirəsinə" şeirini bir daha oxudum və özümü saxlaya bilmədim, onsuz da payıza gedirəm. Mən əsərdən təsirlənib ağlamaqda qəbahət görmürəm. Axı, şairlər, yazıçılar əsərləri üzərində göz yaşı tökmüşlər. Məşhur rus yazıçısı A.Kuprin "Süleyman daşlı qolbaq" hekayəsinin əl yazması üstə ağlamış və azca sakitləşmişdir.

*... Atamın boz pencəyinə*
*qar yağırdı.*
*Samanlığın qapısında*
*düşüb qalan*
*Dəryazının əlcəyinə*
*qar yağırdı.*
*Orağının dəstəyi də*
*donub buza*
*Qar yağırdı ruzumuza.*

Musa Yaqub şeiri atasının vəfatından çox sonra yazsa da, inanmıram ağlamasın. Mən şairlə görüşəndə soruşdum ki, O, əlini mənə uzatdı, ovcumu sıxdı, elə istiyi ki...

Başqa şairlərdən fərqli olaraq Musa Yaqub Allahlıq iddiasına düşmədi, çün Allah özü yaradan qüvvədir, eləcə də İnsan. Musa Yaqub deyirdi ki, insanlar Allah qədər səxavətli olsalar bizdə heç bir problem yaranmaz. Allah bizə çox şeyi əta edibdir: istedad, sevmək, xeyirxahlıq - naqisliyimiz ondadır, hansı mənəvi - ruhi üstünlüklərə yiyələndiyimizi anlamırıq. Şübhəsiz, yaradıcı adam allahlaşa bilməz. Allah dərgahına yaxınlaşar. Çün şeir yazanda mən şəxsən mən olmuram, hər şeydən uzaqlaşıram, şeirlərimi mahnı oxuya-oxuya yazıram. Ürəyim həmin predmetə yaxınlaşır, üzbəüz qalırıq, qoşalaşırıq, lap zərif çiçək olsun!

Musa Yaqub ürəyi dolanda, əzablarını içərisinə çəkəndə şeirə hazır dayanır, axı, şeir ovqatdan doğulduğu üçün hər kəs şeir qələmə ala bilməz, şeir yazanda sevgi günlərinə qayıtmalısan.

*O hansı bulaqdır gözündən içdim,*
*İçibən bir sevda yoluna keçdim.*
*Guya ki, dünyanı dərk eləmişdim,*
*Bu sevgi yenidən ayıltdı məni.*

*Bir yaz çəmənin küləyi oldum,*
*Bir açar qönçənin gərəyi oldum.*
*O şehli bədənin köynəyi oldum,*
*Bu sevgi yenidən oyatdı məni.*

*Bahara uzanmış ağac qoluyam,*
*Alça budağı tək çiçək doluyam.*
*Təpədən - dırnağa sevda yoluyam,*
*Bu sevgi yenidən ayıltdı məni.*

Musa Yaqub "Dağlar" şeirini yazdı, şairi "ağuşuna çəkdi", hətta "Gözətçi götürün məni", - pıçıldadı, "olum bu günlərin bağbanı", - dedi, "olum zirvələrin sultanı", - yalvardı.

*Musa, bu yerlərdən uzaq düşmə heç,*
*Təpə kölgəsində daldalanma, keç.*
*Arxa da seçəndə dağdan arxa seç,*
*Ram edər özünə dövranı dağlar!*

Şairin "Apar məni bu ümidin dalınca" şeirində sosial motivlər öz yerində, şair narazılığı, nigarançılığı yox deyil, şeirin bədii məziyyətində təmiz, ləkəsiz poetik pafos estetik qavrayışın yolunu açır, sönməz ümid doğurur.



*O qaranquş yuvası ki, soyuyub,*
*O çöldəki qərib durna uyuyub,*
*Könlüm sənin ümidinə çox uyub,*
*Apar məni bu ümidin dalınca.*
*O ümid haradadır görəsən?*
*Apar məni bu ümidin dalınca,*
*Kor ocağım yanıb külə dönüncə.*
*Sən get mənim taleyimin önüncə,*
*Apar məni bu ümidin dalınca.*

Şair ümidini söndürmür, baxmayaraq bir sevgi ümidini də ürəyində yaşatmışdır.

Musa Yaqub poeziyasında zahirən nəzərə çarpmayan cəmiyyətdə gedən qlobal proseslərə toxunur: - balacalar - böyüklər, tənhalar - birləşmələr, ölülər - dirilər. İnsanlar təbəqələşirsə, bölünürsə məhvə, ölümə məhkum olurlar, əllər bir-birinə yapışmayanda ayrı-ayrılıqda qırılacaqdır.

Qlobal auranı ləkələmək, parçalamaq yaramaz, necə ki, Qarağacların taleyini insanlar yaşaya bilər.

*Yaşıl taclı ağaclarla*
*Qarağaclar ölüb gedir*
*əyilməyib son nəfəsdə*
*Quruyurlar ayaqüstə*
*bu ağaclar.*
*Bəlkə yaxın olsaydılar,*
*Arxa durub bir-birinə*
*qurumazdı.*
*Qarağaclar, qarağaclar.*

Şeir o halda həqiqi sənət əsəridir - şairin nar kimi sıxdığı, hər bir dənəsindən süzülən al qırmızı şirə onun misrasından süzülsün. Misralar şair vücudunun qan damarıdır və bu qan poetik pafosa çevrilir.

Şiller yazırdı ki, poetik əsər ümumini ifadə etməlidir, çün, hər bir poetik əsər lirik olmalıdır, əks halda o, poetik əsər sayıla bilməz, kamil şairdirsə insani hissləri ifadə etməlidir. Musa Yaqubun poeziyasının təsir əhatəsi dərhal özünü hiss etdirir.

"İsgəndər quşlar", "Məni aparma", "Tənhalıq", "Payız", "Buynuza qar yağır" şeirləri bu qəbildəndir.

*Al Günəş qayaya çilər nur, tökər zər,*
*Baharda uçarlar bəxtəvər-bəxtəvər.*
*Bir kimsə bilməz ki, ömür edir nə qədər,*
*Qartaldan asılı günləri, yaşarlar -*
*İsgəndər quşları.*

Bu quşlar gözü toxdur, dağlar da, daşlar da onlar üçün hamardı, beləcə halal yemlərini taparlar, axı, elə iddiaları da yoxdur.

Musa Yaqub şeirində poetik pafos poetik yükün çəkisindən asılıdır və birbirini şərtləndirir.

Şeirlərində Dünya - Kainat, İnsan - Vətəndaş, Torpaq - Vətən, Məhəbbət - Sevgi kimi bəşəri anlayışlar poetik məzmunun predmetləridir. "Dünya", "Tərəzi", "Bir günah sənin, bir günah mənim" və digər şeirləri müxtəlif mövzularda qələmə alınsa da insan amili, vətəndaş mövqeyi, torpaq məhəbbəti, intəhasız ömrün yaşantısı, bir sözlə poetik təfəkkür şairin dünyagörüşünün məhsuluna çevrilir və şeirin predmetini işıqlandırır. Musa Yaqubun "Dünya" adlı unikal şeirini oxucu hər bir ovqatında oxuya bilər. Şeir barədə, istedadlı tənqidçi - ədəbiyyatşünas, professor Vaqif Yusifli maraqlı fikir söyləmişdir: "Dünya şeirində şair diqqəti müxtəlif biçimdə və müxtəlif rəngdə nəzərə çarpan təzadlara yönəldir, yaxşıyla yamanın, həqiqətlə yalanın, mərdliklə namərdliyin, inamla bədbinliyin, işıqla zülmətin yanaşı yaşadığını, bəzən birincilərin qəhətliyini, qıtlığını göstərir, öz daxili yanğısını, dünya üçün məsuliyyət daşıdığını şeirin ümumi ruhuna, ahənginə hopdurur". Həyat materialından irəli gələn, bu gün də abstrakt, həlli qeyri - mümkün insan ömrünün su kimi axıb harayasa getməsini müəllif öz varlığında görürür, öz şair obrazını yaradır.

Şair "Dünya"nın fəlsəfi konsepsiyasına gəlib çıxır. Mən şeirdə "metafizik"lik axtarmaq istəməzdim, dünyanın təhlilinə vermək cəhdinə varmazdım. Lakin şairin dialektik qanunlardan irəli gələn subyektiv əsaslara müəllifin emosioanl intellektual münasibətindən yan keçmədim, fikrin bədii fakt üzərində üstünlüyünü vurğulamaya bilməzdim.

*Qoca dünya bu ünvanlı, bu adlı,*
*Alıb - gedər karxanası kahadı.*
*Karvanından karvansa bahadı,*
*Deyən varmı, ol mehmanam, nə deyim?*

Beləliklə, şair qoca Dünyanın fiziki məkanını simvollaşdırır və ideyanın bədii sübutunu əyaniləşdirir, hisslə fikrin harmoniyasını pozmur. Şair nikbin ruh yaşayır, Kainatı - Dünyanı vücudunda duyur, görür və nəhayət, başlanan, uzaqlaşan, yenidən başlanan fəlsəfi "triada"ya gəlib çıxır:

*Üfüq mənəm, dəniz mənəm, kürrə mənəm,*
*Dünya keçdim bu karvana görə mən.*
*Gəlib çıxdım yenə həman yerə mən,*
*O, bu yanım, bu, o yanım, nə deyim?!*

Musa Yaqubun "Xəzanda bir əsim bahar küləyim", "Bu dünyada sevinc də var", "Bir vida nəğməsi" şeirlərində nə yoxdur? Həyatda ömrünü günahsız yaşamış, təbiətin dağını, ağacını, çiçəyini, çəmənini danışdıra bilən bir şairin həyat eşqi - payız xəzəllərini ovcunda bükən, ayaqlar altına səpələyən Musa Yaqub - belə düşünürəm - yazır:

*Xəzanda bir əsim bahar küləyim,*
*Ay mənim ürəyim, payız çiçəyim.*
*Nə olub, nə görüb, nə açılmısan?*
*Çöl - bayır saralıb solandan sonra,*
*Ağaclar lüt - üryan olandan sonra,*
*Yarpaqlar arxlara dolandan sonra,*
*Bu sevgi, bu ümid, bu həvəs nədi?*

Bu həzin, içində vurnuxan eşqmi, sevgimi, məhəbbətmi?

Bütün bu mülahizələri, reallıqların məhvərində şair Musa Yaqubun poeziyası dayanır, bu poetik dünyada xalq şairinin möhtəşəm obrazı daha əzəmətli görünür. Onun yaradıcılığında ümman sakitliyi, ülvilik payı var.

(əvvəli 8-ci səhifədə)

O gün Qarakəndin yanından keçəndə birdən-birə məni qorxu bürüdü - o vaxt ermənilər pusqu qurub adamlarımızı əsir aparırdılar. İnanın, həmin an özümdən çox qardaşımdan qorxdum. Qardaşımı əlimdən alacaqlarından qorxdum. Sürücü bu yerlərə nabələd idi. Maşını asfalt yoldan çıxartdım və tanımadığım, heç vaxt getmədiyim, bir növ, özümün də nabələd olduğum ara yollarla sürdürdüm. Yolu bilməsəm də, getdiyim yeri, istiqaməti yaxşı bilirdim. Uzaqda olsam da, hər yandan həyətimizə axışan adamları görürdüm. Nədənsə anamın yox, daha çox atamın ağlayan üzünü təsəvvür edib mən də ağlayırdım...

Maşından düşüb atamı qucaqladım. O bu halında da qalan övladlarını düşünürdü - "Möhkəm ol, möhkəm olun", - deyirdi. Amma bu "möhkəm"liyin ona neçəyə başa gəldiyini görürdük. Bu hadisədən az keçmiş yurdumuz düşmən əlinə keçdi. Qaçqın-köçkün həyatımız baş-

# Nə onda, nə sonralar kiminsə tabutunun altına girə bildim...

ladı. Evini və oğlunu itirən atam ölənə kimi Beyləqanın təpələrinə çıxıb hər gün qoyub gəldiyi oğluna sarı baxabaxa hamıdan gizlin dərdini dilinə gətirib ağladı. İndi də Beyləqanda Peyğəmbər məzarlığında əmanət bir qəbirdə geri dönəcəyi günü gözləməkdədir.

Bu, evimizdə baş verən ilk və ən böyük facie idi. Sonradan atam-anam, iki qardaşım dünyasını dəyişəcək, amma bu ağrını belə hiss etməyəcəyik. Bu bizim ailənin sanki o dünyaya uzanan yolunda ilk sınaq məşqlərimiz idi.

Nə onda, nə sonralar kiminsə tabutunun altına girə bildim. O ağırlığı çiynimdə hiss edən kimi əzizlərimin yoxluğuna - ölümünə inanacağımdan qorxurdum. Nə onda, nə sonralar onları torpağa necə tapşırdıqlarına da şahidlik etmək istədim. Getmədim dəfnə. Gedə bilmədim. Çünki onlar hələ də sağdılar mənim üçün. Sağ olan, yaşayan doğmalarımın qəbrini görə bilmədim. Görmək istəmədim...

İndi səhər-səhər "əmimin yerini göstər", - deyən uşaqlara nə deyim, bunu necə izah edim? Axı mən qardaşımın harada dəfn olunduğunu bilmirəm.

Amma nə olur-olsun, bu həftə gedəcəm. Əlimdə qardaşımın böyüdülmüş şəkli 33 ildən sonra həmin məkana yollanacam. Həmişə dadıma çatan balaca qardaşım, inanıram ki, bu dəfə də köməyimə gələcək, məni çətin vəziyyətdən çıxaracaq. Məzarlığa yaxınlaşan kimi başını qaldırıb həmişəki gülər üzü ilə məni çağıracaq. "Gəl, buradayam, - deyəcək. - Sən də çox yoruldun. Gəl bir az uzan, dincəl", - deyərək tərpənib o dar qəbrində mənə yer də verəcək...

İnanıram ki, əlimdə qardaşımın o böyüdülmüş şəkli xarabalığa çevrilmiş yurdumuzda hər yeri əvvəlki kimi görüb tanıyacam, daşı daş üstə qalmayan, ot basan, ağacları dəli olan kənddəki evimizi də tapacam, adamları olmasa da, didərgin düşən günləri və xatirələri də bir yerə toplaya biləcəm...

**Hərə itirdiyinə, tapdığına bir cür qayıdır. Amma bizim ailənin Qarabağa qayıdışı belə olacaq.**

## *Bu ölkədə aclıq səbəbindən vəhşi heyvanlar güllələnəcək*

**Namibiya hakimiyyəti şiddətli quraqlığın yaratdığı aclığın qarşısını almaq üçün yüzlərlə vəhşi heyvanı öldürməyi planlaşdırır.**

Namibiya bu il ölkəni vuran quraqlığın yaratdığı aclığın nəticələrini yüngülləşdirmək üçün tezliklə yüzlərlə vəhşi heyvanı məhv etməyi planlaşdırır.

Adalet.az bildirir ki, bu, ölkədə ərzaq təhlükəsizliyinin həllinə və "davamlı ov vasitəsilə ekoloji tarazlığın qorunmasına" yönəlmiş vəhşi təbiətin idarə edilməsi proqramının bir hissəsidir.

BMT-nin məlumatına görə, Namibiyada 1,4 milyon insan aclıq çəkir və bu səbəbdən bu ilin mayında ölkədə fövqəladə vəziyyət elan edilib.

Buna görə də Namibiyanın Ətraf mühit, meşə təsərrüfatı və turizm nazirliyi 723 vəhşi heyvanın, o cümlədən fil, zebra, begemot və antilopların öldürülməsinə icazə verib. Aclıqla mübarizə aparmaq üçün ov əhalinin ekosistemin imkanlarını aşdığı ərazilərdə baş verəcək.

Namibiya hökuməti hesab edir ki, bu yolla quraqlıqdan ən çox zərər çəkən icmaları ətlə təmin edə biləcəklər. Həmçinin, səlahiyyətlilərə görə, bu tədbirlər "ağır şərtlər səbəbindən heyvanların əziyyətini azaltmaq, ətraf mühitin daha da pisləşməsinin qarşısını almaq" məqsədi daşıyır.

**Təəssüf ki, Namibiyanın mühafizə strategiyasına daimi ov daxildir və vəhşi təbiət populyasiyalarının məsuliyyətli idarə olunmasını təmin edir. Onun insan-vəhşi təbiət münaqişələrini və ərzaq təhlükəsizliyini həll edəcəyi və bununla da həm ekosistemin sağlamlığını, həm də əhalinin rifahını dəstəklədiyi güman edilir.**

# Niyə məhz ZİYAD SƏMƏDZADƏ?

**Sentyabrın 1-dir. Yuxudan durmuşam. Evdə sakitçilikdir. Niyə də sakitçilik olmasın ki? Axı tək özüməm. Arvad növbətçidir. Qızlar da ər evində. Bəs tək olmağım mənə niyə  qəribə gəlir ki? Çünki sentyabrın 1-dir. Seçki günüdür. Seçkini niyə iki yerə bölmədim? Çünki parlament olsun, ya prezident, dəxli yoxdur. Bizim dörd nəfərdən ibarət balaca İmamverdiyevlər ailəsi bunların hər ikisində fəal iştirak edirdi.**

Bu gün də sentyabrın 1-dir. Saat 11-dir. Yerimdən dururam. Nahar edirəm. Seçki məntəqəmizin yerləşdiyi, anamın 40 il dərs dediyi, qızlarımın təhsil aldığı 44 nömrəli məktəbə gedirəm. Bülleten alıram. Və... Nə "Və"? Heç. Kövrəlirəm. Xatirələr alır məni ağuşuna. Tezcənə namizəd Ziyad Səmədzadənin qarşısında işarə qoyub, kağızı qutuya atıram.

Gülün, gülün. Çox gülməlidir. İlk dəfədir ki, seçki məntəqəsində kövrələn seçici görürsünüz. Eləmi? Məntəqədən çıxıram. Evə gəlirəm. Yenə təkəm. Heç sual da verən, müzakirə də açan yoxdur ki, "a balam, görəsən Ziyad Səmədzadə deputat seçiləcək, ya yox? Səslərimiz boşuna getməyəcək ki? Bəlkə o biri namizədlər ondan da layiqlidirlər? Heç olmasa maraqlanaydın, tərcümeyi-hallarını oxuyaydın". evə zəng etdi. "Sabah Sevinci də, uşaqları da götür gəl. Pasportları da yadından çıxartma. Səs verəcəyik, sonra da gedirik Yardımlıya gəzməyə" dedi. Mən ailəmlə 9-cu mikrorayonda yaşasam da, qeydiyyatda Hüsü Hacıyev 19-da idim. Səhər tezdən gəldim həyətə. 2-3 yaşlı qızlarım da yanımızda seçki məntəqəsinə doğru addımlamağa başladıq. Bircə, əlimizdə transparantımız çatışmırdı: "Səs versək Elçibəyə, ümid var gələcəyə!".

O vaxt məntəqə Şors küçəsində yerləşirdi. Yolda atam anama, mənə və yoldaşıma xırda təbliğat kampaniyası keçirdi.

- Bilirsiniz də kimə səs verəcəyik?

- Yox, bilmirik, - deyə cavab verdik.

- Necə yəni bilmirik? Əbülfəz Elçibəyə. Prezident o olmalıdır. Ona ana südü kimi halaldır prezidentlik.

Heç nə demədik. Məntəqəyə daxil olduq. Orta məktəbdə tanıdığım müəllimələrdən biri girişdə məni kənara çəkib:

- Mahir, bilirsən də kimə səs verməlisən?

- Bilirəm. Elçibəyə.

- Başın xarabdır? Nizami Süleymanova səs ver. O keçəcək. Dünənki çıxışına televizorda baxmadın? Əgər o, prezident seçilsə, yağın, ətin, ərzaq mallarının qiyməti aşağı düşəcək.

deyilmi?) ödədik. Atam kağız-kuğuz işinə qarışmadı. Mən və şair Azər Abdulla "yükü" öz aramızda böldük. 2000 imza tutumu olan imza vərəqələrindən əlavə 500 imzalıq da vərəqə verdilər ki, artıq yığaq. Birdən imzalarda nəsə problem olsa, yerini doldurmaq olsun.

Xülasə, başladım imza toplamağa. Qapı-qapı gəzirdim. Xüsusilə də günorta vaxtı. Çünki qadınlar "Şair Qabilin vəkiliyəm. İmza toplayıram. Əgər razısınızsa deputatlığa namizədiniz o olsun, mümkünsə



mək istədim. Nə biləydim ki, əvvəlcədən icazə almaq lazımdır. Deputat seçilmədim, ara yerdə "14 şirvan"ım da batdı" deməklə ürəyini boşaltdı. Bu "14 şirvan" məsələsi köhnə xatirə kimi bir də, atamın 70 illik yubileyindən sonra keçirilən görüşdə xatırlandı. Yəqin ki, videosunu görmüsünüz. Danışmağıma ehtiyac yoxdur.

1995-ci il deputat seçkilərində bizim ailə kimə səs verdi, yadımda deyil. Amma mənim xatirimdə buraxdığı  iz çox dərin oldu.

## *Çünki Heydər Əliyevin oğludur*

1998-ci il prezident seçkilərində də İmamverdiyevlər ailəsi bir nəfər kimi seçkilərə gedib, Heydər Əliyevə səs verdi. Əlbəttə ki, ailə başçısı Qabilin rəhbərliyi altında. 2000-ci ilin də deputat seçkiləri bizim üçün sönük keçdi. Deputatımız da deyəsən Gülər Əhmədova idi.

2003-cü ildə isə vəziyyət bir az başqa oldu. Çünki prezidentliyə namizədlər sırasında iki namizəd Əliyev vardı. Biri Heydər Əliyev, o biri isə İlham Əliyev. Ailədaxili "münaqişəmiz dərinləşirdi". Fikirlərimiz haçalanmışdı. Atam Heydər Əliyev

də "ailəmiz bir nəfər kimi İlham Əliyevə səs verəcək" deyirdim. Ailə üzvlərim ayrı-ayrılıqda məntəqəyə gedər,  səs verərdilər. Özü də atamın o vaxt arzu etdiyi namizədə. Əqidə və sədaqət xətti davam edirdi.

Bu gün isə sentyabrın 1-dir. Seçki məntəqəsindəyəm. Ziyad Səmədzadəyə səs verirəm. O Səməd Ziyadzadəyə ki, artıq illərdir mənim, bizim ailənin deputatıdır. Yəqin ömür vəfa versə, bir beş il də deputatımız olacaq. Ötən illərdə bircə dəfə sifətini görmüşəm. O da atam rəhmətə gedəndə başsağlığına gəlmişdi. Yəqin ki, deputat kimi yox, ziyalı kimi. İndi deyəcəksiniz ki, Mahir, başqa seçicilər kimi sən də demaqoqluğa başladın? Səs vermisən vermisən də, nə minnət qoyursan, hörmətdən salırsan verdiyin imzanı...

Ay oxucu, bu illər ərzində suyumuz, qazımız, işığımız kəsilməyib axı ki, Ziyad Səmədzadəyə müraciət edək. Yollarımız bərbad deyil axı ki, deputatı haylayaq. Üç liftimiz var, üçü də saat kimi işləyir maşallah. Xarab olmur axı ki, Ziyad müəllimi axtaraq. Qızlarımı köçürəndə toya çağırmalıydımmı onu? Mənim və ailəmin deputata ehtiyacı yoxdur. Sadəcə Ziyad Səmədzadəyə 5 ildən bir mənəvi ehtiyacımız var.

Amma yox. Mənim namizədim o idi.  Bəlkə də bülletendə

Kompüterin arxasında oturub başlayıram yazmağa. Xatirədir də. Havaya uçub getməsin. Hava deyəndə, yəni ki, göyə - o dünyaya. Heç olmasa yaddaşlarda qalsın. Və bu xatirələr yalnız müstəqillik dövrünün seçki prosesinə aiddir.

Mən ilk dəfə əsgərlikdə səs vermişəm. Özü də SSRİ Ali Sovetinə seçkilərdə. Heç xəbərimiz də yox idi ki, seçkidir. İstirahət günü olmasına baxmayaraq, bizi sıraya düzüb gətirdilər Horadizdəki seçki məntəqəsinə. İçəri girdik. Hərəmizin əlinə bir dənə bülleten verdilər. Orda da bir dənə familiya yazılmışdı. Mən bu şəxsi tanımırdım. Ona görə də üzümü yanımdakı dostuma tutub dedim ki, "mən bunu istəmirəm. Gəl sənin adını yazım bülletenə. Sənə də səs verim. Sən də mənim adımı yaz". Bu cür də etdik. Mən ona səs verdim, o da mənə. Bunu Şaporev adlı bir əsgərlik yoldaşımız gördü. Başladı ki, "bunlar qanunu pozdu. Bülleteni qaraladılar". Amma ona məhəl verən olmadı. 19 yaşlı mənim ilk seçkim beləcə yaddaqalan oldu. Bundan sonra kommunist olan mən heç vaxt seçkiyə getmədim. Heç atam, anam da getmirdi. Sovet dövründə seçki formal xarakter daşıyırdı. Namizəd tək olurdu, amma adına seçki deyirdilər. Hətta SSRİ-nin rəhbəri Brejnevə belə bir lətifə qoşmuşdular ki, bu ovaxtkı bütöv seçki quruluşuna da aid idi:

Bir nəfər əlində bir qarpız Kremlin yanından keçir. Bu dəm SSRİ-nin rəhbəri Brejnev qarşısına çıxır:

- Nə yaxşı qarpızdır? - deyə Brejnev dillənir.

- Qurbandır, Leonid İliç. Buyur seç, götür.

- Məni dolamısan? - deyə Brejnev hirslənir. Qarpız bir dənədir. Nəyi seçim ki?

- Ay Leonid İliç, bəs biz sizi necə seçirik?

Amma müstəqillik dövründə vəziyyət tam başqa oldu. Elə bil ki, azərbaycanlılardan sovet benzinini çəkib, yerinə demokratiya benzini tökmüşdün. Özü də ki, qıfla. Bir qramı da yerə tökülməmişdi. İmamverdiyevlər ailəsi də, daha doğrusu ailənin başçısı Qabil bu cür demokratlardan idi. İlk seçkimiz müstəqilliyə az qalmış şair Xəlil Rza ilə əlaqədar oldu. Atam onun vəkili idi. Mən də vəkilin şoferi. Xəlil Rza bu seçkidə 2 dəfə deputat seçilsə də, Mütəllibov hakimiyyəti qanun pozuntusu bəhanəsiylə 3-cü dəfə təkrar seçkiyə getdi. Üçüncüdən isə Xəlil əmi özü zinharə gəlib, namizədliyini geri götürdü. Bu prosesi başqa bir yazımda  sizə çatdıracağam. İndi isə məqsədim müstəqillik dövrü seçkiləridir.

## *1992-ci il Prezident seçkisi*

Müstəqillik illərində ilk seçkimiz 1992-ci ildə  oldu. Seçkiyə bir gün qalmış atam

- Axı atam deyir ki, Elçibəyə səs verək...

İçəri girdik. Səs verdik. Əlbəttə ki, Elçibəyə. Çıxanda müəllimə yenə də soruşdu ki, "kimə səs verdin?". Cavab verdim ki, Elçibəyə. "Ay-hay" deyib hər iki əlini yelləyə-yelləyə keçdi içəri.

Biz isə həyətə gəlib maşına mindik. Yol aldıq Yardımlıya. Masallının Qəriblər meşəsinə çatanda yazılmamış qanuna uyğun olaraq, atam maşını sürdü İstisu bulağına. Əl-üzümüzü yuduq, su içdik. Bu dəm kənd camaatı atamı dövrəyə aldı ki, bəs "Qabil müəllim, bu gün seçkidir. Biz də hələ səs verməmişik. Kimə səs verək?". Cavab qısa oldu: "Elçibəyə". Cavabın qısalığı bu kəndliləri açmadı. Ona görə də ikinci sual da gəldi: "Niyə axı məhz Elçibəyə?" Atam yenə də konkret cavab verdi: "Mən Elçibəyə səs vermişəm. Ailəm də...". Atamı əhatə edənlər "Qabil müəllim, deyirsiniz ki, ona səs versək hər şey yaxşı olacaq?" Atam bir an duruxdu. Amma bu suala verdiyi cavab indiyəcən yadımdan çıxmır:

"Tutaq ki, qapında usta işləyir. Danışmısan ki, bu işi görsə, ona 5 manat pul verəcəksən. O da işini canla-başla görür. Sən də danışdığınız kimi, 5 manatı çıxarıb verirsən ustaya. Bu pul ustaya ana südü kimi halaldır. O, bunu qazanıb. İndi o usta bu pulu nə edəcək - aparıb ailəsinəmi xərcləyəcək, araqmı alıb içəcək, içəndən sonra sərxoş olub kiminsə başınımı yaracaq - bilinmir. Onun sizə dəxli yoxdur. Konkret bu gündən danışırıqsa,  prezidentə ən layiq insan Əbülfəz Elçibəydir. Ona səs verin. Sabah necə olacaq, onu heç kim bilmir. Zaman göstərər".

1992-ci ildə Əbülfəz Elçibəy prezident seçildi. Prezidentliyi də çox az çəkdi. Sonda atam "Elçibəy İmaməddin Nəsimi kimi yandı, getdi" dedi.

## *1995-ci il - Parlament seçkiləri*

Bu seçkilər nəinki bizim ailənin, əksəriyyətin yaddaşına "14 şirvan məsələsi" kimi həkk olunub. Modern.az saytında yayımladığım "Heydər Əliyevlə şair Qabilin zarafatları - 1" video materialda bu söhbəti  yəqin siz də izləmisiniz.

Seçkilərə 2 ay qalmış atam dedi ki, bəs mən də deputat olmaq istəyirəm. O vaxt da deputat olmaq üçün 2000 seçici imzası, bir də 140 min manat lazım idi. Yəni ki, "14 şirvan". Seşkilərdə qalib gəlsəydin "14 şirvan"ı geri qaytaracaqdılar. Qalib gəlməsəydin və ya namizədliyin qeydə alınmasaydı, "14 şirvan" batacaqdı. Atam da özünə güvənən, Prezident Heydər Əliyevin böyük hörmət bəslədiyi bir insan kimi namizədliyini Nəsimi seçki dairəsindən irəli sürmək qərarına gəldi. Niyə Nəsimi rayonu? Çünki Nəsimi haqqında poema yazmışdı, ona görə. Gəldik dairəyə. Çox çətinliklə əldə etdiyimiz "14 şirvan"ı (indiki pulla 25 dollar. Gülməlidir, elə

pasportunuzu təqdim edin" sorğuma müsbət cavab verirdilər. Günorta olduğundan qapını özləri açar, nəinki öz pasportlarını, hətta ərlərinin, qaynata, qaynanalarının da pasportlarını yığıb təqdim edərdilər. Axşam imza toplayanda isə ərləri evdə olurdu. Bütün günü işdə olan, işləri düz gətirməyən, evə əlləri ətəyindən uzun qayıdan ərlər məni görəndə "çiçəkləri çırtlayırdı". Acıqlarını mənim üstümə tökürdülər. "Nə seçki, nə Qabil? Nə edəcək bizə deputat Qabil? İş yeri açacaq, pul verəcək? Qarnımızı doyuracaq? O da o birilərinin tayı olacaq da...". Amma evə dəvət edən, qabağıma çay qoyan da olurdu. Hətta bir dəfə şair Qabili, o vaxt dövlət müşaviri işləyən Qabil Hüseynliylə də səhv salıb imza vermişdilər. "Qabildir - öz yerazımızdır" yazısında bu barədə ətraflı bəhs etmişəm.

Qısa müddət ərzində 2200 imza topladım. 300 imzanı isə atamın həmpiyalə dostları topladı. Hətta şair Balasadığı Basin küçəsində həyət evlərində imza toplayarkən, az qalmışdılar ki, döysünlər. Vedrəylə üstünə su da atmışdılar. Çox ağır zəmanəydi. Qaçqın problemi, müharibə. Camaat seçki hayında deyildi. Onu da qeyd edim ki, namizəd olmaq istəyənlər arasında tanınmışlardan Mir Şahin və general Timoşenko da vardı. Hətta Qabil adını eşidən Timoşenkonun kürkünə birə də düşmüşdü. Nəhayət, imza bülletenlərini dairəyə təhvil verdik. Müəyyən bir vaxtdan sonra evə zəng gəldi. Atamı dairəyə çağırdılar. Dairə sədrinin otağına ikimiz girdik. Və... "Qabil müəllim, imzaların çoxu ekspertlər tərəfindən etibarsız sayılıb. Ona görə də namizədliyiniz qeydə alınmır". Atam mənə baxdı. Başımla işarə etdim ki, "yalan deyir. Özüm bir-bir yığmışam". Heç nə danışmadı. Bir-iki dəqiqə susdu. Sükutu dairə sədri pozdu:

- Qabil müəllim, bizim qərarımızdan narazısınızsa,  məhkəməyə müraciət edə bilərsiniz.

Bu sözlər atamı özündən çıxartdı. Ayağa durub, hirslə:

- Alə, indi deyirsən ki, mən Heydər Əliyevi məhkəməyə verim?

Dairədən çıxdıq. Fikirli idi. Amma danışmırdı. Bu seçkilərdən sonra bir çox yazıçı namizədliklərinin qeydə alınmamasından sarsıntı keçirdi. Biri infarkt oldu. Nədinədi ildə bir dəfə yaylaq kimi yada saldığı rayonundan, doğma el-obasından bunun deputat olmasına etiraz ediblər. O biri yazıçı etiraz əlaməti olaraq layiq görüldüyü ordeni geri qaytarmaq fikrinə düşdü. Deyəsən dildə bu addımı atdı da... Atam isə ona "bura bax, sənə orden verəndə öhdəlik götürmüşdülər ki, deputat da olacaqsan" deyə ürək-dirək verirdi. Adını çəkə bilmərəm. Həmin adam hələ sağdır.

Nəticədə Nəsimi rayonundan general Timoşenko seçildi. Atam bunu da sakit qarşıladı. Amma günlərin bir günü, dövlət tədbirlərinin birində "Heydər müəllim, mən ömrümdə bircə dəfə deputat seçil-

deyirdi, mən isə İlham Əliyev. Seçkilərə az qalmış Heydər Əliyevin müraciəti səsləndi və o öz namizədliyini geri götürdü. Xalqımızı İlham Əliyevə səs verməyə çağırdı. Bu dəfə atamdan soruşdum:

- İndi kimə səs verəcəksən?

- İlham Əliyevə.

- Niyə?

- Çünki Heydər Əliyevin oğludur.

## *2005-ci il - Parlament seçkiləri*

2003-cü ildə atam və anam Yasamal rayonundan daimi qeydiyyatdan çıxıb, prezidentin hədiyyə etdiyi, Nəsimi rayonu ərazisində yerləşən evə qeydiyyata düşdülər. 2005-ci il parlament seçkiləri günü səhər tezdən "trevoqa" verdi ki, gedirik səsverməyə. Məntəqə 44 saylı məktəbdə yerləşirdi. Məntəqənin də sədri həmin məktəbin direktoru Səfərəli Səfərəliyev idi. Anam 40 il o məktəbdə işlədiyindən və qızlarım da orada oxuduğuna görə Səfərəli müəllimi çoxdan tanıyırdıq. Düzü bülletendə kimin adının olduğunu bilmirdim. Səfərəli müəllim bizi mehribanlıqla qarşıladı. Atamla anamın şəxsiyyət vəsiqəsini götürüb, məntəqə üzvlərinə verdi. Birdən atam yüksək səslə:

- Səfərəli müəllim, mən Ziyad Səmədzadəyə səs verəcəyəm. Bəyim də, uşaqlar da... Düz edirəm?

- Qabil müəllim, lap əcəb eləyirsən. Ürəyin kimə istəyir, ona da səs ver.

- Yox e... Mən Ziyad Səmədzadəyə səs verəcəyəm. Düz eləyirəm?

- Düz eləyirsən, Qabil müəllim, - deyə Səfərəli müəllim gülərək cavab verdi.  Bülleteni atamla, anama verib qapalı otağa yola saldı.

Atam isə (Məzahir Pənahovun və müşahidəçilərin gözündən iraq) anama "Bəyim, oçki götürməmişəm. Gəl Ziyadın qabağında plyus qoy" dedi. Beləcə seçkimiz başa çatdı. Məntəqədən çıxandan sonra dedim ki, "papa, seçimində yanıldın. Bu dairədən YAP-ın nümayəndəsi, köhnə Əliyevçi Zahid Qaralov deputat seçiləcək. Sən isə mütəllibovçu kimi tanınan Ziyad Səmədzadəyə səs verdin. Səsin uçdu havaya". Atam "dəxli yoxdur. Əcəb elədim ona səs verdim" və  niyə məhz Ziyad Səmədzadəyə səs verməsinin səbəbini açıqladı. Onu demirəm. Sonda deyəcəyəm. Beləcə, atamın həyatında son seçkisi də belə başa çatdı. 2007-ci ildə rəhmətə getdi.

## *Parlament seçkiləri*

2008-ci il, 2013-cü il Prezident seçkilərində iştirak etdim. Amma atamdan sonra ailə başçısı olan mən seçkiyə tək gedirdim. Nə həyat yoldaşıma, seçici yaşına çatan qızlarıma, atam kimi "sabah bir nəfər kimi seçkiyə gedirik" əmri verirdim, nə

Atamdan qalan bir əmr, göstəriş: "Ziyad Səmədzadəyə səs verməlisiniz. Ona görə ki...". Mən bu əmri yerinə yetirirəm.

İndi deyəcəksiniz ki, axı Ziyad Səmədzadə akademikdir, iqtisadçı alimdir. 30 yaşında professor olub. Yəqin ona görə səs vermisən. Düzdür. Amma o sovet vaxtı idi. Görəsən Ziyad müəllim Müstəqil Azərbaycan iqtisadiyyatının hansı qanunlarla işlədiyini bilirmi? Mən bilirəm. O da yəqin bilir. Amma o bunu heç vaxt elmi cəhətdən əsaslandıra bilməz. Lap akademik olsa belə. Çünki elmi əsaslara söykənmir.

İndi deyəcəksiniz ki, axı Ziyad Səmədzadə ziyalıdır.  Yəqin ona görə səs vermisən. Düz deyirsiniz. Amma başa düşmədim Zahid Qaralov çoban idi? O da ziyalıydı. Azərbaycanda o qədər nurlu ziyalı var ki...Hamısına səs versək Milli Məslisdə oturmağa yer çatmaz.

İndi deyəcəksiniz ki, Ziyad Səmədzadə Ali Sovetin sədr müavini olarkən Azərbaycan rəhbərsiz qalmışdı. Faktiki olaraq prezidenti o əvəz edirdi. Və belə təklif olundu ki, zalda oturan İsa Qəmbərlə yanaşı, Naxçıvanda olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin də Milli Məclis sədrliyinə namizədliyi verilsin. Ziyad Səmədzadə də Heydər Əliyevlə telefon rabitəsi yaradıb, onun bu barədə razılığını almaq üçün öz kabinetini deputatlar Eldar İbrahimovla Arif Rəhimzadəyə verdi. Onlar da ha elədilər Heydər Əliyevlə  telefon əlaqəsi yarada bilmədilər. Bunun videosu da var. Mahir, görməmisən? Görmüşəm. Bu video deyildi, əslində Ziyad Səmədzadənin yenidən siyasətə qayıtması, siyasi reablitasiyası idi. Bunu başa düşürəm. Amma bir söz deyim də... "Real Madrid"lə "Barselona" arasında keçirilən futbol oyunlarının birində "Barselona" 4-0 hesabıyla qalib gəlir. Əlbəttə ki, hücumçu Messinin sayəsində. "Real"ın baş məşqçisindən soruşurlar ki, "qapıçınız pis oynadı. Dörd top buraxdı. Dəyişmək fikriniz yoxdur ki?". Nə cavab versə yaxşıdır? Deyir ki, problem qapıçıda deyil, Messidədir.

İndi Ziyad Səmədzadə otağından ha qışqıraydı ki, "Naxçıvan, Naxçıvan, bizi Heydər Əliyevlə calaşdır!". Amma çox gözəl bilirdi ki, problem Milli Məclisdən Naxçıvana uzanan telefon kabelinin içində oturan "cəbhəçi"lərdə idi. Lap çayın qarşısını kəsən, camaatı susuz qoyan nağıllardakı əjdahaya bənzəyirdilər. Amma yenə sağ olsun ki, Ziyad Səmədzadə o vaxt belə canfəşanlıq göstərirdi.

**Yox. Bu da Ziyad Səmədzadəyə səs verməyimin səbəbi deyildi. Bəs səbəb nə idi? Atam onda dedi ki, "Ziyad Səmədzadəyə səs verəcəyik. Ona görə ki, Buzovnalıdır. Öz Bakılımızdır". Bu qədər sadə və orijinal seçim. Qabil başda olmaqla bizim İmamverdiyevlər ailəsinin seçimi - deputat Ziyad Səmədzadə.**

**Mahir QABİLOĞLU**

# UĞURLARIMDA İMZASI OLAN ELÇİN İSGƏNDƏRZADƏ

**Bir yazıçı kimi mən özümü çoximzalı kitaba bənzədərdim. Bu imzaların içində şair-alim, xeyriyyəçi Elçin İsgəndərzadənin xüsusi yeri var. Əgər mən ədəbi aləmdə görünürəmsə, bu uğurun başında Elçin imzası dayanır. O, mənim 15 kitabımı təmənnasız olaraq nəşr edib. Çoxları onun xeyirxahlığından bəhrələnib. Öndə isə rəsam-şair Adil Mirseyid, şəhid-şair Nizami Aydın və Qərib Mehdi yer alır. Mənim xarici ölkələr - Rusiya Federasiyası və Türkiyə tərəfindən ədəbi təltiflənməmdə E.İsgəndərzadənin təşəbbüskarlığı xüsusi rol oynayıb.**



**Qələm adamı olan Elçin Məktəb günündə - sentyabrın 16-da anadan olub. İllərin təkrarlanması indi onu mübarək 60 yaşına çatdırıb. Bu münasibətlə xeyirxahımı təbrik edir, ona bundan sonra da iti qələm, can sağlığı arzulayıram.**

**Şükür ki, Elçin böyük xoşbəxtliyin tamını taddı. Şuşada doğulan, ayrılıq həsrətini yaşayan şair 44 günlük tarixi qələbədən sonra Şuşasına da qovuşdu. Bu vüsal onu yeni yaradıcılıq uğurları qazanmağa ruhlandırdı. Yaradıcılığı Nazim Hikməti xatırladan Elçinin ədəbi məhsulları bir ahənrüba kiim həmişə məni cəzb etmişdir. Bir sıra yazılarımda onun qələminin sehrini çözməyə çalışmışam. Sonradan bu axtarışlar "Elçin - el üçün" kitabımla nəticələnib.**

**Yolun yarısı qət edilib. Xeyirxah şairin xalqına, vətəninə, dövlətinə sevgisi böyük olduğu üçün oxucuları da onu sonsuz bir məhəbbətlə sevirlər. İnanıram ki, Tanrı bu sevgi xatirinə 60-ı daha bir 60-la mükafatlandırsa adına layiq bir iş görmüş olar.**

**Yubiley yaşın mübarək, dostum!**

**Qərib MEHDİ**

## *Alimlər qan xəstəliklərinin müalicəsini tapdılar*

**Los-Ancelesin Kaliforniya Universitetinin alimləri ilk dəfə laboratoriyada qan kök hüceyrələrini yetişdiriblər. Bu nailiyyət qan və immun sisteminin müxtəlif xəstəliklərinin müalicəsi üçün yeni imkanlar açır.**

Adalet.az xəbər verir ki, nəticələr "Nature Biotechnology" jurnalında dərc olunub.

Hematopoetik kök hüceyrələr olaraq da bilinən hematopoietik hüceyrələr müxtəlif növ qan hüceyrələrinə çevrilmə qabiliyyətinə malikdir.



Əvvəllər onlar yalnız sümük iliyindən, göbək qanından və ya periferik qandan əldə edilə bilərdi.

Elm adamları laboratoriyada qan kök hüceyrələrinin yaradılması yollarını tapmağa diqqət yetirirlər. Bu, qan xəstəlikləri olan xəstələrin müalicəsi prosesini xeyli asanlaşdırar.

Alimlər orqanizmdə istənilən hüceyrəyə çevrilə bilən pluripotent kök hüceyrələrdən istifadə ediblər.

CRISPR texnologiyasından istifadə edərək, hematopoetik kök hüceyrələrin inkişafına cavabdeh olan müəyyən genləri aktivləşdiriblər. Nəticədə qırmızı qan hüceyrələri, ağ qan hüceyrələri və trombositlər də daxil olmaqla bütün növ qan hüceyrələrini meydana gətirə bilən hüceyrələri yetişdirmək mümkün olub.

**Bu kəşf leykemiya, limfoma və oraq hüceyrə xəstəliyi kimi xəstəliklərin müalicəsində bir irəliləyiş ola bilər. Hazırda bir çox xəstə sümük iliyi transplantasiyasına ehtiyac duyur, lakin uyğun donor tapmaq çox vaxt problemlidir. Laboratoriyada qan kök hüceyrələrinin yetişdirilməsi donor çatışmazlığı problemini həll edə və müalicəni daha əlçatan edə bilər.**

# Tarix belə misilsiz Zəfəri heç vaxt unutmayacaq

**Uzun illərdən bəri həm doğma Qarabağımızın, həm də yeddi rayonumuzun işğalda qalması xalqımızı, dövlətimizi narahat edirdi. Erməni separatçılarının əllərində saxladıqları torpaqlarımızın sülh yolu ilə azad olunması üçün iyirmi səkkiz il idi ki, ən nüfuzlu beynəlxalq təşkilatların vasitəçiliyi ilə danışıqlar aparılırdı. Hadisələrə humanistcəsinə yanaşan dövlət başçımız qan tökülməsini istəmirdi. Bunun üçün münaqişənin danışıqlar yolu ilə həll olunmasına üstünlük verirdi. Amma Ermənistan müxtəlif bəhanələr gətirərək danışıqlar prosesini getdikcə uzadır, işğal etdiyi əraziləri qaytarmaq istəmirdi. Beynəlxalq təşkilatların irəli sürdüyü sülh təklifləri ilə razılaşmırdı. Danışıqlar prosesinin sanki sonsuzluğa qədər uzatmağa çalışırdı. Buna görə də işğaldakı ərazilərimizin qaytarılması üçün sülhə gətirib çıxaran uğurlu nəticələr əldə olunmurdu. Son zamanlar isə Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını, əbədi olaraq əlində saxlamaq üçün sərsəm-sərsəm təkliflər irəli sürür, reallıqdan uzaq olan bəyanatlar səsləndirir, tez-tez cəbhə xəttindətəxribatlar törədir, vəziyyəti gərginləşdirirdi Azərbaycan Ordusunun zabit və əsgərləri isə separatçıların bütün təxribatlarının qarşısını qətiyyətlə alıb geri oturdurdular.**

2020-ci il sentyabrın 27-də səhər ertədən erməni işğalçıları cəbhənin demək olar ki, bütün istiqamətlərindən mövqelərimiz üzərinə hücuma keçdilər. Azərbaycan Ordusunun hissələri işğalçıların qəfil hücumlarının qarşısını qətiyyətlə aldılar. Ağır itki verən qəsbkarlar geri oturduldu. Bundan sonra düşmən işğalına son qoymaq məqsədilə əks-hücum əməliyyatlarına başlanıldı. Erməni işğalçılarının bu qəfil təxribatı nəticəsində 28 ildən sonra İkinci Qarabağ müharibəsi yenidən alovlandı. İllərdən bəri susan silahlar dilə gəldi, toplar gurladı, atəş səslərindən torpaq da diksindi, daş da.İşğalçıların mövqelərinə od ələndi, səngərlərə güllə və mərmilər yağdırıldı.

Elə ilk dəqiqələrdən ordumuzun hissələri döyüşdə üstünlük qazana-qazana düşmənə sarsıdıcı zərbələr endirdi. İşğalçılar bu dəqiq və sarsıdıcı zərbələrin qarşısında tab gətirməyərək iyirmi səkkiz ildən bəri əllərində saxladıqları, möhkəmləndirdikləri mövqelərdən geri çəkilmək məcburiyyətində qaldılar. Azərbaycan əsgərinin yüksək hazırlığı, ordunun gücü, qüdrəti elə ilk döyüşlərdən aydın göründü.

Şanlı ordumuzun zabit və əsgərləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurlu döyüşləri ilə üstünlüyü ələ alaraq qəsbkarları addım-addım torpaqlarımızdan qovmağa başladılar. Ermənilərin illərdən bəri üstündə əsə-əsə qoruduqları, guya keçilməz hesab elədikləri təmas xətti, ""Ohanyan səddi" ordumuz tərəfindən qısa müddət ərzində yarıldı. Belə şad xəbərlərdən, belə sevindirici uğurlardan kədərli çöhrələrə Qələbə sevinci ələndi. Azərbaycan xalqı müstəqilliyinin təminatçısı olan böyük məhəbbət bəslədiyi ordusundan hər gün qələbə xəbərləri eşidildi. Hər gün əlvərişli yüksəkliklər, kənd və şəhərlər düşməndən azad olunurdu. Əvvəlki zamanlar işğalda qalmış torpaqlarımıza qayıtmağı biz yalnız xəyal edərdik. Amma artıq xəyalların gerçəkləşdiyi vaxt gəlmişdi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri hünər və qəhrəmanlığı ilə döyüş meydanlarında uğur qazanır, xəyalları gerçəkləşdirirdi. Bir-birinin ardınca işğaldan azad edilmiş şəhər və qəsəbələrində üçrəngli bayraqlarımız dalğalanırdı.

Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və cəsarətlə vuruşurdular. Mövqelərində möhkəmlənmiş düşmən geri çəkilmək üçün ciddi müqavimət göstərirdi. Amma nə qədər müqavimət göstərsə də, ordu hissələrinin qarşısında dayana bilmirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti döyüşlər zamanı misilsiz qəhrəmanlıqlar göstərirdi. 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımız da məhz onların cəsarəti və hünəri sayəsində azad olunurdu. Zəfər bayraqları işğaldan azad olunmuş kənd və qəsəbələrdə hərbçilərimizin igidliyinin təntənəsi olaraq dalğalanırdı. Prezident İlham Əliyev 2020-ci il oktyabrın 26-da xalqa növbəti müraciətində hərbçilərimizin qəhrəmanlığını yüksək qiymətləndirərək demişdir: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik".



Doğma Qarabağın, musiqi beşiyimiz olan Şuşanın erməni işğalından azad edilməsi və 44 günlük Vətən müharibəsinin Zəfərlə başa çatması hamımızın qəlbində böyük qürur hissləri oyatmışdı. Ulu Öndər Heydər Əliyevin vəsiyyətini layiqincə yerinə yetirən Müzəffər Ali Baş Komandan Şuşanın erməni işğalından azad olunması müjdəsini müqəddəs məkanımız olan Şəhidlər xiyabanından xalqa növbəti müraciətində çatdırdı. Prezident İlham Əliyevin daim zamanlarla səsləşən

dediyi dəyərli sözlər illərin həsrətinə son qoyulduğundan xəbər verdi, Zəfər tariximizə qələbə möhürü vurdu. Dövlət başçımız 8 noyabr 2020-ci ildə Şəhidlər xiyabanından xalqa müraciətində demişdir: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun "dünya azərbaycanlıları!"

Təbiidir ki, qələbə asanlıqla qazanılmadı. Zəfər Azərbaycan dövlətinin və Azərbaycan xalqının gücü, qüdrəti və sarsılmaz birliyi ilə əldə olundu. Müstəqillik əldə etdikdən sonra getdikcə Azərbaycanın iqtisadi gücü və və siyasi nüfuzu dünyada artdı. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə danışarkən demişdir: "Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü və müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi".

44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan Silahlı Qüvvələrinin gücünü, qüdrətini, qəhrəmanlığını və xalqımızın sarsılmaz birliyini dünyaya göstərdi. İkinci Qarabağ müharibəsi başlayan kimi xalqımız bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdi. Bu birliyin, bu gücün qarşısında dayana bilməyən düşmən ağır itkilər verərək geri qaçmağa məcbur oldu. Tariximizə qızıl hərflərlə yazılmış qırx dörd günün hər günü əbədi olaraq yaddaşımıza yazıldı, qısa müddət ərzində dillərdə dastan oldu.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının şanlı tarixidir. Bu şanlı tarixlə bütün gələcək nəsillər öyünəcək. Azərbaycan xalqı, Azərbaycan dövləti 30 ilə yaxın erməni işğalında qalmış ərazilərimizi 44 gün ərzində azad etməklə, iyirmi birinci əsrin tarixinə yeni qəhrəmanlıq səhifələri yazdı. 200 illik tarixində ilk dəfə olaraq xalqımız böyük zəfərin təntənəsini yaşadı, düşmənlərdən işğalda qalmış ərazilərini azad etdi.

Böyük zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsindən, möhtəşəm qələbədən dörd ilə yaxın vaxt keçir. Ötən müddət ərzində dövlətimizin başçısı İlham Əliyev dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfər etmiş, aparılan bərpa və quruculuq işləri ilə yaxından tanış olmuş, müvafiq tapşırıq və göstərişlər vermişdir. Düşmən torpaqlarımızı işğal altında saxladığı müddətdə şəhər və kəndlərimizi darmadağın etmiş, ərazilərə saysız-hesabsız minalar basdırmış, təbiətə ziyan vurmuşdur. İnsan həyatı üçün böyük təhlükə olan minaların və partlamamış döyüş sursatlarının təmizlənməsi üçün çox mühüm işlər görülür. 30 il əvvəl Zəngilan, Füzuli və Laçın rayonlarından köçkün düşmüş insanların bir qrupu doğma ocaqlarına qayıdaraq dövlətin onlar üçün tikdiyi hərtərəfli şəraiti olan evlərdə yaşayırlar. Dövlətimizin başçısı görüş və çıxışlarında dəfələrlə vurğulayıb ki, azad olunan ərazilərimizdə həyatın bərpa olunması, sakinlərinin yurd yerlərinə qayıtması üçün lazım olan hər cür işlər görüləcəkdir.

**Torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda yaşayış evləri ilə yanaşı, bir sıra beynəlxalq əhəmiyyətli layihələr də həyata keçirilir. Artıq Füzuli və Zəngilan beynəlxalq aeroportlarının tikintisi başa çatıb. Laçın rayonundakı beynəlxalq aeroportun tikintisində qızğın işlər gedir. 44 günlük Vətən müharibəsində qazanılan misilsiz Zəfərə, işğaldan azad olunmuş ərazilərdə aparılan möhtəşəm bərpa və quruculuq işlərinə görə Müzəffər Ali Baş Komandana minnətdarıq. Çünki belə misilsiz Zəfərin, belə möhtəşəm quruculuq və bərpa işlərinin sevincini yaşamağı bizə məhz Prezident İlham Əliyev bəxş edib. Tarix belə misilsiz və təntənəli Zəfəri heç vaxt unutmayacaq.**



**Ülkər Veysəlli-Hacıyeva**
**Sənətşünaslıq üzrə Fəlsəfə doktoru, Azərbaycan Rəssamlar İttifaqının üzvü**

# Vurğun insan

**İnsan uşaq ikən yaşadığı duyğular, hisslər, sevinc, bəzən də kədər, qəm sənət adamları, yaradıcılıq üçün düşünürəm daim açıb içinə baxa biləcək sandıqdır. Hətta, rəssamın özü belə dərk etmədən bu amillər onun gələcəyə tuşlanmış əzəmətli sənət əsərinin təhtəlşüurdan süzülərək dünyaya doğuşunun təməlidir.**

Əli Səfərovla , onun yaradıcılığı ilə deyərdim ki, qiyabi olaraq tanışlığım lap çoxdandır. Ancaq buna rağmən məndə elə bir hiss var ki, mən Əməkdar rəssam Əli Səfərovu o qədər yaxından tanıyır, onun yaradıcılığına yaxından o qədər bələdəm ki, əsərlərini yaradarkən yaşadığı duyğu və hətta düşüncələrini o qədər səlis duyuram ki... Bütün bunları mənə pıçıldayan, bəzən də hayqıran Əli Səfərovun rövnəq, axar çay sularını xatırladan, şəlalə tək şırıldayan, yağış damcıları tək taqqıldayan, torpaq tək mışıldayan, dağ tək bağıran, yaz küləyitək vıyıldayan tablo və əsərləridir!

Mən Əli Səfərovun özü ilə ünsiyyətdə olmamışdan öncə onun rəsm əsərləri, yaradıcılıqrisi ilə artıq köhnə dost idim desəm, yanılmaram. Çünki, palitra ustasının yaradıcılığı, əsərləri onun özü haqqında o qədər sanballı mənbədir ki, rəssamın əsərlərini tanıyıb, sonra onun özünü tanıdım. Doğrudan da Əli müəllimin əsərləri, yaradıcılığı məni aldatmamışdı - Əli Səfərov böyük rəssam, ziyalı, erudit, vətən oğlu, ana yurduna aşiq vətənpərvər, vurğun insandır.

Fırça ustasının "Naxçıvanda qış", "İlandağ" (Haçadağ), "Xan Araz", "Şərur yolu", "Ayasofya", "Xanəgah", "Gülüstan türbəsi", "Yallı", "Nağıllar aləmi", "Çoban iti ilə", "Qız alma ilə", "Qaçqınlar", "Füzuli", "Şəhriyar", "Çayçı", "Milli dəyərlərimiz", "Mirzə Cəlil", "İlham və Fərizə" adlı əsərlərini seyr etdikcə rəssamın yurduna, elinə-obasına, xalqına nə qədər vurğun olduğu aşkara çıxır. Və beləcə qayıdaq başlanğıca... Əli Səfərovun tablolarındakı rənglərin yallısı, rövnəqliliyinin sirri onun qoynunda böyüdüyü öz dövrünün maarifçi şəxsiyyəti olmuş Əli bəyin (Ə. Səfərov babasının adının layiqli daşıyıcısıdır) öz əllərilə əkdiyi, bəslədiyi, nazlandırdığı gülüstan həyətdə böyüməsidir. O həyətdə ki, bağın mərkəzində nəhəng tut ağacını əkmişdi. O tut ağacı, tarixin neçə-neçə ağrılı-acılı illərinin, günlərinin şahidi olmuşdur.

Hələ 1905-ci ildə, xain ermənilərin təxribatı zamanı tut ağacının əlçatmaz gövdəsinin içi yanmışdı. Ancaq buna rağmən tut ağacı hələ də yaşayırdı, sahibini, həyətdəki sakinlərini bəhrəsi ilə sevindirir, bəsləyirdi.

Haqqında söhbət açmaq istədiyim fırça ustası Əli Səfərov 1954-cü il Azərbaycanın qədim guşəsi Nəqşi Cahanda dünyaya göz açmışdır. Bu təsadüfi deyildir, çünki Naxçıvan böyük mədəniyyət beşiyi olaraq, istedadlı, maarifpərvər və ruhi mədəniyyətə malik insanların beşiyidir. Əli müəllimin digər istedadlarından biri də mahir fırça ustası olmaqla yanaşı incə qələmə sahib olmasıdır. Yenə deyəcəyəm, bu təsadüfdürmü? - Xeyr! Rəssam jurnalist ailəsində böyümüşdür. Əli müəllimin atası Ələsgər Səfərov təəssüflər olsun haqq dünyasına cavan ikən, 43 yaşında 5 övladını həyat yoldaşı Dilarə Səfərlinin himayəsinə tərk edərək köçmüşdür. Beləcə, qəm, kədər, qüssə, atasızlıq sızıltısı rəssam Əli Səfərovun tablolarına buradan süzülərək məskən salmışdır. Əli müəllimin anası 20-ci əsrin ikinci yarısında Azərbaycan ədəbiyyatı və şeirinin unudulmaz nümayəndəsi İslam Səfərlinin bacısıdır. Gələcək rəssamın ailəs Əli hələ məktəbli ikən səfalı həyət evini, o qoca tut ağacı bitən baba yurdunu bina evi ilə əvəzləməli olurlar. Bəlkə də bu təsadüf yox, zərurət idi. Bu zərurət isə hələ uşaq Əlinin gələcəkdə rəssam kimi yetişməyində xidməti olmuş rəssam Azər Əsgərovun onların qonşusu olması idi. "Məktəblilər evi"ndə o rəsm dərnəyi aparırdı. Əlidə rəssam ruhunu duyub onu dərnəyə dəvət edir. İlk dəfə rəsm dərslərinə atılan addım gələcək yaradıcı həyat yolunun astanası oldu. Daha sonra Əli Səfərov elə bu dərnəkdəcə Fərman Əsgərovdan boyakarlığın incəliklərinə yiyələnir. Rəssamlığa aparan yolda növbəti addım gələcək rəngkarın sulu boya xırdalıqlarını öyrənmək üçün Əməkdar rəssam Şamil Mustafayevin emalatxanasına getməsi olur.



Əli Səfərov qayğısız yeniyetməlik çağında qəmli bir səhər həyatında ilk dəfə kədərlə üzüzə gəlir, atasını əbədi olaraq itirir. Əli müəllimin həyatda növbəti yaşadığı hüzn əmisi - Natiq Səfərovun vəfatı olur. Natiq Səfərov dövrünün savadlı ziyalısı kimi dünya mütaliəsindən peşəkar tərcümələr edərək Azərbaycan ədəbiyyatında tanınmışdır.Yazıçı-tərcüməçi Natiq Səfərovun özü demişkən: "Mən qədim türklərin ən sonuncusuyam"! Bu kəlmənin o illər üçün iti qılıc qədər təhlükəli olduğunu yəqin ki, zənn edirsiniz.

Artıq müasir elm tərəfindən əminliklə sübut olunmuşdur ki, insanda olan ən xırda xüsusiyyətlərinin belə kökü şəcərəyə dirənir. Əgər özümüzü tanımaq istəyirikslə hökmən əsl-nəcabətimizi öyrənməliyik. Əli müəllimin alicənablığının, mədəniyyətinin kökündə də elə bu durur. Xanım Səfərova Əli müəllimin ata nənəsi idi. Deyilənə görə çox mərd və insan xanım olub. Onun atası pristav yanında tərcüməçi olmuş, sonradan ona bəylik titulu verilmişdir. Dövrünün ziyalısı olmuşdur. Rəssam Əli Səfərov haqda yazdığım məqalədə rəngkarın şəcərəsinə nəzər atmaqda bir məqsədim var. Əli Səfərovun vurğunu olduğum rəng aləmindəki nəciblik, gözəllik və məftunluğun kökünün haradan su içdiyini, haradan qidalandığını açmaqdır.

Beləcə rəssam Əli müəllimin yaradıcılığına aparan yolun yolçusu olaq...

Əli Səfərov məktəbi bitirdikdən sonra sənədlərini rəssamlıq məktəbinə vermək istəsə də anası Dilarə xanım buna razı olmur. Bu da bir qismət idi ki, Əli ilk əmək fəaliyyətinə Naxçıvanda dərc olunan "Şərq qapısı" qəzetində başlayır. Babasının vəsitəçiliyilə bu işə düzəlməsi əslində bir qismət payı olur. Əli Səfərovun ağ kağız üzərinə fikir və düşüncələrini, müşahidələrini gözəl köçürmək qabiliyyəti buradan başlayır. Ancaq insan ruhən rəssam doğulubsa istər 15, istər 50 ... fərq etməz, axırəzəl o, rənglər məbədinə daxil olacaq. 1974-cü ildə gənc Əli haqqında bir az öncə bəhs eydiyim dayısı şair-dramaturq İslam Səfərlinin xahişi ilə anasının razılığını aldıqdan sonra Əzim Əzimzadə adına Rəssamlıq məktəbinin "Bədii tərtibat" fakültəsinə daxil olur. Əli Səfərov rəssamlıq məktəbində Əməkdar incəsənət xadimi Qüdrət Qurbanov (hazırda Moskva şəhərində yaşayır), İsa Məmmədov, Rakif İsmayılov, Adil Talıbov, Feyruz Quliyev, Ofeliya Xankişiyeva, Nailə Kazımova, Soltan Məmmədov, İradə Quliyeva və başqa rəssamlarla birgə təhsil almışdır. Onun müəllimləri Azərbaycan rəssamlıq məktəbinə töhfələr vermiş rəssamlarımız Rəşid Heydərzadə, Arif Ələsgərov olmuşlar. Rəssam Əli müəllimin diplom işi o zaman müəllimləri tərəfindən alqışla qarşılanmışdı. Bakıdakı "Ovçular evi"nin eksteryeri və ətraf sahəsinin tərtibatının eskizləri ilk peşəkar addımlardan oldu. Əli Səfərov diplom işi olaraq işlədiyi eskizlər yüksək qiymətləndirilərək müəllimi Arif Ələsgərovun "...rəssamlıq təhsilini davam etdirmək üçün səni təyinatla Xarkova (Ukraynanın şimal şərqində şəhər) göndəririk" - xəbərinə fikirli yanaşdı. Bir çox gənc rəssamın eşitmək arzusunda olduğu belə bir təklifə Əli Səfərovun tərəddün etməyinin bircə səbəbi vardı; anası, ailəsi...

Rəssamlıq məktəbini bitirdikdən sonra Əli Səfərovun təyinatını doğma yurdu Naxçıvanda ictimai iaşə idarəsinə tərtibatçı-rəssam kimi verilir. Daha sonralar rəssam şüşə qablar, Naxçıvan alüminium-qablar zavodunda çalışmışdır. Əli müəllim yaradıcılıq fəaliyyətini Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə başlayır. O, burada icraçı-rəssam, tərtibatçı rəssam kimi çalışır.

Teatr sözün həqiqi mənasında kainatdır, məbəddir. Əli Səfərov teatrda tərtibatçı-rəssam kimi çalışdığı ilk illərdə teatr rəssamlığının səhnə tərtibatının, dekorasiyaların hazırlanması və s. heç bir nəzəri kitabda yazılmayan incəliklərini, sirlərini Naxçıvan və eləcə də Azərbaycan təsviri sənətinin tanınmış simaları rəssam Məmməd Qasımov və Yuran Məmmədovdan öyrənir.

Bu illər dünya incəsənəti fonunda Azərbaycan təsviri sənəti heç də geri qalmırdı. Xüsusilə də teatr sahəsində səhnə tərtibatı sahəsində Azərbaycan teatr rəssamlığı və həmçinin teatr sənəti bahar çağını yaşayırdı. Əli müəllim uzun illər Naxçıvan teatrında icraçı-rəssam, quruluşçu-rəssam kimi Naxçıvan Dövlət Musiqili Dram Teatrında onlarla teatr tamaşasına bədii tərtibat vermişdir.

Onların sırasında Turan Oflazoğlunun "Dəli İbrahim", Georgi Xuqayevin "Mənim qaynanam", Aleksandr Puşkinin "Qaraçılar", Cəlil Məmmədquluzadənin "Çay dəstgahı", Aleksey Dudarevin "Astana", Ramiq Muxtarın "Şəhərli kürəkən", Teymur Elçinin "Osvensim", Veyzerbonun (V.Hüqonun əsərləri əsasında) "Gülən adam", SoltanMəcid Qənizadənin "Məzhəkə axşamı", Məmməd Arazın "Azərbaycan dünyam mənim", Hüseyn Cavidin "Uçurum", Əkrəm Əylislinin "Bir cüt bədmüşk ağacı", Ramiz Rövşənin "Dərs", Anton Çexovun "Üç zarafat", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" əsərlərinə bədii-təsviri quruluş vermişdir. Teatr aləmində rəssam səhnələşdirilmiş tamaşanın anşlaqla qarşılanmasında çox əhəmiyyətli və mühüm vəzifə daşıyıcısıdır. Siz bir anlıq təsəvvürünüzdə səhnə pərdələri açılarkən ilk gördüyünüz, izləyəcəyiniz tamaşa haqda sizə məlumat verə biləcək başlıca mənbənin nə olduğunu canlandırın. Əgər K.C.Stanislavskinin təbirincə teatr asılqandan başlayırsa, deyərdim ki, tamaşa da rəssamın quruluş verdiyi bədii tərtibatdan başlayır. Əli Səfərov tamaşalara verdiyi plastik tərtibatı əsərin müəllifi, tamaşanın rejissoru, bəstəkarı ilə ahəng, harmoniya yaradaraq professionallıqla yanaşı kollektiv fəaliyyətin ilahi inikasıdır, xüsusən də bu rejissor, bəstəkar, dramaturq, aktyor arasında təmasdır.

Ümumiyyətlə teatr rəssamlığı anlayışında məni maraqlandıran teatr rəssamının sərhədsiz görmə, duyma, anlama, düşünmək xüsusiyyətidir, yəni teatr rəssamının təhtəlşüurunun dünyəviliyidir.

Məhz Əli Səfərovun yaradıcılığının daha bir sərhədsizliyi də rəssamın xəzinəsində Naxçıvan Dövlət Kukla teatrında səhnə tərtibatı verdiyi tamaşalardır. Onların sırasında T.Ağayevin "Cırtdanın kələyi", Çingiz Ələsgərovun "İbrət dərsi", Cəlil Məmmədquluzadənin "Çay dəstgahı", Ələkbər Qasımovun "İnanmayaq tülkülərə" tamaşaları sadalamaq olar.

Çalışdığı Babək rayon xalq teatrında "Ezop", Bəxtiyar Vahabzadənin "Yollara iz düşür", Cəfər Cabbarlının "Solğun çiçəklər", Hüseyn Cavidin "Ana", Süleyman Rüstəmin "Durna", Nəcəfbəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", İlyas Əfəndiyevin "Unuda bilmirəm" Əli müəllimin yaradıcılıq yoluna daxildir.

Əli müəllim, Naxçıvan teatrlarında hansı rəssamlarla çalışmış, teatr rəssamlığının incəliklərinə, sirrlərinə və peşəkarlığına necə yiyələnmiş, daha hansı sənət fədailəri ilə yaradıcılıq dünyasında addımlamısınız? - sualıma çox geniş məlumat verərək teatr rəssamlığından bəhs etmişdir: "Mən Naxçıvan teatrında 1983/1987-ci illərdə işləmişəm. Həmin vaxtlar Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi Məmməd Qasımov teatrın baş rəssamı idi. Teatrda çalışdığı illərdə 105 tamaçanın səhnə və geyim tərtibatını vermişdir. O illərdə Yuran Məmmədov teatrda rəssam işləyirdi.

**Təəssüflər olsun ki, 1984-cü ildə onu itirdik, vəfat etdi. 1987-ci ildə Naxçıvan teatrının 100 illiyi oldu. Məndən sonra teatrda Xalq rəssamı Hüseynqulu Əliyev, Əbülfəz Axundov işləmiş, hal-hazırda isə Naxçıvanın Əməkdar rəssamı Səyyad Bayramov çalışır.**



*Əntiqə Kərimzadə*

# Həyat gözlərində əlvan rəngdə idi

***(Məmməd Dəmirçioğlunun əziz xatirəsinə )***

***Külək yaman əsir   Bu dəfə qərbdən əsir   Bəlkə də qərbdən yox, külək sözdən fırçaya doğru əsir. Kiminin gözündəki rəngi üşüdür, kiminin də içindəki xatirə dolu misraları   Hər əsən küləkdə bir tablo şeir gəlir İncəyə. Hələ molbertin fırçadan üz döndərməyi varmış   Bu dönüşün heç fərqinə varmadıq. Hər payız gəlişini pəncərələrdən bildirər. Məmməd Dəmirçioğlu sözə və molbertə hopduğu kimi payız da pəncərələrə hopar. Həyat onun gözlərində əlvan rəngdə idi. Elə ürəyi də rəsmləri kimi isti rəngə boyanmışdı. Payız yarpaqları kimi kövrəlmək ona doğma hislər idi. Özü deyərdi ki, gülmək çox çətin işdir. Çətinliyin səbəbin soruşanda isə belə deyərdi; -" gərək elə güləsən ki, kədərə acıq verəsən. Bu, varsa nə xoşbəxt sənə, dərdiş" Nə yazıq ki, Dəmirçioğlu bu dəfə kədərə acıq verə- verə gülə bilmədi. Nə özü güldü, nə sözü , nə də ki gözləri rəsm güdən, ürəyi söz istəyən insanlar***

***O gün İncəyə getməmişdim. Elə bil təbiətin rəngi solub, sözü quruyub İncənin. Buludlar çiçəklərin üstünə sərilib ki, ağılar deyiləndə çiçəklərin ağladığını görən olmasın. Birdəki görən olsa nə fayda   O nəmləri silməyə nə söz var idi, nə də bir parça rəsm. Hər ikisi də Məmməd Dəmirçioğlu ilə dəfn olunmuşdu. Bəli, ruhumuza dəfn etmişdik. Hər kəsdən kənarda bir ozan gördüm. El dili ilə desək, hər kəsə qaynayıb-qarışmırdı. Adam gözlərindən şairə, üst-başından isə rəssama oxşayırdı (təbii ki, nə demək istədiyimi anladınız).***

***Axşamüstü idi, hər kəs öz komasına çəkilmişdi. Mənim isə diqqətim gördüyüm iki dünyalı adamda idi. Onu sezmək mənə nəyisə öyrədirdi. Bir soruşun, nəyi?- Heç özümün də içimdə özümə izah edə bilmədiyim bir sızıltını, bir təlatümü, bir darıxmağı öyrədirdi   O darıxmaq ki, fırçanın molbertdən ötrü darıxdığı an idi. Hə, deyəsən özüm də söhbətimdən yayınıram. Qayıdım qocanı sezməyimə. Hamının diqqəti ondan çəkiləndən sonra özünü İncədəki yarpaqları tökülmüş, beli büküşmüş çınarın altına yetirdi. Başladı "ney-ney" deyib mizrabını simə vurmağa nalə ilə, qəhər ilə, nisgil ilə   Elə bil ozan da Dəmirçioğlunun yoxluğundan nisgilli idi. Elə nisgilli idi ki, həmin nisgili heç dediyi türkülərə( nəğmələrə) də bükə bilmirdi. Amma ürəyinə yaman bükmüşdü o nisgili. Qaranlıq başımızın üstünü haqlamışdı. Yaxınlaşıb nədən belə dərdli oxuyursan, dedim. Guya onu anlamıdım. Mənə elə baxdı ki, elə bil Dəmirçioğlunun şeirləri məni danladı (həmişə özü məni danladığı kimi). Üzümə məzlum-məzlum baxıb mənə cavab verdi, söyləyəcəyim şeir sənə verəcəyim cavabların ən doğrusudur ,-dedi.***

***"Bədbəxtlik çoxaldıqca, çal-çağır da çoxalır. Deyəsən gülüb-oynamaq zamanı gəldi", -deyib oxumağa başladı***

***İnanmıram əcəl ilə,***
***Ölmək dünyanın sonudu.***
***Birdən-birə havalanıb,***
***Gülmək dünyanın sonudur..***

***Hansı ki bu kiçik nəğməni Məmməd Dəmirçioğlu ölmündən bir gün əvvəl oxumuşdu. Bunu eşidəcək İncə Dərəsi dağ olub özünü sinəmə çəkdi. Heç bəlkə də Dəmirçioğlu sinəsində belə dağ gəzdirmirdi . Dəmirçioğlu bizə fırçası və sözü boyda dərd verib getdi.***

***Həmişə deyirdi ki, bütün analar eyni cür ağlayır. Deyirdi ölümdən qorxuram. Elə bilirdim ki, bu qorxu hamıdakı kimi bəşəri qorxudur. Sonra izah edirdi. Deyirdi ki, analar kimi övladını ürəklə ağlayan ikinci bir bəşər övladı ola bilməz. Məni öləndə məni kim ağlayacaq? Axı anam yoxdu deyib, bir az da uşaqlaşıb kövrəlirdi. Biraz gözlərini əllərinin içinə zilləyib sonra sözünə davam edirdi. Məni ən çox nəğmələrə hopan və dillərdə gəzən şeirlərim ağlaycaq deyirdi.***

***Nə qədər söhbətimizdə mövzunu dəyişmək istəsəm də, o, sözümü kəsmə deyib, davam edirdi. Bu minvalla hər görüşümüzdə onunla qəmli notlara köklənib sağollaşırdım. Son zamanlar isə əksinə, heç vaxt ölümdən danışmazdı. Həmişə dünyanın faniliyinə boyun əy, amma üzülmə, kədərlənmə deyirdi. Hələ gedişlərdən danışanda üzümü onun şeirləri ilə örtmək istəyirdim ki, sızladığımı görməsin. Bəzən gördüklərini görməzdən gəlirdi. Amma rəsmlərinə köçürüb, misralarına calayırdı. Deyirdi ki, vaxtsız heç yarpaq da saplağından qopmaz. Mən də əlbəttə ki, onun sözünü təsdiqləyirdim. Ehh.. dünyadan xəbərsizimişəm. Bir vaxtlar təsdiqlədiyim sözünü üsyankarcasına inkar etməyə başladım.***

***Onun xatirəsini anmaq üçün onu ancaq SÖZlə yad etməliydim.***

***Bu şeir vaxtsız yazıldı və sızıltı ilə oxunur. Axı bu şeirin yazılmağı və deyilməyi üçün hələ illər var idi.***

***Sənə bir söz deyəcəm,***
***Ölüm dünyadan böyük.***
***Ağ misraya bükdüyün,***
***Zülüm dünyadan böyük.***
***Sözü rəngə caladın,***
***Bir tablo şeir yazdın.***
***Silinməz qara rəngi,***
***Ömür tablona cızdın.***

## "YAŞAT" Fondunun Ankarada reallaşdırdığı layihə başa çatıb

**"YAŞAT" Fondunun, "Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri" İctimai Birliyinin təşkilatçılığı, "Azərbaycan Hava Yolları" QSC-nin tərəfdaşlığı ilə gerçəkləşən şəhid ailə üzvlərinin Ankara səfəri başa çatıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən Adalet.az-a verilən məlumata görə, 30 Avqust - Zəfər Bayramı ərəfəsində və "Tək millət, tək ürək" şüarı ilə reallaşdırılan layihə çərçivəsində Cebeci Hərbi Şəhidliyi və Hacı Bayram Vəli məscidi ziyarət olunub.

İştirakçılar Türkiyə Respublikasının banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət ediblər. Anıtqəbir məqbərəsi inşa olunana kimi Atatürkün nəşinin qorunduğu Ankara Etnoqrafiya Muzeyi də ziyarət olunub.

Ekskursiya çərçivəsində Batıkənd rayonu və Ankaranın Heydər Əliyev parkı ziyarət olunub.

Qonaqlar TÜİB-in Ankara ofisinə baş çəkib, ardınca rəsmi şam yeməyinə qatılıblar. Şəhid ailələri ilə görüşdə Ədalət və İnkişaf Partiyasının sədr müavini Mustafa Şen, əmək və sosial müdafiə nazirinin müavini Ahmet Aydın, kənd təsərrüfatı və meşə nazirinin müavini Abubekir Gizligider, Türkiyə Respublikasının ombudsmanı Şeref Malkoç da yer alıblar.

Layihə iştirakçıları səfər çərçivəsində "Türkiyə Müharibə Əlilləri, Şəhid Dul Qadınları və Yetimlər Dərnəyi" və "Türkiyə Döyüş Veteranları Dərnəyi"nin sədri və nümayəndələri ilə də görüşüblər.

Layihə Azərbaycan-Türkiyə sahəvi əməkdaşlığının sistemləşdirilməsi və dərinləşdirilməsinə dair fəaliyyət istiqamətlərinə, eləcə də Azərbaycan-Türkiyə əməkdaşlığına dair qəbul edilmiş Fəaliyyət Planına əsasən icra olunub.

Azərbaycan ilə Türkiyə arasında bütün sahələr üzrə əməkdaşlığın, dostluğun və qardaşlığın bariz nümunəsi kimi belə layihələrin "YAŞAT" Fondu tərəfindən davamlı həyata keçirilməsi nəzərdə tutulur. Layihənin media dəstəkçisi ASAN TV və ASAN Radiodur.

## BVF Rusiyaya missiya göndərir

**Beynəlxalq Valyuta Fondu (BVF) 2022-ci ilin fevralından bəri ilk dəfə Rusiyaya rəsmi missiya göndərəcək. Bu barədə "Röyters" məlumat yayıb.**

"Beynəlxalq Valyuta Fondunun (BVF) Rusiya ilə bağlı missiyası sentyabrın 16-da onlayn rejimdə işə başlayacaq. Nümayəndə heyətinin Moskvaya səfəri gözlənilir və burada Rusiya rəsmiləri ilə görüşlər keçiriləcək. Qrupa argentinalı Jak Minyan rəhbərlik edəcək", - məlumatda qeyd olunub.

**Zakir Məmməd**

# Qarabağdan biz də yazmışıq...



**O yazır: Ayaz Arabaçı.**

**Şeir sənəti ona görə yaşayır ki, onu yaradanların dili, istedadı, ifadə imkanları müxtəlifdir. Bu müxtəlifliyi doğuran səbəblər ədəbiyyatın, poeziyanın ömrünü şərtləndirir, Füzuli demişkən, bədii sözü həmişə diri saxlayır. Bu üzdən, dünyaya - şeirə Sabir gəlir, Cavid, Puşkin, Nazim Hikmət gəlir, ədəbiyyat tərəqqi edir, yeni üslub və yazı metodikasına həssas ədəbi sürəc formalaşır. Həyatın nəbzini yoxlamağa, şüura nəzarət etməyə, dünyanı "ovcunun içində" görməyə, gözdən keçirməyə və "acların" qarnını doyurmağa yeni siyasi, ekonomik proqramların işlənib hazırlanması üzrə uzmanların görə biləcəyi işləri sosial platformada ədəbiyyatın iştirakı ilə həyata keçirmək keçmişin təcrübəsi olaraq bu gün də aktualdır. Şüura elmlə birlikdə sənətə aid olan bilgilər əlavə edilə gərək ki, toplum "cızığından çıxmasın". Ədəbi düşüncə və problemə poetik yanaşma siyasi-iqtisadi nəzarətin özünə nəzarəti həyata keçirmək üçün cəmiyyətə həmişə lazımdır. Bir şərtlə ki, sözümün əvvəlində yazdığım kimi, bu işi istedadlı adamlar görməlidirlər. Şair Ayaz Arabaçı demişkən:**

***"Hər uçuq divara pəncərə salma,***
***Ovunu şir kimi pəncələ, salma,***
***Başını boş yerə cəncələ salma,***
***Adamın dili var, dilin adamı".***

Yəni dil dediyimiz nəsnə adamladır, ya adam deyilən şey dillədir. Burada "dil" də, "adam" da çoxmənalı anlayış kimi və konkret olaraq üslub, sənətkarlıq problemi kimi oxuna, qəbul edilə bilər. Elə Ayaz Arabaçı da konseptual bir dilin, estetikanın adamlarından biri kimi, bu söhbətimizin mövzusu ola gərək. Ayaz bəy, necə ki bu məqalənin giriş hissəsində vurğuladım, üzərinə düşənləri namusla yerinə yetirən sənət adamıdır. Ayrı cür desək, dilin adamıdır. Bu adamın dili var deyə cəsarəti də var. Cəsarəti var deyə qələmi var. Yazarın seçilən, heç kəsə bənzəməyən dili həm də onun cəsarətidir. Mən cəsarət deyərkən, M.Arazın bir sözünü xatırlatmaq istəyirəm: "Anamdan, bacımdan gizlətdiyimi Kağızdan, qələmdən gizlətməmişəm". Professor Yaşar Qarayevin təbirincə desək, "cəsarət sərvətdir". Ayaz Arabaçının poeziyası heç zaman tükənməyən sərvətimizdir. O, ictimai poeziyanın miqyasını genişləndirib, hecada satirik təfəkkürün səviyyəsini yüksəldib. A.Arabaçının "2?2=" şeiri ən gözəl vətən şeiridir və "Əhsən bizə! Həm tirzəniz, həm hədəfiz biz!!! Öz qövmümüzün başına əngəlkələfiz biz!" misralarının müəllifi böyük M.Ə.Sabirin "Fəxriyyə"si ilə eyni siyasi-poetik çəkiyə malikdir.

***"Arxivində qalaq-qalaq paxırlar,***
***Bulaqların hansı səmtə axırlar,***
***Sənə sağmal inək kimi baxırlar,***
***Bax bu adım Ayaz haqqı, ay vətən".***

Ayaz bəyin şeiriyyətinin dadlılığı-duzluluğu onun qələminin ümumxalq dilinin genişliyindən calaq olmağıdır. Onun hər kəlməsi necə deyərlər, iti selbə tutan kimi tutur. Onun topluma mesajları sızıltılı, ah-uflu deyil, ağayanadır. Onun üslubunda daxili kübarlıq, təmkin və ləyaqət kök salıbdır. Onun ironiyasında nifrət hissi yox, şəfa diləyi var. Olaya ümumi yanaşmaqla xırda duyğudan, qrup marağından uzaq qalmaq mümkündür. Bizim milli ədəbiyyatda tək-tək adamlardan qisas almaq üçün mətninin bir neçə abzasını, bəzən daha çox vaxtını bu işə sərf edən yazıçılarla rastlaşmaq olur. Bu baxımdan, Ayaz Arabaçı vaxtın fövqündə yer alır, gələcəyin, bəşəri dialoqun, tarixi gerçəkliyin şairi olmağı bacarır. Adlar, şöhrətlər belə şairlərin dizindən aşağıdr. Bir şeirində o yazır:

***"Allah imkan versə, yaxşı tərəfdən***
***Bu il mən olacam ilin adamı".***

Bu misraların yazılmasından xeyli vaxt keçsə də, ədəbi prosesi körükləmək üçün, əslində, təltif kimi düşünülən "ilin adamı" olmağa, fikrimcə, yenə Ayaz Arabaçı layiqdir. Hərçənd misal çəkdiyim nümunədə fikrin alt qatındakı çoxmənalılıq da diqqətdən yayınmır. Çünki indi iki misrasını yazdığım həmin şeirdə şair ədəbi aləmdə vurnuxanların, şöhrətə uyanların, özünü "zil" sanıb "bəmdə zığıldayanlar"ın halı ilə də ilgilənir. Bu illər ərzində ölkədə böyük olaylar baş verib, Şuşa düşmən işğalından azad edilib, qırx dörd günlük hərb zamanı ədəbiyyatımız öz "cəbbəxanası" ilə böyük ehtiyatlara malik olduğunu göstərib. İgidin yaraşığı olan həmin ehtiyatı ikinci Qarabağ savaşında, o ərəfədə Lələtəpə uğrundakı döyüşlərdə sərf edən ən birinci şairimiz Ayaz Arabaçı olubdur. Bu qanlı, şanlı döyüşlərdən xeyli əvvəl Ayaz Arabaçı yazırdı:

***"Şair gərək şərəf kimi baxsın həyata,***
***Qılınc olsun, nizə olsun qələm əlində.***
***Şair gərək tamam dönsün mənəviyyata,***
***Həm işində, həm sözündə, həm əməlində".***

Azərbaycanın ərazisini işğaldan azad etdiyimiz həmin döyüşlərin iştirakçısı olmaq üçün şairin hər hansı mücadiləyə, mübarizəyə ta əvvəldən hazır olması lazımdır. Bu misraların mahiyyətində sənət adamının ən vacib göstəriciləri əks olunubdur. Ayaz Arabaçının yazdıqları hər zaman ona görə yeni səslənir ki, onun qələminin məqsədlərində şərəf, borc məsələləri başda gəlir. Bax buna görə A.Arabaçı kimi şairlərin qələmi üçün xalq, toplum kamerton rolunu oynayır. Zatən keçmişdə də, indi də xalqı, oxucunu ayaqda saxlayan, ona ruh və güvənc gətirən xalqın "halına mizrabzən olan" ədəbiyyatdır. Yoxsa Vətən müharibəsi zamanı aşağdakı misralara ehtiyac duymazdıq:

***"Burnu ovulubdu ermənilərin,***
***Qoy yazsın bunu da"Təbəri", Vətən.***
***Torpağa can verən yağış kimidi,***
***Bu günkü qələbə xəbəri, Vətən".***

Burada böyük sənətə xas ilhamla ölkənin, dövlətin halını ifadə edən fikirlər poetik vüsət qazanıbdır. Birinci iki misrada sorunun ciddiliyi, sonrakı misralarda insanın durumu əks olunubdur. "Təbəri" kəlməsi milli mücadiləni, özgürlük savaşını, böyük cihadı yada salmaq üçün, indi baş verənlərin tarixin ən səs-küylü hərəkatları ilə müqayisəsi məqsədilə işlədilmişdir. Şeirin doğurduğu hiss hər bir azərbaycanlının duyduqları ilə üst-üstə düşür və adamı razı salır. Ümumilikdə ikinci Qarabağ savaşı zamanında və otuz illik işğal ərzində Qarabağın - Azərbaycanın əhvalını şairlərin necə qələmə alması tarixin problemi kimi qəbul edilməlidir. Çünki siaysi tarixin bir qolu həmişə şairin çiynindədir və vaxtilə Q.Zakirin yazdıqlarından da Qarabağın əhvalı haqqında ən səhih bilgilər əldə olunubdur. Fəqət bu işi o şəxslər gərək görə ki, orden, medal gözləntisi ona yad olsun. "Nə yağlıq, nə ballıq heç nə yazmıram, Ordenlik-medallıq heç nə yazmıram". Bir də ki, şairin o sözü yazmağa qüdrəti çatmalıdır. Bu baxımdan, A.Arabaçı Qarabağın əhvalını hər dəfə düzgün anladır və zövqlə anladır.

***"Mən susmuşam söz tapmıram deməyə,***
***Acılarım gözüyaşlı danışır.***
***Qarabağda adam kimi dil açıb,***
***Vətən bu gün dağlı-daşlı danışır.***
***Çox ağırdı, təslimçilik şərtləri,***
***Dərd götürüb, şir biləkli mərdləri,***
***Qarabağın qara-qara dərdləri,***
***Qaragözlü, qaraqaşlı danışır".***

Qarabağ probleminin həllinə məsul beynəlxalq siyasi qüvvələr bizi hər zaman dağa-daşa salmaqla məşğul olublar. Metonimik üsullarla çalışan şair "problem" dalınca gəlib-gedən "beş düşüy"ün (A.A.) qara gözümüzə, qara qaşımıza "aşiqliyinin" dərin səbəblərinə işarə edir. Hər halda ön xətdə olaylar necə çalxanıb-bulansa da, bir gün sular durulur, "təmas xətləri" ayrı səmtdə müəyyənləşir. Lakin tarix təkcə tarix kitablarında deyil, ədəbi mətnlərdə qorunub saxlanır. Bədii söz təkcə təsvir etmir, müqayisələr, bənzətmələrdən ötrü baş sındırmır, bədii söz hissə, duyğuya çökür və yaddaşı bütövləşdirir. Şair illərlə süründürülən problemin həlli konsepsiyasını daha anlamlı fəhm edir. Çünki bədii sözün gücündə el gücü, el müdrikliyi, uzaqgörənliyi var.

***"Çatmır, kimsəyə çatmır səsi-ünü, harayı,***
***Ağırdı, çox ağırdı bu millətin şələsi.***
***Birləşməsə Arazın bu tayıyla, o tayı,***
***Yüz il də uzanacaq Qarabağ məsələsi..."***

Şair Qarabağ məsələsini doğuran əsas səbəbdən bəhs edir. O, Aprel döyüşləri zamanı böyük ümidlər ifadə edərək yazırdı:

***"Ordayıq aslan kimi, harda zəfər zəngi var,***
***Ruhumuzda baharın çox gözəl ahəngi var,***
***Kökləyin silahları, Qarabağda cəngi var...***
***Qələbəyə az qalıb.***
***Alov saçır cəbhədə, dəmir döşlü Qıratlar,***
***İtiribdi başını zəhərli həşəratlar,***
***Susqun-susqun qeyd edir,***
***mənzərəni "brat"lar,***
***Qələbəyə az qalıb".***

Nəhayət, qələbə əldə edildi. Giley-güzar etməyi xoşlamasam da, bir şeyə təəssüf edirəm ki, Aprel döyüşləri getdiyi vaxt bizim media qurumlarında sovet dövründə yazılmış müharibə şeirləri nəşr olunurdu. Məsələn, A.Arabaçının bu mövzuda yazdığı silsilə şeirlərinə müracət etmək olardı. Həmin döyüşlər gedən vaxt o yazırdı:

***"Nurlu çıraq tutub bir əli haqqın,***
***Bir də bayrağımı tutub bir əli***
***Bu saat bizimçün tək bircə söz var,***
***İrəli, irəli, ancaq irəli!***
***Toplarla dindirin "Rastı", "Şüştəri",***
***Duam getdiyiniz yolları qucsun.***
***Şuşanın, Laçının qızılquşları***
***Göylərin ən uca qatında uçsun.***
***Eheyy igidlərim dəli nərəli,***
***İrəli, irəli, ancaq irəli!"***

Bu cür şeirlərin müasir texniki yayım imkanlarının bol olduğu indiki şəraitdə efirdən, ekrandan səsləndirilməsi gərəkirdi ki, bunu da bizim media "nəzərdən qaçıra" bildi.

Hətta toplum qarşısında obyektiv mövqe sərgiləyən bir sıra intellektual yazı-pozu adamları da S.Vurğunun, S.Rüstəmin ikinci cahan savaşına həsr etdiyi şeirlərini saytlarda paylaşaraq müasir ədəbiyyatımızın yaxşı nümunələrinə göz yumdular. Ayaz Arabaçı isə sosial mediada yazırdı:

***"Şükür Tanrım, çox şükür ki, əridi bu buz,***
***Danışanda qısılmırıq,səsimiz doyur.***
***Neçə gündü, Qarabağda Milli Ordumuz,***
***Məsələni ciddi-ciddi yoluna qoyur.***
***Yolu yoxdu bu millətin geriyə kəsin!***
***Erməniyə dil verənin yuxusu qaçsın.***
***Durub elə peysərini günə verməsin,***
***Dünya bir az gözlərini qoy geniş açsın.***
***Dayanmışıq şərəfində yenilməz gücün,***
***Bir ocağın alovuna hoy eləyirik.***
***Biz cəbhədə şəhid olan hər oğul üçün,***
***Yas tutmuruq sazlı-sözlü toy eləyirik.***
***Hansı qüvvə zəiflədib suyunu sıxmış,***
***Birdən-birə dəllalların batıb səsi də.***
***Rədd edirik alt çənəsi qabağa çıxmış,***
***İllərdi ki, mamır basmış atəşkəsi də.***
***Sona yetdi, allı-güllü nağıllarımız,***
***Cəbrayılda, Zəngilanda saxlasın qatar.***
***Şir biləkli, od nəfəsli oğullarımız***
***Bu gedişlə iki günə Şuşaya çatar".***

Şair haqlı idi, müharibə cəmi qırx dörd gün çəkdi, düşmən basıldı, Şuşa azad oldu. Babalarımız nağıl yazıb siqləti ağır yüklərin aşırılmasına qırx gün möhlət verir. Əsgərimiz buna əməl etdi. Ədəbiyyatın gücü dar gündə təkcə ümid, ruh vermək deyil, həm də tale yüklü sorularda anons verməkdir. Şeirdə yol, infrastruktur, daha rahat yaşayış barədə qabaqcadan xəbər verilir. Bu minvalla bizim qatarların Qarabağın bütün yaşayış məntəqələrində "posadka" eləməsinə şairin təbirincə az qalıb.

Ayaz Arabaçı ədəbi təfəkkürün "ictimai poeziya" deyilən sütunlarını inşa etmiş sənətkarlarımızdan biridir. Haqsevər poeziyanın Xaqani, Səhənd, Hadi, Sabir kimi nümayəndələri ilə bir sırada durmağa Ayaz Arabaçının haqqı çatır. Təkcə torpaq, ərazi deyil, uzun illər ərzində itirilən çox nəsnələri ədəbiyyatsız xatırlamaq, yada salmaq çətindir. Çünki ədəbiyyat ümumiləşdirir və bundan dərs çıxarmağa məcbur edir: "Heyif ki, pas atmış tapança kimi Qızıl günlərimiz qoburda keçdi".

Bugünkü publisistikanın çox hallarda hıqqana-hıqqana dediklərini, ya deyə bilmədiklərini poeziya daha "mənzilli" (S.Vurğun) ifadə edə bilir. Şairin fərdi üslubunda çox mətləblərin üzə çıxması mümkündür. Bədii pafos hər zaman işə yarayır, necə deyərlər, "adamın atasını yandırmağa" kifayət edir. Dünya bina olunandan insan həmişə cızığından çıxır. Onun burnundan vurub qaytarmaq üsulu şeir yazmaqdır. A.Arabaçının şeiri bu üzdən də bizə çox lazımdır.

***"Nə qara gözlərə baxan tapılar,***
***Nə qara qaşların zəmanəsidi.***
***Xonçaya bəzəyib mədh eləyirlər,***
***Dəyərsiz başların zəmanəsidi.***
***Bu tarix nə yaman qısa fırlanır,***
***Əlində çəliyi Musa fırlanır,***
***Qibləmiz təzədən rusa fırlanır,***
***Yenə yoldaşların zəmanəsidi.***

Bu iki bəndin ümumiləşdirmə gücü yalnız orada əks olunan fikirlə bağlı deyil, məzmunun çatdırılmasında tipik söz və ifadələrin, hətta əhvalatların, tarixi bilgilərin bədii improvizasiyası ilə bağlıdır. Şüura bu şəkildə "həmlə etmək" mümkündür. Onsuz da siyasət adamları belə məzmunlu şərhlərlə hər gün çıxış edirlər. Məsələ burasındadır ki, hər cür siyasi şərhin sonunda belə aforistik sitatlara, problemin kökündən çözülməsi üçün şeirə istinad etməyə ehtiyac yaranır. Bu cür sitatlar, əlbəttə, hər zaman tapılmır, defisitdir desəm, yanılmaram. Bu yazı metodikası yazardan xüsusi qabiliyyət tələb edir. Çətin olsa da, A.Arabaçı bu mövqeyi - şair və vətəndaş mövqeyini heç nəyə dəyişməmək əzmindədir.

***"Qurd kimi uladıq qələmim və mən,***
***Amma ki sapmadıq heç yolumuzdan".***

Başqa bir yerdə şair məqamını daha poetik bəyan edir:

***"Mənim əllərimdə siqardan da çox***
***Qələm tüstülənib bu yaşa kimi".***

Hesab edirəm ki, Ayaz Arabaçı sənətinə baxış üçün bura qədər yazdıqlarım da kifayət edər. Ancaq yazının sonunda bir məsələni qeyd etmək istəyirəm ki, şair hər hansı mövzunun aktuallığı ilə ağ günə çıxa bilməz. Şeir yazmağa mövzu çox olsa da, onun qələmə alınması yollarının axtarılıb tapılması müəllifin üzərinə düşən işdir. Onsuz da bütün qələm adamlarının əbədi qərarlaşacağı məkan sosial platformadır. Güldən, bülbüldən yazılsa da belədir, xalqdan, məmləkətdən yazılsa da belədir. Ədəbiyyatda haqq anlayışı yaxşı yazmaq anlayışı ilə üst-üstə düşür. Ona görə də:

***"Hər şair qələmi haqqı hayqıran,***
***Silaha dönməsə sonu süqutdur.***
***Şərəflə qorumaq öhdəliyim var,***
***Qələm də papaqtək bir atributdur".***
***yazan şair haqlıdır.***



Hidayət Orucov

## Zəngəzur

*Dayım Əli Məmmədovun unudulmaz xatirəsinə*

*1. Harda xəstələnsəm...*

Bir asta yeri dağ cığırlarla -
Qar uçar,
daş qaçar,
qaya sürüşər...
Aranda dayanıb uca dağlara
Boylanmaq istəsən,
papağın düşər.

Dəli çağlayanlar hayqırar, çaxar,
Durnalar
karvanı olar göylərin.
Gözəllik
çaylara qoşular, axar,
Dağlar fikirlidir,
dərələr - dərin...

Bu ulu diyarın hər çəhlimini
Çəkmişəm ömrümün varaqlarına.
Harda xəstələnsəm, a dostlar, məni
Çatdırın Zəngəzur yaylaqlarına.

Görüb qartalların öz yuvasını
Çinara dönərəm,
dağ olaram mən.
Udub zirvələrin saf havasını,
Davasız-dərmansız sağalaram mən.

*2. Təbiət tərifləyib*

Bura durnagözlü bir diyardır ki -
Tale gözəlliyi yerə səribdir.
İydəli, söyüdlü ilk bahardır ki,
Ana təbiətdən təriflənibdir...

Mığrı gecələri qəndiltək yanar -
Ulduzlarmı yerə tökülüb, nədir?
Xəllərgə çayının nəğməsi ki, var,
Təbiət dilində min hekayədir...

Qafanın qəribə səfası vardır;
Arxası söykənmiş uca dağlara,
Dağ yolu - alnının qırışlarıdır,
Sinəsi oxşayır ilkin bahara.

Zəngəzur - bir sevən nəğməli ürək:
Təzadlı,
zirvəli,
bağlı-bərəli.
Bir əli yapışıb Arazdan bərk-bərk,
Buludlarda itib o biri əli.
Qəcəldən arana baş alan yellər
Dəli Koroğlunun telli sazımı?
Dibsiz dərələrin bəs nə gileylər? -
Dərələr
ömrünün etirazımı?

Üçtəpə
təpədən-dırnağa çiçək,
Qayalar anadan haça olubdur.
Sinəsindən ötmüş qoç igidlərtək
Zəngəzurun başı uca olubdur.

*3. Babamın yaşıdı, mənim yaşıdım*

Çoban çarığının bağı açılıb,
Cığırlar
dağların yaşı olubdur.
Ələngəz
babamla qoşa qocalıb,
Qırx dörddə mənimlə bir
doğulubdur!

Hicran harayı var hər gur bulaqda,
Neçə nər qəhrəman burdan su içib.
İndi mən gəzdiyim bu düzdən, dağdan,
İldırım vüqarlı igidlər keçib.

Qan-qada görübdür burda babalar;
Yüz kəndin torpağı - daşı itibdir.
Lökdə bir meşənin məzarlığı var -
Kötük - başdaşların yaşı itibdir.

Qaşlar çatılıbdır burda bir vaxtlar,
Nifrətlər, qəzəblər aşıb-daşıbdır.
Zəngin sərvətiylə öyünən diyar
Bir vaxt lütləriylə məşhurlaşıbdır.
Quraqlıq çox erkən qovub baharı,
Çörəksiz yetimin bənizi solub.
"Kasıb" Zəngəzurun qızılı-varı
"Səyyah" ingilisin cibinə dolub.

Zəngəzur lütləri gəzib hər yanı,
Dolaşıb kədərli, diyarbadiyar.
Bəzən də tökülən günahsız qanı
Tarixdə qalıbdır acı yadigar.

*4. Payızla qış arasında*

Ələngəzdən Zəngəzura baxıram -
Dağların başında duman görünür.
Ürəyimi yandırıram, yaxıram,
Yalçın qaya,
sürü,
çoban görünür...

Duman kəmər kimi qurşanıb dağa.
Gecə...
kəmər qaşı - göydə min ulduz!
Bir az istiləşib qaynar bulaq da,
Təpələr - kədərli,
qayalar - yalqız.

Bu yerin payızı, yoxsa qışıdır? -
Qışın özünə yurd axtarışıdır? -
Çoban daş başında...
tonqal alışır,
Payız qışa
qış payıza qarışır...

*5. Zəngəzurdur!*

Bu el çeşmə məskəni,
Lilparlıdır suları.
Vəcdə gəlir insanın
İstəyi, arzuları.
Burda hər qarış torpaq
Gözəlliyin quludur,
Hər daş, hər iz, hər bulaq
Müqəddəsdir, uludur.
Tale tərifləyibdir,
Hər cizgisi yerində -
nər artıq şey, nə qüsur,
Bir söz: - gözəllik yurdu
Zəngəzurdur,
Zəngəzur!

Bağlarına dayan, bax!
Dağlarına boylan, bax!
Dərəsinə, düzünə,
Qayasına hər an: bax!
Arxlarına pıçılda
Ürəyində nəyin var?
De, köksünü sıxmasın
Kədər, həyəcan, qubar.
De, dinləyər dərdini,
Əlac eləyər sənə.
De, boşaldar qəlbini
Göylərin qübbəsinə.
Burda her şey minnətsiz,
Dünya büllurdan - büllur.
Bir söz, dolaşdığın yer
Zəngəzurdur,
Zəngəzur!

Harda qarşına çıxsa
Təmənnasız yaxşılıq,
Harda üzünə gülsə
Mehribanlıq, xoş qılıq,
Sevgin qanad açaraq
Zirvələrdə dolansa,
Harda yaran sağalsa,
Harda ömrün uzansa,
Harda qəlbinə dolsa
İnam, əzəmət, qürur -
O yerin əzəl adı,
İndiki gözəl adı
Zəngəzurdur,
Zəngəzur!

1965, iyun-dekabr
1975, fevral

## Zəngəzurludur!

Çəhlimlər dırmaşar, cığırlar qalxar,
Üfüqlər sabahın işıq yoludur.
İldırımlar dinər, şimşəklər çaxar -
Ən məğrur nəğmələr zəngəzurludur.

Taleyin torpağa bəxşişidir bu -
Paklığı, qeyrətin, əzmin qoludur.
Minnətsiz yaxşılıq, şirin hiss, duyğu,
Sədaqət, etibar zəngəzurludur.

Hər parça göy səma, hər zərrə torpaq
Ulu gözəlliklə yenə doludur.
Hər coşqun dağ çayı, hər şəffaf bulaq
Çox dərə, çox zirvə zəngəzurludur.

Burda min illərdir yaşayır ellər -
Tarixin alınmaz şöhrət yoludur.
Ən zərif nəğmələr, ən şirin dillər,
Ən təmiz məhəbbət zəngəzurludur.

Ozan mahnısında dillənir hünər, -
Şeir də, sözü də zəngəzurludur,
Tale bəxşişidir, vallah, deyirlər:
Allahın özü də zəngəzurludur...

İrəvan, 1980

# 49 illik ayrılıqdan sonra görüş

**Bu fikir Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü. "Qızıl qələm" media mükafatçısı Faiq Şükürbəylinin "Şuşa Pedaqoji Məktəbinin 1975-ci il məzunları" adlı kitabının təqdimatı mərasimində səslənmişdir. Söhbət həmin məktəbin "IV-VIII siniflərdə Əmək təlimi və rəsmxət" şöbəsinin 1975-ci il məzunlarından gedir.**

Xatırladırıq ki, bu ilin aprel ayının 16-da məzunların 49 ildən sonra Bakı şəhərində görüşü keçirilmişdir. Yaddaşlara əbədi hopan bu möhtəşəm görüşdə şöbənin məzunları haqqında memorial xarakterli bir kitabın yazılması təklif olunmuşdur. Budur, məzunlar Qəbələ şəhərində həmin kitabın işığına toplaşmışlar.

Öncə şəhidlərimizin, dünyasını dəyişən müəllimlərimizin, həyatdan vaxtsız köçən tələbələrimizin xatirələri bir dəqiqəlik sükutla yad edildi.

Məktəbin məzunu, , filologiya üzrə fəlsəfə doktoru Faiq Şükürbəyli çıxış edərək müəllimlərin bəşər cəmiyyətində tutduqları mövqedən, onları ictimai fəallığından və əvəzsiz nüfuzundan söz açmışdır. Fikrini tarixi faktlarla əsaslandıran müəllif nəzərə çatdıdır ki, Napoleon ayağa qalxaraq müəlliminə oturmaq üçün özünün hökmdarlıq kreslosunu təklif etmişdir. Əmir Teymur müəlliminin ayaqları altında dəfn olunmaını vəsiyyət etmişdir. Demokrit müəlliminə qarşı haqsızlığı və ədalətsizliyi görməmək üçün güzgünü günəşə qarşı tutaraq, güzgüyə baxmış və gözlərini əbədi kor etmişdir. Ulu öndərimiz Heydər Əliyev bütün müəllimlərə, eləcə də öz müəllimlərinə həmişə qayğı ilə yanaşmışdır.

Qrupun əlaçı məzunu Tahirə Aslanovanın çıxışı maraqla qarşılanmışdır. "Biz müəllimlərimizdən dərs al-



dıq, əvəzində isə 48 il şagirdlərin təlim-tərbiyəsi ilə məğul olduq"-deyə çıxışını davam edən Tahirə xanım belə bir sualı gündəmə gətirdi: "Bəs bu dörd ildə müəllimlərimizdən nəyi öyrəndk?" sualının cavabını da özü açıqladı:

-Bu dörd ildə biz müəlimlərimizdən otaqlıdan çox papaqlıya, gəbəlidən çox qəməliyə, camaldan çox kamala üstünlük verməyi öyrəndik. Burada "otaqlı" və "gəbəli" deyəndə dünyanın malına həris olanlar, "papaqlı" və "qəməli" deyəndə isə mərdanə, vətənpərvər insanlara işarə edilir. Müəllimlərimiz bizə uçan quşun dalınca qaçan, çənədən saz, ağıladan az, darısından çox qarısından danışan adamlardan gen gəzməyi öyrətdi.

Məzunlardan Yadulla İsmayılov tədbir iştirakçılarını salamladı, bu görüşü möhtəşəm və tarixi hadisə kimi dəyərləndirdi. Bü cür kitabların yazılmasının tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirdi.

Səfiqulu Mirzəyev belə görüşlərin tez-tez keçirilməsinin əhəmiyyətindən danışdı. Fikrini Məgəmməd (ə.s) peyğəmbərin müdrik kəlamı ilə tamamladı: : "Salamlaşın ki, aranızdakı sevgi və məhəbbət artsın. Onun fikrincə bu kitabda çap olunan məqlələr toplusu, eləcə də hər bir şəkil bizim həyətımızın müəyyən anlarını əks etdirən real faktlardır.

Cahan Kərimova bu görüşdən çox məmnun qaldığını və uzun müddət bu görüşün təsiri altından çıxa bilməyəcəyini diqqətə çatdırdı. "Hər şəkil bir tarixdirdir-deyə çıxışını davam edən natiq bildirdi ki, tələbələr arasındakı mehribanlığı özündə cəm edən bu kitab gələcəkdə təhsil alan tələbələr arasında mehribanlıq toxumu səpəcəyi qənaətində olduğunu diqqətə çatdırdı.

Sonya Qurbanova dedi ki, insanlar arasına mehribanlıq toxumu səpən, gələcəyə inamı daha da möhkəmləndirən bu kitabın tərbiyəvi əhəmiyyəti çox böyükdür. Bu kitabı oxuyanlar dostluq, yodaşlıq anlayışını əyani şəkildə müşahidə edəcəklər. Əminik ki, oxucularımız bu kitabı dəfələrlə oxuyacaq və özləri üçün lazımi nəticələri əxz edəcəklər.

Lətafət Abbasova bu kitabın məziyyətlərindən danışdı və onun məzunlarımızın stolüstü kitabına cevriləcəyi qənaətində olduğunu bildirdi.

Volodya Hüseynov kitabı diqqətlə oxuduğunu və xəyalən ötən günlərə qayıtdığını bildirdi. "Ötən gün ələ gəlməz"-deyə təəssüflənən natiq bu kitabın bütün məzunlar üçün ən qiymətli hədiyyə olduğunu vurğuladı və müəllifə təşəkkürünü bildirdi.

**Musiqinin sədaları altında davam edən tədbirdə məzunlar tələbəlik illərinin xatirələrindən danışdılar. əyləndilər, rəqs etdilər və şəkil çəkdirdilər. Artıq bir görüş də tarixləşdi, foto şəkillərin fonunda yaşanılan ömrün anlarına çevrildi.**

Zibəndə HACIYEVA

## Azərbaycanın zəlzələ və meşə yanğınlarındakı dəstəyi birliyimizin nümunəsidir



**Azərbaycan Prezidentinin "Bizim ailəmiz Türk dünyasıdır" ifadəsi böyük əhəmiyyət kəsb edir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Zəfər bayramı münasibətilə keçirilən tədbirdə çıxış edərkən deyib. O qeyd edib ki, bu gün Türkiyənin Azərbaycanla münasibəti daha da dərinləşib:

"Azərbaycanın iki il əvvəlki zəlzələdə və eləcə də meşə yanğınlarında göstərdiyi dəstək bizim birliyimizin, dayanışmamızın nümunəsidir. Buna görə minnətdarlığımızı bildiririk". Səfir Türkiyə Silahlı Qüvvələrinin gücündən də söz açıb:

"Müdafiə sənayesi layihəmiz 1000-i, şirkətlərimizin sayı isə 2500-ü keçib. Bu gün Türkiyə güclü ordusu ilə dosta güvən, düşmənə qorxu hissi yaşadır. Layihələrin ümumi olaraq 96 milyard dolları keçməsi müdafiə sənayesinin böyüklüyünü göstərir. Bu gün Türkiyə özünün hərbi təyyarəsini, helikopterini, hərbi gəmisini, sualtı qayığını, tankını, topunu, pilotsuz uçuş aparatlarını istehsal edən müdafiə sistemi yaratmış bir ölkədir".

## Vahid Ələkbərovun sərvəti açıqlandı

**Rusiyanın ən zəngin iş adamlarının sərvəti 2024-cü ilin əvvəlindən 28,431 milyard dollar artıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Bloomberg Billionaires Index" nəşri məlumat yayıb.

Bildirilir ki, ilin əvvəlindən "Severstal"ın təsisçisi Aleksey Mordaşov 5,73 milyard dollar qazanıb, sərvəti 26,6 milyard dollara yüksəlib, Eurochem və SUEK-in həmtəsisçisi Andrey Melniçenkonun sərvəti isə 5,26 milyard dollar artıb. Eyni zamanda, "Lukoyl"un təsisçisi Vahid Ələkbərov 3,59 milyard dollar qazanıb, onun sərvəti 28,2 milyard dollardır.

Ən böyük itkiləri Rusiyanın ən böyük dəmir filizi istehsalçısı olan "Metalloinvest"in səhmdarı Əlişir Usmanovun sərvəti 5,51 milyard dollar azalaraq 15,6 milyard dollara düşüb.

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 33 (2407) 6 sentyabr 2024-cü il



# SÖZ AZADLIĞININ İŞIĞI

**İnsanlar dünyaya gələndən sonra onlar sözü, danışmağı, ünsiyyət vasitəsini əsas dəyər kimi qiymətləndiriblər. Heç şübhəsiz, sözün və ünsiyyətin yerini heç bir başqa vasitələr verə bilməz. Ən azından ona görə ki, söz var ki sülh yaradar, əmin-amanlığı bərpa edər, insanları bir-birinə birləşdirər, söz də var ki, bir ölkənin altın üstünə çevirər, məmləkətləri bir-birinə düşmən edər. Bir sözlə, fitnə-fəsad yaradar, ev yıxar və bununla da insanların həyatında çox ağır, çox çətin məqamlar başlanar.**

Tarixən sözə çox önəm və qüvvət veriblər. Yəni sözün gücünü, qüdrətini və yerini bilibl ər. Ölkəmizdə də həmişə söz, mətbuat, fikir plüralizmi və düşüncə azadlığına xüsusi diqqət yetirilib. Düzdür, Sovet dönəmində də az-çox demokratik prinsiplər var idi, amma bu çox məhdud və qısa bir formada idi. Çünki Sovet dönəminin özünün sərt, ciddi bir rejimi vardı. Belə ki, bütün mətbuat orqanlarında gedən materiallar senzura tərəfindən yoxlanılır, araşdırılır, dəqiqləşdirilir və bundan sonra möhür vuraraq həmin materialların qəzetdə və televiziya kanallarında getməsinə icazə verilərdi. Bu isə təbii ki, birmənalı qarşılanmırdı. Biz həmin dövrdə çoxtirajlı qəzetlərin birində çalışırdıq və həmin qəzeti biz oxuyub hazırlayandan sonra müəssisənin partiya komitəsinin katibi diqqətlə oxuyar, hər şeyi dəqiqləşdirər, adi bir sözə görə bizə iradını bildirər, "yazdığınız fikir rejimin tələblərinə uyğun deyildir" deyib bizə iradını bildirər, hətta raykomun birinci katibi ilə hədələyərdi. Elə bir neçə dəfə bizim işlədiyimiz qəzet raykomun bürosunda müzakirəyə çıxarılmışdı, bir neçə ədalətli və vicdanlı insanların hesabına bizə töhmət verilmədi. Dedilər ki, həmin yazılarda dövlətin əleyhinə elə bir şey getməyib. Sadəcə olaraq, qəzeti çapa hazırlayanlar bir balaca siyasi cəhətdən təcrübəsiz olublar və xırda bir xətaya yol veriblər. Bax, Sovet dönəmində mətbuatda vəziyyət bu durumdaydı. Elə ki müstəqillik qazandıq, bundan sonra Azərbaycan mətbuatında da demokratik prinsiplərə, söz, mətbuat azadlığına, fikir plüralizminə və düşüncə sərbəstliyinə münbit şərait yaradıldı. Əlbəttə, Azərbaycan mətbuatında belə bir şəffaf mühitin və durumun yaradılması ilk növbədə yazarlar və cəmiyyət üçün əlverişli imkanlar yaratdı. Bu isə o deməkdir ki, artıq Azərbaycanda Sovet rejiminin mətbuatla bağlı qadağaları aradan qaldırılmış, senzura ləğv edilmiş və insanlar azad şəkildə müxtəlif mətbuat orqanlarında öz fikir və düşüncələrini ifadə etmək gücünə malik oldular.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gəlməsi ölkəmizdə demokratiyanın, hüquqi dövlətin və dünyəvi dəyərlərin daha da inkişafına yeni bir sağlam mühit yaratdı. Bu sağlam mühit ondan ibarət idi ki, kimliyindən asılı olmayaraq ölkəmizdə və cəmiyyətimizdə insanlar azad şəkildə öz fikirlərini ifadə etməyə başladılar. İstər mətbuat orqanlarında, istər televiziyalarda, istərsə də saytlarda yeni bir ab-hava yarandı. Bu ab-havanın yaranması onu deməyə əsas verirdi ki, ölkə müstəqillik dövrünə qədəm qoyandan sonra söz, mətbuat və fikir azadlığına "yaşıl işıq" yandırıldı. Heç şübhəsiz bu yaşıl işığın yandırılması cəmiyyətin rahat nəfəs almasına, insanların öz fikirlərini azad şəkildə ifadə etməsinə çox əlverişli bir təkan verdi.




Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi dövründə sözün həqiqi mənasında Azərbaycan mətbuatı can verirdi.

Çünki əksər müxalifət və müstəqil mətbuat maddi cəhətdən böyük çətinliklərlə üzləşirdi. Onların "Azərbaycan" nəşriyyatına böyük məbləğdə borcları vardı və bu borca görə də artıq bir neçə mətbuat orqanı çapını dayandırmalıydı. Amma Heydər Əliyev mövcud vəziyyəti söz yüksək dəyərləndirdi, çox sayda mətbuat orqanının "Azərbaycan" nəşriyyatına olan borcunun ləğv edilməsi ilə bağlı göstəriş verdi.

Aydındır ki, bu cür humanist addımlar nəticəsində iqtisadi cəhətdən çətinliklər yaşayan qəzetlərə yeni bir nəfəs verildi. Əgər bu yeni nəfəs olmasaydı, heç şübhəsiz, onlarla ictimai rəyə təsir edən və cəmiyyətin yüksək hörmət bəslədiyi mətbuat orqanları nəşrini dayandıracaqdı. Bununla yanaşı, Azərbaycan mətbuatında yeni bir mühit, yeni bir ruh yarandı. Bu da ondan ibarət idi ki, müxtəlif qəzetlərdə artıq heç bir senzuraya məruz qalmayan demokratik, orijinal və cəmiyyətə yeni mesajlar ötürən məqalələr çap olunurdu. Bu məqalələrin hər birində fikir plüralizmi, düşüncə sərbəstliyi və ən nəhayət, insanlarla səmimi bir dildə danışmaq, ünsiyyət yaratmaq elementləri var idi. Heç şübhəsiz, oxucular mətbuatı izləyəndə, televiziyaya baxanda, saytlara göz gəzdirəndə bu yenilikləri hiss edirdilər.

Azərbaycanda demokratiya, söz azadlığı və fikir plüralizmi prezident İlham Əliyevin iyirmi illik hakimiyyəti dövründə daha geniş vüsət aldı. Ulu Öndər Heydər Əliyevdən sonra prezident İlham Əliyev maddi çətinliklər içində olan 30-a yaxın mətbuata vəsait ayırdı. Bu vəsait ildə iki dəfə həmin mətbuat orqanlarının hesabına köçürüldü. Əgər bu vəsait olmasaydı, indiki çətin iqtisadi durumda həmin qəzetlər çapını dayandırardı. Azərbaycan mətbuatına İlham Əliyevin böyük diqqət və qayğısının nəticəsidir ki, bu gün ölkəmizdə çoxlu sayda demokratik dəyərlərə söykənən çap mətbuatı var və bu mətbuat ölkəmizdə dövlətçiliyin möhkəmlənməsinə, demokratiya və söz azadlığının genişlənməsinə, fikir plüralizminin vüsət almasına, düşüncə sərbəstliyinə təkan verir. Üstəlik də bir neçə dəfə Azərbaycan prezidenti "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. Tam səmimi deyirik, əgər bu dostluq olmasaydı bu gün ictimai rəyə təsir edən və xalq tərəfindən sevilən qəzetlərin hamısı çapını dayandırmışdı.

**Əlbəttə, jurnalistlərin belə sağlam mühitdə işləməsi, fəaliyyət göstərməsi onların sərbəstliyinə və istədiyi vəziyyətdə işləməsinə çox əlverişli mühit yaradır. Bu mühitin olması isə ona dəlalət edir ki, Azərbaycanda demokratik ənənələr inkişaf edəcək, söz, mətbuat azadlığı gündən-günə çiçəklənəcək, fikir plüralizmi və düşüncə sərbəstliyi yeni bir mərhələyə qədəm qoyacaqdır.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Əlisəmid Kür: "Ordan özümlə bərabər elə şeirlər çıxartdım ki..."

*İnsan taleyi müxtəlifdir. Oxşar talelər olsa da, heç kəs eyni taleyi yaşamır. Kimin payına ağ günlər çox düşür, kimin payına da boz günlər. Bu gün taleyi kədər yüklü şair Əlisəmid Kürün ömür kitabını vərəqlədik.*

**-Təbiətən maraqlı insansınız. Bunu hər kəsdən eşidirəm...**

- Qızım, ən əsas insanlarda səmimiyyəti sevirəm. Hər kəsdə də axtardığım budur. Kifayət qədər yaşım var. Bu illər ərzində çox yerlərdə olmuşam. Bir sıra yeməklər var ki, insan onu dadanda cızdığından çıxır. Yediyim xörəklərin bir başa yaradıcılığıma təsiri olur. Ağır yeməklər yeyəndə faciəli, dəhşətli yazılar meydana gəlir. Ancaq biraz pəhriz edəndə hiss edirəm ki, yaradıcılığım da sərinləyib. Həyat yoldaşım mənə pəhriz üçün xörəklər bişirəndə yaradıcılığım da körpə uşaq kimi məzlumlaşır.

**-Ömrünüzdə boz günlər heç də az olmayıb. Həmin müddət sizə bir sınaq idi, yoxsa taleyin zərbəsi idi?**

- Ümumiyyətlə, taleyin zərbəsi sözünü özüm üçün qəbul etmirəm. Yaşadıqlarımdan isə qətiyyən peşman deyiləm. Bilirsən, qızım, belə bir yol mənim taleyimə yazılmışdı. Mən bunu yaşadım. Maraqlısı bunu yaşamağım deyil, bunu necə yaşamağımdır. Bu məqam çox vacibdir. Ömür yolu hamı üçün eynidir. Əsası odur ki, kim o yoldan necə keçir. Hər şey insan üçün əvvəldən ölçülüb-biçilib. Əsas odur ki, hardan hara gedirsən. Bu, insan həyatında mühüm rol oynayır. Elə ağır yollar var ki, o yoldan mərd keçmək hər oğlanın işi deyil. Ancaq bu gün mən cəmiyyətə qarışmışamsa, demək mən bu gün özümü Əlisəmid olaraq təsdiq etmişəm. Çoxları türmədən çıxandan sonra gəlib deyir ki, mən çıxdım. Amma elə deyil ki, qızım. Əsas odur ki, orda necə oturursan, necə dözürsən və necə çıxırsan. Qaranlıq bir dünyadan cəmiyyətin qarşısına necə çıxdığından söhbət gedir. Türmə mənə çox şeirlər verdi. Mən ordan özümlə bərabər elə şeirlər çıxartdım ki, həmin şeirlər əsl poeziya idi.

**-Demək həbsxana həyatı poeziyanıza böyük təsir edib...**

-Qızım, poeziyam elə o türmənin içindədir. Bir cavan jurnalist mənim haqqımda türmədə yazdığım şeirlər haqqında elə bir yazı yazmışdı ki, həmin yazı məni çox kövrəltdi. Yazını oxuyub dəhşətə gəldim ki, bu gənc xanım mənim poeziyamı necə də əzbər bilirmiş və daha dəqiq dərk edirmiş.

Demək hələ də duyğulu, dəqiq və yaxşı oxucular var...

**-Yaxşı oxucu demək ki, həmişə axtarışdadır...**

-Axı bizim kimi şairlər də deyirlər ki, biz hər oxucu üçün şeir yazmırıq. Ola bilsin mənim 100 oxucum var. Ancaq o 100 oxucu sırdan 10000 oxucunun beynindən daha güclüdür. Qızım, kütlə onsuzda həmişə bayağı mədəniyyəti, bayağı poeziyanı sevib. Bu bütün vaxtlarda belə olub. Ancaq dəyərli oxucular da az deyil...

Mən muğamın milyondan bir hissəsini bilə bilərəm də təbii ki. Ancaq Alim Qasımov oxuyanda mənim bütün əzalarım titrəyir. Ruhum bədənimdə çırpınır. Bax şeir də belədir, qızım. Qulu Əsgərovun. Rübabə Muradovanın səsi məni ağladır.

Bir dəfə müsahibə verməyə gedirdim. Mən həmin ünvana çatdım və jurnalist məni qarşılamalı idi. Həmin jurnalist mənim yanıma çatan vaxtda bir kişi mənə yaxınlaşdı, salamlaşıb görüşdü.



Mən bunu tanımadım. Mənə dedi ki, mən sizi tanıdım, siz şair Əlisəmid Kürsünüz. Sizin ”intihar” şeiriniz məni intihar etməyə qoymadı. Məndən müsahibə alacaq jurnalist də artıq yanımda idi. Cavan oğlan təəccüblənmişdi.

**- Ən ağır vaxtlarınızda nəyi oxuyursunuz?**

- Hələ türmənin dəlixanasında idim. Ordan çıxmağıma 2- 3ay var idi. Oranın pəncərəsindən çölə yağan qarı seyr eləmək o qədər çətin idi ki, mən həmin anlarda Nazim Hikmətin ” İnsan mənzərələri” ni oxuyurdum. O barmaqlıqlar arasında yamaşağıma səbəbkar o əsər idi. O sözlər mənim nə vaxtsa azadlıqda olacağıma və hamı kimi yaşayacağıma ümidimi artırırdı.

**-Sözlər mənəvi qidadır, deyilmi?**

- Əlbəttə, qızım. Söz adamı yaşamağa məcbur edir, söz adamı qoruyur. Şeir mənəvi qidadır. Əsl oxucunun xörəyi yaxşı şeirlərdir. Şairin şeirində ”sən bu dünyadan nə istəyirsən”ə cavab olmalıdır.

Qızım, inan ki, indi onurğasız şairlər çoxdur. Bu onurğasızlara bəzi yaşlı şairlər də aiddir, cavan şairlər də. Ancaq onurğalı şairlər var ki, biz onları dana bilmərik. Ramiz Rövşən, Vaqif Bayatlı Odər, Eldar Baxış- bunların şeirlərinin onurğası var.

**- Bu sualı səmimiliyinizdən istifadə edib verirəm. Cavanlıqda sizi tənqid edən müəllimi pəncərədən yerə atmağınıza nə gərək var idi?**

- Bu hadisə 1983-cü ildə Natəvan klubunda baş verib. Məni tənqid edən oğlan heç ədəbiyyatçı olmadı. Poeziya günü idi, hamı şeir oxuyacaqdı. Cabir Novruz dedi ki, Əlisəmid gəlsin. Bu oğlan da dedi ki, Cabir müəllim, ona söz verməyin.

O mənə dedi ki, səni pəncərədən atacam. Mən şeirlərimi oxudum və biraz Cabir müəllimlə mübahisəmiz oldu. Həmən şeirlər 4 aydan sonra ”Azərbaycan” jurnalında çap olundu. Təəssüflər olsun ki, həmin şeirləri mən azadlıqda deyil, həbsxanada oxudum. Atam jurnalı Xarkova gətirmişdi.

Mən Xarkovda türmədə olanda bu ünvana X.R.Ulutürk məni xalqın şairi kimi dəyərləndirib namədə şeir göndərmişdi. Onda özü heç xalq şairi deyildi.

Anar müəllim mənə 2 dənə məktub yazmışdı. Məktubu alıb oxuyanda qarın içində ağlaya-ağlaya getmişəm ki, bu boyda insan mənə türmədə də olanda dəyər verir.

Bütün bunlar qayıdıb özümü təsdiq etmək üçün mənə böyük dayaq idi. Bundan bir il sonra mən kitabım çap olunmadan SSRİ Yazıçılar İttifaqına üzv olundum.

Şairliyi insan zorla özünə tale edə bilməz. Qızım, sən həyatından, yaşadıqlarından və yaradıcılığından peşman olmayan bir şairlə həmsöhbət olursan.

Şeir hadisələrdən doğulur...

**-Demək taleyin hökmü ilə məcbur barışırsınız...**

-Əlbəttə, bu taleyin hökmü idi. Mən özüm də bilmədən bütün bu qaranlıqların içindən özümə bir işıq yolu tapdım. Bu yolu tapmaqda şeirlərim də az yardımçı olmadı.

Mənə həmişə xəbər gətirirlər ki, Təbrizdə yüz min nəfərlik stadionda mənim şeirim oxunur.

Əbülfəz Elçibəy vəfat edən günü mən varanokda idim. Biz keçəndə varanoku dayandırdılar, Elçibəyi apardılar. Ordan bir adam qışqırdı ki, maşını saxlayın.

Bu kişinin vaxtında əhf etmə olub. Elçibəyin qırx mərasimində mən artıq türmənin dəlixanasında idim. Amma Elçibəyin 40-ı günü onun qəbri üstündə mənim şeirimi oxuyublar. Onda Vaqif Bayatlı Odər yanıma gəlmişdi. Bu xəbəri o çatdırdı mənə.

Qızım, vallah mənim həbs olunmağıma da paxıllıq eləyirdilər. Elə şair dostlarımız var idi ki, deyirdilər ki, Əlisəmid tutlub amma şeirləri meydanlarda oxunur. Türmədə yatan bir şairin şeirlərini meydanlara qısqanan çəmiyyətdə yaşayırıq.

**- Əlisəmid müəllim, yaza bilmədikləriniz sizi incidir?**

- *(Fikrə gedir...)* İndi də. Yazmadıqlarım məni ağrıdır. Mən şeirlərimi yaşaya- yaşaya yazıram. Poeziyaya heç bir süni bəzəkli tərif vermək lazım deyil.

**Əntiqə Kərimzadə**

## TƏBRİK



**Azərbaycanın ən gözəl qızlarından biri, xanımlar xanımı Aylanın dünyaya gəlişi təkcə ata-anasının, nənə-babasının, dayı-xalasının, əmisinin deyil, həm də bu ailəni tanıyan, bu ailəyə böyük sayğı bəsləyən hər kəsin ürəyincə oldu. Çünki adı kimi özü də gözəl olan bu xanım gəlişi ilə bir evin, bir ailənin işığını bir az da artırdı. Xüsusilə dayısı Sübhanın ürəyinin hərarəti, qəlbinin pıçıltısı, yuxularının şirinliyi nağıllaşdı və o Aylanı həyatının mənası kimi gördü. Elə bu gün də onu həmidan əvvəl dayısı, sonra isə bütün doğmaları ürəkdən təbrik edir, doğum gününün mübarək olsun, Ayla xanım! - deyir.**

**Biz də bu təbrikə qoşulur və bu çiçəyə cansağlığı, sevinc, təbəssüm, həmçinin həyatın bütün gözəlliklərini arzu edirik. Allah atalı-analı böyütsün.**

## *Cüdoçularımıza yeni mənzillər hədiyyə olunub*

**”Paris-2024” Yay Olimpiya Oyunlarında Azərbaycan cüdosunun tarixi nailiyyətinin qeyd olunması münasibətilə şam yeməyi məclisi təşkil olunub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı, ”Azercell” və ”AZMAN HOLDİNG” şirkətlərinin dəstəyi ilə qurulan məclisin açılışında Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi anılıb.

Müslüm Maqomayevin məşhur ”Azrbaycan” mahnısı ilə başlayan tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmana qayğısını əks etdirən videoçarx təqdim olunub.



Daha sonra cüdoçularımızın son Olimpiya Oyunlarındakı qələbəsinin ən maraqlı məqamlarını göstərən videoçarxlar nümayiş edilib.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev, Milli Olimpiya Komitəsinin sədr müavini Çingiz Hüseynzadə və gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək, cüdoçularımızın qələbəsindən, ölkəmizdə idmana göstərilən qayğıdan danışıblar.

Tədbirdə son Olimpiya Oyunlarının qalibləri Hidayət Heydərova və Zelim Kutsayevə Beynəlxalq Cüdo Federasiyasının Cüdo üzrə Qızıl Nömrələri təqdim olunub.

Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, ”Judo Club 2012” idman klubunun təsisçisi Azər Əsgərov elan edib ki, ”AZMAN HOLDİNG” şirkəti indiyədək olimpiya çempionu titulu qazanmış cüdoçularımızı və son olimpiadada qızıl medal almış idmançılarımızın şəxsi məşqçilərini mükafatlandırmağı qərara alıb.

Daha sonra Azər Əsgərov yeni mənzillərin rəmzi açarını 1992-ci il Yay Olimpiya Oyunlarının qalibi Nazim Hüseynova, 2008-ci il Yay Olimpiya Oyunlarının qalibi Elnur Məmmədliyə, 2024-cü il Yay Olimpiya Oyunlarının qalibləri Hidayət Heydərova və Zelim Kotsoyeva, həmçinin Azərbaycanın əməkdar məşqçiləri Tərlan Həsənov və Elxan Məmmədova təqdim edib.

Azərbaycan Cüdo Federasiyasının zövqlə tərtib etdiyi ssenari əsasında tanınmış müğənnilər Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun, Sevda Ələkbərzadənin, habelə müxtəlif musiqi qruplarının vətənpərvərlik mövzusunda ifaları, cüdo yarışlarından fərqli və original video-çarxlar, idmançıların maraqlı rəqsləri məclisə xüsusi rəng qatıb.

# Aktrisa: «Müəliməm də mənə dəstək olmadı»

**Aktrisa Zarina Qurbanovaya bu sənətdə üzləşdiyi çətinliklərdən danışıb.**

Adalet.az bildirir ki, o, heç kəsdən dəstək görmədiyini dilə gətirib:

”Mən bu sənətə gələndə məni dəstəkləyən heç kəsim yox idi. Yol göstərməyin özü böyük dəstəkdir. Müəllimlərim belə ”ay bala, bu teatra get”, ”sən bunu etsən yaxşı olar” demədilər. Halbuki mən universitetin ən yaxşı tələbələrindən biri olmuşam. Ali məktəbi fərqlənmə diploma ilə bitirmişəm. Buna baxmayaraq heç kəs yol açmadı. Bizim qrupda 117 nəfərdən qızlardan yalnız mən peşəmi davam etdirdim. Deyirdilər ki, boyun balacadı, çox cılızsan. Və sən heç nə etməyəcəksən. Ancaq çalışmağım, qarşıma çıxan şans və iradəmin sayəsində bu uğuru qazandım”.



**Əntiqə**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 195**
Çapa imzalanmışdır: 05.09.2024